RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 195 (9650) 8 sentyabr 2024-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Azərbaycan-Braziliya əlaqələrinin genişlənməsi bizi sevindirir

### Braziliya Federativ Respublikasının Prezidenti zati-aliləri cənab Luiz İnasio Lula da Silvaya

Hörmətli cənab Prezident!

7 Sentyabr - Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün Braziliya xalqını öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik etməkdən və ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Biz Braziliya ilə dostluq və əməkdaşlıq əlaqələrinin inkişafına böyük əhəmiyyət veririk. Ötən dövr ərzində Azərbaycan-Braziliya əlaqələrinin həm ikitərəfli, həm də çoxtərəfli əsasda genişlənməsi bizi sevindirir.

Bu il Bakıda təşkil ediləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası zamanı Braziliya ilə birgə sıx əməkdaşlıq edəcəyimizə inanıram. Qlobal istiləşməni 1,5 C° səviyyəsində saxlamaq məqsədilə Üçlük mexanizmi çərçivəsində ölkəniz və Birləşmiş Ərəb Əmirlikləri ilə apardığımız birgə fəaliyyəti yüksək qiymətləndirirəm.

Fürsətdən istifadə edərək G20 Sammitinin keçirilməsində ölkənizə uğurlar arzulayıram.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost xalqınıza daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 sentyabr 2024-cü il*

## Ümumavropa qaz təchizatçısı




## Prezident İlham Əliyev İtaliyada Azərbaycanın enerji potensialını və yeni hədəflərini bəyan etdi

Sayca 50-ci olacaq mötəbər forumda İlham Əliyevin əsas qonaq kimi iştirakı ilk növbədə ölkəmizin və Prezidentimizin beynəlxalq aləmdə yüksək nüfuzunun, etibarlı tərəfdaş statusunun, regionun aparıcı aktoru olmasının əyani təzahürü, eyni zamanda Avropanın enerji təhlükəsizliyinə verdiyi əhəmiyyətli töhfənin beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilməsidir.

1965-ci ildən fəaliyyət göstərən "The European House - Ambrosetti" İtaliyanın idarəetmə-məsləhət xidməti sahəsində aparıcı beyin mərkəzi hesab olunur. Ənənəvi olaraq üç gün davam edən forumun ilk günü, adətən, əsas qlobal tədbirlərə həsr olunur və müzakirəyə çıxarılan məsələlər iqtisadi, geosiyasi və elmi-texnoloji xarakter daşıyır.

Forumda çıxış edən İlham Əliyev bir daha Azərbaycanın enerji siyasəti, mövcud potensial, gələcək planlar və qarşıdakı hədəflər barədə geniş məlumat verdi. Prezidentin çıxışı böyük maraqla qarşılandı.

Azərbaycan-İtaliya münasibətlərini qiymətləndirən İlham Əliyev bildirdi ki, iki ölkənin ticarət əməkdaşlığı olduqca fəaldır. İtaliya Azərbaycanın dünyada bir nömrəli ticarət tərəfdaşıdır. Ötən il ticarət dövriyyəmiz 16 milyard ABŞ dollarına yaxın olub. Artım üçün potensial yalnız enerji sektorunda deyil, digər sahələrdə də görünür. Azərbaycan İtaliyanın bir nömrəli neft və ikinci ən böyük qaz təchizatçısıdır. Bu da əməkdaşlığın vacib hissəsidir.

Dövlət başçısı həmçinin enerji təchizatının yaratdığı reallığı dəyərləndirdi: "Bu gün enerji təchizatı onu aydın şəkildə nümayiş etdirir ki, enerji təhlükəsizliyi milli təhlükəsizliyin ayrılmaz parçasıdır. Azərbaycandan İtaliyayadək uzanan, "Cənub qaz dəhlizi" adlanan 3500 kilometrlik inteqrasiya edilmiş boru kəməri sistemi bu gün 10 ölkənin enerji təhlükəsizliyini təmin edir. Hazırda 10 ölkə Azərbaycandan qaz alır və onlardan 7-si Avropa İttifaqının üzvüdür. Bu səbəbdən Avropa Komissiyası Azərbaycanı ümumavropa qaz təchizatçısı və etibarlı tərəfdaş adlandırır".

Bir sözlə, Azərbaycan Prezidentinin İtaliyaya işgüzar səfəri bir sıra önəmli hadisələrlə yadda qaldı. İlham Əliyevin Avropa məkanı üçün əhəmiyyət kəsb edən mühüm bəyanatları və çıxışları beynəlxalq aləmin də diqqətini cəlb etdi. Prezident "The European House - Ambrosetti" beyin mərkəzi tərəfindən təşkil olunan beynəlxalq forumdakı çıxışı ilə Azərbaycanın Cənubi Qafqazdakı nüfuzunu və rolunu bir daha dünyaya nümayiş etdirdi.

Bütün bunlara əsaslanaraq deyə bilərik ki, aparılan danışıqlar, imzalanan müqavilələr Azərbaycan-İtaliya strateji tərəfdaşlığını getdikcə daha da gücləndirəcək.

→ 4

## Birinci vitse-prezident Mehriban Əliyeva Paralimpiya Oyunlarında gümüş medal qazanan Lamiyə Vəliyevanı təbrik edib




**Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan paraatleti Lamiyə Vəliyevanın "Paris-2024" Yay Paralimpiya Oyunlarında növbəti uğuru - gümüş medal qazanması ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edib. AZƏRTAC paylaşımı təqdim edir:**

"Paris-2024" Yay Paralimpiya Oyunlarında dünya rekordunu yeniləmiş qızıl mükafatçımız Lamiyə Vəliyevanın növbəti qələbəsi! Gümüş medal! Azərbaycanı layiqincə təmsil edən idmançımızı səmimi-qəlbdən təbrik edir, ona güc, enerji və yeni qələbələr arzulayıram!"

## Birinci vitse-prezident Mehriban Əliyeva Paralimpiya Oyunlarında qızıl medal qazanan Orxan Aslanovu təbrik edib

**Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan paraatleti Orxan Aslanovun "Paris-2024" Yay Paralimpiya Oyunlarında qızıl medal qazanması ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edib. AZƏRTAC paylaşımı təqdim edir:**

"Uzunluğa tullanma yarışında mübarizə aparan Orxan Aslanovu qızıl medal münasibətilə təbrik edirəm! "Paris-2024" Yay Paralimpiya Oyunlarında Azərbaycana medal qazandırmış bütün idmançılara minnətdaram! Paraatletimizə güc, enerji və yeni qələbələr arzulayıram!"




## Birinci vitse-prezident Mehriban Əliyeva Paralimpiya Oyunlarında bürünc medal qazanan İlham Zəkiyevi təbrik edib




**Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan paracüdoçusu İlham Zəkiyevin "Paris-2024" Yay Paralimpiya Oyunlarında bürünc medal qazanması ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edib. AZƏRTAC paylaşımı təqdim edir:**

"Növbəti qələbəmiz! İlham Zəkiyev "Paris-2024" Yay Paralimpiya Oyunlarında bürünc medal qazandı! Gərgin əməyinə və qələbə əzminə görə paracüdoçumuza təşəkkür edirəm! Milli yığmamızın bütün üzvlərinə yeni qələbələr və nailiyyətlər arzulayıram!"

## Birinci vitse-prezident Mehriban Əliyeva Paralimpiya Oyunlarında bürünc medal qazanan Raman Saleyi təbrik edib

**Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan paraüzgüçüsü Raman Saleyin "Paris-2024" Yay Paralimpiya Oyunlarında bürünc medal qazanması ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edib. AZƏRTAC paylaşımı təqdim edir:**




"Raman Saleyin "Paris-2024" Yay Paralimpiya Oyunlarında 3-cü medalı! Bürünc mükafatçını təbrik edirəm! Azərbaycan azarkeşlərinə bəxş etdikləri sevincə görə bütün qaliblərimizə təşəkkür edirəm! Hər bir idmançıya möhkəm cansağlığı, güc və yeni nailiyyətlər arzulayıram"

## "Qoy həmişə Günəş olsun!"

### Azərbaycan COP29 ərəfəsində bütün dünyaya atəşkəs çağırışı ünvanlayacaq

Azərbaycan hələ Qoşulmama Hərəkatına sədrlik etdiyi 4 il ərzində dünyanın istibdad zülmətinə bürünmüş guşələrinə işıq salmağa çalışmışdır. Müstəmləkə əsarətində əzilən kütlələrin fəryadına səs vermiş, beynəlxalq tribunalardan məzlumların haqlı mübarizəsini dəstəkləmişdir. Bu gün də Bakı Təşəbbüs Qrupu vasitəsi ilə həmin təqdirəlayiq fəaliyyətini davam etdirir, imperialistlərin müstəmləkə eybəcərliklərinə qarşı mübarizəsində inamlı və ardıcıl görünür. Elə neçə gün öncə Qəmər və Mayot adalarının nümayəndələrinin paytaxtımızda keçirilən növbəti tədbiri və qəbul olunan qərarlar da buna bariz nümunədir.

Təəssüf ki, dünyada savaşlar ara vermir, əksinə, böyüyərək yamyaşıl ərazilərin yanıb külə dönməsi, minlərlə günahsız insanların qətli, yaşayış məntəqələrinin, infrastrukturun, maddi-mədəniyyət abidələrinin dağıdılması ilə davam edir. Dövlətimiz isə belə mürəkkəb geosiyasi vəziyyətlərdə tarazlı xarici siyasət yürüdür, münaqişə tərəfləri ilə balanslaşdırılmış mövqedə dayanır, onları atəşkəsə, dialoqa səsləyir, sülh üçün bacardığı köməyi, eləcə də müharibədən əziyyət çəkən tərəflərə humanitar yardımını əsirgəmir. Bu humanist, sülhpərvər siyasətin davamı olaraq COP29 ərəfəsində bütün dünyaya atəşkəs çağırışı ilə müraciət etməyi nəzərdə tutur.

→ 7

# "Gənclərin hərbi sahədə təhsil almasının təşviq edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2381 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Gənclərin hərbi sahədə təhsil almasının təşviq edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2381 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 12 (I kitab), maddə 1642 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci və 4-cü hissələrə "gizir" sözündən sonra "(miçman)" sözü əlavə edilsin;

1.2. 5.2-ci bənd üzrə:

1.2.1. birinci abzasa "hallarda" sözündən sonra "ayrılıqda" sözü əlavə edilsin;

1.2.2. 5.2.1-ci yarımbəndə "gizir" sözündən sonra "(miçman)" sözü əlavə edilsin;

1.2.3. 5.2.2-ci yarımbənddə "ali təhsil müəssisəsinə qəbul olduqda" sözləri "müvafiq vəsaitin 50 faizi ali təhsil müəssisəsinə və ya hərbi kollecə qəbul olduqda, qalan 50 faizi isə bu Fərmanın 5.2.1-ci yarımbəndinə uyğun olaraq Azərbaycan Ordusunda müvafiq qaydada zabit və ya gizir (miçman) kimi vəzifəyə təyin edilərək həmin vəzifənin icrasına başladıqda" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 sentyabr 2024-cü il*

# Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının 2022-ci il 16 dekabr tarixli 693-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 323 (Cild I); 2024, № 1, maddə 31, № 3, maddə 257, № 5 (I kitab), maddələr 516, 518) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 9.13-cü bənddən "siyasi partiyaların," sözləri çıxarılsın.

2. Aşağıdakı məzmunda 9.13-1-ci bənd əlavə edilsin:

"9.13-1. "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq siyasi partiyanın fəaliyyətinin normativ hüquqi aktların və nizamnaməsinin tələblərinə uyğunluğunu yoxlamaq;".

3. 10.6-cı bəndə "şəxsin" sözündən sonra "(siyasi partiyalar istisna olmaqla)" sözləri əlavə edilsin.

4. 10.7-ci bənd aşağıdakı redaksiyada verilsin:

"10.7. "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda siyasi partiyaya münasibətdə məlumatları nəzərdən keçirmək, araşdırma aparmaq, izahat almaq, yazılı xəbərdarlıq etmək və digər tədbirlər görmək;".

5. 10.9-cu bənddə "qanunvericiliklə" sözü "qanunla" sözü ilə əvəz olunsun və həmin bəndə "partiyaların" sözündən sonra "fəaliyyətinin dayandırılması və ya" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 sentyabr 2024-cü il*

# Şamaxıda Üçüncü Üzüm və Şərab Festivalının açılışı olub

Sentyabrın 7-də Dövlət Turizm Agentliyi və Şamaxı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Şamaxı şəhərinin Meysəri kəndində Üçüncü Üzüm və Şərab Festivalının açılışı olub.













Festivala gələnləri nəfəs alətləri orkestrı və animatorlar qarşılayıblar.

AZƏRTAC xəbər verir ki, festivalın açılış mərasimində Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev və digər şəxslər iştirak ediblər.

Açılış mərasimində çıxış edən Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov bildirib ki, regionun turizm potensialı çox böyükdür. Vaxtilə yalnız aqrar region kimi tanınan Şamaxı bu gün həm aqroturizm, həm də turizmin digər bütün istiqamətlərində inkişaf edir: "Rayonumuzda aparılan çox böyük quruculuq işlərinə, həmçinin inkişafa görə Prezidentimizə bütün əhalimiz adından dərin minnətdarlığımızı bildirirəm. Bugünkü tədbir turizm sahəsinin inkişaf modelinin bir tərkib hissəsidir".

Tahir Məmmədov qeyd edib ki, hazırda bölgədə turizm istiqamətində ən başlıca faktor yerli və xarici turistlərin məmnunluğuna səbəb olan ümumi yeni inkişaf konsepsiyası, yeni modelin həyata keçirilməsidir: "Bu baxımdan Şamaxı şəhərinin ənənələri çox vacib yer tutur. Şamaxının poeziyası, musiqisi, xalçaçılığı, qədim tarixi abidələri, turistlərə çox yüksək səviyyədə təqdim olunmaq üçün hazırlanan bu konsert - bütün bu yeni model indi və gələn il şahidi olacağınız bir çox yeni layihələrlə sizin qarşınıza çıxacaq".

Tədbirdə çıxış edən Dövlət Turizm Agentliyi sədrinin müşaviri Kənan Quluzadə deyib ki, bu festival artıq turizm təqvimində öz yerini tutub: "Azərbaycanın bəlkə də ən peşəkar, ən dadlı, ən şən festivalıdır. Biz düşünürük ki, festivalın miqyası ildən-ilə genişlənəcək, bəlkə də beynəlxalq xarakter daşıyacaq. Azərbaycan şərabçılığının ənənələri çox qədim və zəngindir. Hazırda Azərbaycan şərabçılığı yeni mərhələni yaşayır. Dövlət Turizm Agentliyi olaraq şərabçılığın təbliğində maraqlıyıq ki, həm yerli, həm də xarici turistlər Azərbaycanın rəngarəngliyini hər zaman bilsinlər.

Festivalın ilk günü üçün dörd mindən çox iştirakçı ilkin olaraq rezervasiya etdirmişdi. Əlbəttə ki, sabah festival davam edəcək və iştirakçıların sayı daha çox olacaq. Ümumiyyətlə, festival iştirakçılarının sayı ildən-ilə artır".

İki ildir ki, bu festivalda işğaldan azad edilmiş ərazilərimizin də təmsil olunduğunu qeyd edən Kənan Quluzadə Tuğ kəndi və digər yerlərdən şərablar gətirildiyini bildirib.

"Hamınızı stendlərə, xüsusi olaraq Qarabağın autentik şərabını dadmağa dəvət edirəm. Digər 23 evin də qonağı olmalısınız.

Azərbaycanda əsas iki turizm marşrutu - şimal və qərb dəhlizi üzrə turizm şərab marşrutları yaradılıb. Azərbaycanın şərab marşrutu qonşu Gürcüstan və Rusiyanın cənub hissəsini əhatə edərək Avropanın ən uğurlu şərab marşrutlarından birinə çevrilib. Bizim uğurlarımız ildən-ilə artır. Düşünürəm ki, siz hazırda sözdən zövq almağa deyil, daha çox şərabdan zövq almağa toplaşmısınız. Odur ki, badələriniz dolu olsun", - deyə Kənan Quluzadə vurğulayıb.



Qeyd edək ki, festivalın keçirilməsinin məqsədi yerli üzüm və şərab istehsalını təşviq etmək, şərab məhsullarının ixrac potensialını artırmaq, Azərbaycanda üzümçülük və şərab istehsalı tarixinin və bu sahədə görülən işlərin geniş ictimaiyyətə çatdırılmasıdır.

Festival ərazisində sərgi, əyləncə, müxtəlif master-klas zonaları və tanınmış restoranların pavilyonları quraşdırılıb, 20-dən çox şərab evinin iştirakı təmin olunub. Həmçinin festival çərçivəsində musiqili proqram və müxtəlif əyləncələr təqdim edilir.

Ziyarətçilər yerli və xarici istehsalçıların şərab məhsullarını dada və bəyəndikləri məhsulları ala bilirlər.

Festivalda şərab istehsalçıları, şərabçılıq turizmi ilə məşğul olan sənaye üzvləri, rəsmi və media nümayəndələri daxil olmaqla, şərab həvəskarları aktiv formada iştirak edirlər.

Dövlət Turizm Agentliyi tərəfindən Azərbaycanın beynəlxalq səviyyədə tanınan yerli üzüm sortlarının və şərab növlərinin mövcudluğu nəzərə alınaraq şərabçılıq turizminin beynəlxalq səviyyədə təbliğatı aparılır. Ölkəmizdə qərb, şimal və şimal-qərb turizm marşrutları üzrə, o cümlədən Xocavənd rayonunun Tuğ qəsəbəsində mövcud qədim şərabçılıq ənənələrinin yaşadılması və turizm məqsədli istifadəsi əsas inkişaf istiqamətləri sırasındadır.

Həmçinin Azərbaycan 20 ölkənin şərabçılıq marşrutunu özündə birləşdirən, Avropa Şurası və Avropa Mədəni Marşrutlar İnstitutu tərəfindən şərab irsi və şərabçılıq turizmini, eləcə də dayanıqlı turizm növlərini təşviq etmək məqsədini yaradılmış "İter Vitis" maddi və qeyri-maddi şərabçılıq mədəni marşrutunun üzvüdür.

Qeyd edək ki, festival sentyabrın 8-dək davam edəcək.

# Müdafiə Nazirliyinin rəhbərliyi şərti sərhəd istiqamətində xidmət edən hərbi qulluqçularla görüşüb

Müdafiə naziri general-polkovnik Zakir Həsənov və müdafiə nazirinin müavini - Quru Qoşunları komandanı general-leytenant Hikmət Mirzəyev şərti sərhəd istiqamətində dislokasiya olunan bölmələrdə xidmət edən hərbi qulluqçuların sosial-məişət şəraiti ilə tanış olub.





Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, məruzə edilib ki, hərbi qulluqçuların xidməti fəaliyyətinin yüksək səviyyədə təşkili məqsədilə bütün lazımi infrastruktur qurulub və maddi-texniki təminatı normalara uyğun olaraq tam həcmdə həyata keçirilir. Sonra hərbi qulluqçularla görüşən müdafiə naziri Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı sayəsində hərbi qulluqçuların xidməti və sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində Azərbaycan Ordusunda həyata keçirilən tədbirlərdən danışıb.

Hərbi qulluqçularla söhbət zamanı general-polkovnik Z.Həsənov şəxsi heyətin qayğıları ilə maraqlanıb, onların peşəkarlığının, bilik və bacarıqlarının inkişaf etdirilməsi ilə bağlı müvafiq tövsiyələr verib.

# Azərbaycan Ordusunda maddi-texniki təminat üzrə toplanış keçirilib

Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində qoşun növü, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrinin maddi-texniki təminat üzrə idarə, şöbə (bölmə) və xidmət rəisləri ilə təlim-metodiki toplanış keçirilib.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, toplanışda nazirliyin Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi vəzifəsini icra edən general-mayor Eldəniz Yəhyayev iştirak edib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi birdəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Toplanışda cari il ərzində görülən işlər və əsas istiqamətlər üzrə yerinə yetirilən tapşırıqlarla bağlı məruzələr dinlənilib, maddi-texniki təminatın vəziyyəti və bu sahədə həyata keçirilən islahatlar təhlil olunub. Tədbirdə çıxış edən general-mayor E.Yəhyayev Azərbaycan Ordusunda maddi-texniki təminat sahəsində görülən tədbirlərdən və qarşıda duran başlıca vəzifələrdən danışıb.

Həmçinin maddi-texniki təminat üzrə ümumi vəziyyət, silahlanmaya yeni daxil edilmiş silah, texnika və digər vasitələrin uçotu, onların istismarı haqqında məlumatların çatdırılması, qoşunlarda maddi-texniki təminatın perspektivləri və qış dövrünə hazırlıqla bağlı məsələlər müzakirə olunub.

Bundan başqa, Azərbaycan Ordusunun Türkiyə modelinə uyğunlaşdırılması istiqamətində görülən işlər çərçivəsində maddi-texniki təminatın vahid mərkəzdən daha operativ idarə olunmasını təmin etmək məqsədilə yeni məlumat sisteminin yaradılmasından danışılıb.

Sonda Müdafiə Nazirliyinin rəhbərliyinin maddi-texniki təminatın gücləndirilməsi ilə bağlı müvafiq tapşırıqları aidiyyəti üzrə vəzifəli şəxslərə çatdırılıb.

# Polis əməkdaşları Xankəndidə, Şuşada və Xocalıda xeyli sayda silah-sursat aşkarlayıblar




Vətən müharibəsi və antiterror əməliyyatlarından sonra Böyük qayıdış prosesinin sürətləndirilməsi və təhlükəsizliyin etibarlı təmin edilməsi məqsədilə Daxili İşlər Nazirliyinin əməkdaşları qarşıya qoyulan tapşırıqları peşəkarlıqla həyata keçirirlər.

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, müharibə qalıqları, təhlükə mənbələrinin aşkarlanıb zərərsizləşdirilməsi prosesi fasiləsiz davam etdirilir. Bölgənin silah-sursatlardan, partlayıcı maddələrdən təmizlənməsi işi xidmətə cəlb edilən daxili işlər orqanları əməkdaşlarının əsas fəaliyyət istiqamətlərindən biridir.

Həyata keçirilən tədbirlərlə avqustun 31-dən sentyabrın 6-dək polis əməkdaşları tərəfindən Xankəndi şəhəri ərazisindən 11 avtomat silahı, 1 pulemyot, 4 tapança, 6 tüfəng, 11 qumbara, 1 qumbaraatan, 3 alışdırıcı, 4 süngübıçaq, 200 patron darağı, 9 min 786 ədəd müxtəlif çaplı patron və digər sursatlar, Şuşa şəhəri ərazisindən 1 avtomat silahı, Xocalı rayonu ərazisindən isə 18 mərmi aşkar edilərək götürülüb.

# FHN-in təyyarəsi İzmir-Berqama istiqamətində yanğınla mübarizə tədbirlərinə cəlb edilib

Prezident İlham Əliyevin tapşırığına əsasən Türkiyə Respublikasındakı güclü meşə yanğınları ilə mübarizə tədbirlərinə köməklik göstərilməsi məqsədilə qardaş ölkəyə göndərilmiş Fövqəladə Hallar Nazirliyinin Aviasiya dəstəsinin "BE-200ÇS" amfibiya tipli təyyarəsi yanğınsöndürmə əməliyyatını davam etdirir. Bu barədə AZƏRTAC-a nazirliyin Mətbuat xidmətindən məlumat verilib.



Bildirilib ki, əməliyyat çərçivəsində təyyarə İzmir-Berqama istiqamətində meşədəki yanğınla mübarizə tədbirlərinə cəlb olunub. Hazırda yanğınların söndürülməsi işləri davam etdirilir.

# "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyindəki xüsusi təyinatlı təhsil müəssisələrində təhsil almış hərbi qulluqçulara verilən güzəştli ipoteka kreditlərinə dövlət tərəfindən maliyyə dəstəyi göstərilməsi Qaydası"nın təsdiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Gənclərin hərbi sahədə təhsil almasının təşviq edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2381 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyindəki xüsusi təyinatlı təhsil müəssisələrində təhsil almış hərbi qulluqçulara verilən güzəştli ipoteka kreditlərinə dövlət tərəfindən maliyyə dəstəyi göstərilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli 940 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1036 (Cild I); 2024, № 5 (I kitab), maddə 529) ilə təsdiq edilmiş Əlavə 2 - "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası"nın 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.1.10-cu yarımbəndin birinci cümləsində "gəlirinin" sözündən sonra "("Gənclərin hərbi sahədə təhsil almasının təşviq edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2381 nömrəli Fərmanının 7.3-cü bəndinə əsasən hərbi qulluqçulara verilən maliyyə dəstəyi nəzərə alınmaqla)" sözləri əlavə edilsin;

2.2. 3.1.11-ci yarımbənddə "qanunla" sözü "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsində" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 1 may tarixli 30 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 5, maddə 898 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 6 iyun tarixli 88 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Elektron ipoteka və kredit zəmanət" sistemi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1.3-cü yarımbəndə "qiymətləndirici" sözündən sonra ", bu Əsasnamənin 8.7-ci bəndinə münasibətdə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi (bundan sonra - Nazirlik)" sözləri əlavə edilsin;

3.2. 8-ci hissə üzrə:

3.2.1. 8.1.4-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"8.1.4. ipoteka kreditinin verilməsi üçün müvəkkil banka, habelə "Gənclərin hərbi sahədə təhsil almasının təşviq edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2381 nömrəli Fərmanında nəzərdə tutulmuş hallarda dövlət tərəfindən maliyyə dəstəyi göstərilməsi üzrə elektron müraciəti real vaxt rejimində Nazirliyə göndərmək;";

3.2.2. aşağıdakı məzmunda 8.7-ci bənd əlavə edilsin:

**"8.7. Hərbi qulluqçulara verilən güzəştli ipoteka kreditlərinə dövlət tərəfindən maliyyə dəstəyi göstərilməsi üzrə Nazirlik aşağıdakı istifadə imkanlarına malikdir:**

8.7.1. maliyyə dəstəyi göstərilməsi üçün tələb olunan məlumatları almaq;

8.7.2. maliyyə dəstəyi göstərilməsinə dair müvafiq qərar qəbul edildiyi gün bunu ipoteka krediti almaq istəyən şəxsə bildirmək;

8.7.3. maliyyə dəstəyi göstərilməsi dayandırıldıqda, yaxud yenidən bərpa edildikdə Fonda və müvəkkil banka məlumat vermək;

8.7.4. elektron sistem üzrə aidiyyəti statistik məlumatlardan və hesabatlardan istifadə etmək.";

3.3. 9.5-ci bəndə "Ərizəçi" sözündən sonra "və Nazirlik" sözləri əlavə edilsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

5.1. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin təklifləri əsasında bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilən Qaydada nəzərdə tutulmuş maliyyə dəstəyi üçün tələb olunan vəsaitin müvafiq illərin dövlət büdcəsində nəzərdə tutulmasını və Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə ayrılmasını təmin etsin;

5.2. bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilən Qaydada nəzərdə tutulmuş hərbi qulluqçulara verilən güzəştli ipoteka kreditinin maliyyələşdirilməsi məqsədilə Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun nizamnamə kapitalının artırılması üçün müvafiq illərdə dövlət büdcəsindən vəsait ayrılması ilə bağlı tədbirlər görsün.

6. Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 sentyabr 2024-cü il*

***Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 7 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir***

# Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyindəki xüsusi təyinatlı təhsil müəssisələrində təhsil almış hərbi qulluqçulara verilən güzəştli ipoteka kreditlərinə dövlət tərəfindən maliyyə dəstəyi göstərilməsi

# QAYDASI

### 1. Ümumi müddəalar

1.1. Bu Qayda "Gənclərin hərbi sahədə təhsil almasının təşviq edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2381 nömrəli Fərmanının 7.3-cü bəndinə əsasən hazırlanmışdır və Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyindəki Heydər Əliyev adına Hərbi İnstitutun bakalavriat səviyyəsində, o cümlədən bakalavriat səviyyəsinin hazırlıq kursunda, Bakı Hərbi Kollecində, Gəncə Hərbi Kollecində və Naxçıvan Hərbi Kollecində (bundan sonra - xüsusi təyinatlı təhsil müəssisələri) təhsil almış hərbi qulluqçulara verilən güzəştli ipoteka kreditlərinə dövlət tərəfindən maliyyə dəstəyi göstərilməsinə dair tələbləri və digər təşkilati məsələləri müəyyən edir.

1.2. Bu Qaydada nəzərdə tutulmuş hallar istisna olmaqla, bu Qaydanın 1.1-ci bəndində nəzərdə tutulan hərbi qulluqçulara güzəştli ipoteka kreditinin verilməsi proseduru və şərtləri Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli 940 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası" (bundan sonra - İpoteka kreditinin verilməsi Qaydası) ilə müəyyən edilir.

1.3. Bu Qaydada istifadə olunan anlayışlar İpoteka kreditinin verilməsi Qaydasında müəyyən edilmiş mənaları ifadə edir.

1.4. Bu Qaydanın müddəaları 2024-2025-ci tədris ilindən başlayaraq dövlətlərarası müqavilə əsasında xarici ölkələrin xüsusi təyinatlı təhsil müəssisələrində təhsil alan və məzun olduqdan sonra Azərbaycan Ordusunda 5 (beş) təqvim ili zabit və ya gizir (miçman) kimi həqiqi hərbi xidmət keçən Azərbaycan Respublikasının vətəndaşları olan hərbi qulluqçulara da şamil edilir.

### 2. Maliyyə dəstəyi göstərilməsi şərtləri

2.1. 2024-2025-ci tədris ilindən başlayaraq xüsusi təyinatlı təhsil müəssisələrində təhsil alan və məzun olduqdan sonra Azərbaycan Ordusunda 5 (beş) təqvim ili zabit və ya gizir (miçman) kimi həqiqi hərbi xidmət keçən hərbi qulluqçulara verilən güzəştli ipoteka kreditlərinə maliyyə dəstəyi göstərilir.

2.2. Maliyyə dəstəyi bu Qaydanın 3.1-ci və 3.2-ci bəndlərinə uyğun olaraq güzəştli ipoteka kreditinin verildiyi tarixə ipoteka ilə yüklü edilən yaşayış sahəsinin qiymətinin bir hissəsi (bundan sonra - ilkin ödəniş) və aylıq annuitet ödənişlərinin (bundan sonra - annuitet ödənişləri) bir hissəsi üzrə yalnız bir yaşayış sahəsinin satın alınması məqsədilə müddəti azı 15 (on beş) il olan güzəştli ipoteka kreditləri üzrə göstərilir.

### 3. Maliyyə dəstəyinin həcmi

3.1. İlkin ödəniş İpoteka kreditinin verilməsi Qaydasının 3.1.6-cı yarımbəndinə əsasən müəyyən edilmiş güzəştli ipoteka kreditinin maksimal məbləğinin 15 faizindən yuxarı olmamaqla, güzəştli ipoteka kreditindən istifadə etməklə satınalınan yaşayış sahəsinin alqı-satqı müqaviləsi üzrə qiymətinin 15 faizi məbləğində verilir.

3.2. Annuitet ödənişləri üzrə verilən maliyyə dəstəyi annuitet ödənişlərinin 50 faizi həcmində müəyyən edilir.

3.3. Güzəştli ipoteka krediti üzrə əsas borc məbləğinin bir hissəsi kredit müqaviləsində nəzərdə tutulmuş müddətdən əvvəl qaytarılarsa və ya borc restrukturizasiya edilərsə, annuitet ödənişləri üzrə maliyyə dəstəyi yenidən hesablanmış annuitet ödənişinin bu Qaydanın 3.2-ci bəndində nəzərdə tutulmuş həcmində müəyyən edilir.

### 4. Maliyyə dəstəyi göstərilməsi proseduru

4.1. Maliyyə dəstəyi göstərilməsi ilə bağlı Azərbaycan Respublikasının Müdafiə Nazirliyi (bundan sonra - Nazirlik), Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu (bundan sonra - Fond) və müvəkkil bank arasında informasiya mübadiləsi Elektron Hökumət İnformasiya Sistemi üzərindən "Elektron ipoteka və kredit zəmanət" sistemi (bundan sonra - elektron sistem) vasitəsilə həyata keçirilir və bu məqsədlə Nazirliyə elektron sistemdən istifadə imkanı yaradılır.

4.2. Maliyyə dəstəyi göstərilməsi üçün dövlət büdcəsində nəzərdə tutulan vəsait Nazirliyin bu məqsədlə açılmış bank hesabında saxlanılır.

4.3. İpoteka kreditinin verilməsi Qaydasına əsasən, müvəkkil bank tərəfindən güzəştli ipoteka kreditinin verilməsinə ilkin razılıq barədə qərar elektron sistemdə yerləşdirildiyi gün güzəştli ipoteka krediti almaq istəyən hərbi qulluqçunun (bundan sonra - borcalan) maliyyə dəstəyi göstərilməsinə dair müraciəti elektron sistem vasitəsilə real vaxt rejimində Nazirliyə göndərilir.

4.4. Nazirlik 5 (beş) iş günü müddətində maliyyə dəstəyi göstərilməsinə dair müraciətin bu Qaydanın tələblərinə uyğunluğunu yoxlayır, maliyyə dəstəyi göstərilməsinə dair razılıq və ya bu Qaydanın 6.1.1-6.1.3-cü yarımbəndləri ilə müəyyən edilmiş imtina əsasları aşkarlanarsa, imtina barədə əsaslandırılmış qərar qəbul edir. Həmin qərar qəbul edildiyi gün elektron sistemdə yerləşdirilir və real vaxt rejimində elektron sistem vasitəsilə borcalana da göndərilir.

4.5. Müvəkkil bank tərəfindən borcalana güzəştli ipoteka kreditinin verilməsinə razılıq verildiyi təqdirdə, həmin qərar elektron sistem vasitəsilə real vaxt rejimində Nazirliyə və borcalana göndərilir. Nazirlik 1 (bir) iş günü müddətində bu Qaydanın 3.1-ci bəndinə uyğun hesablanmış ilkin ödəniş üzrə vəsaiti borcalanın müvəkkil bankda bu məqsədlə açılmış bank hesabına köçürür.

4.6. Bu Qaydanın 4.5-ci bəndinə əsasən Nazirlik tərəfindən hərbi qulluqçunun müvəkkil bankda bu məqsədlə açılmış bank hesabına köçürülmüş vəsaitin təyinatından kənar məqsədlərlə istifadəsinə məhdudiyyət qoyulmasına dair müddəanın nəzərdə tutulması bank hesabı müqaviləsində təmin edilir.

4.7. İpoteka kreditinin verilməsi Qaydasına uyğun olaraq güzəştli ipoteka rəsmiləşdirilmədikdə və (və ya) yaşayış sahəsinin alqı-satqı prosesi başa çatmadıqda, bank hesabı müqaviləsinə uyğun olaraq, müvəkkil bank göstərilən halların baş verdiyi gündən 10 (on) iş günü müddətində ilkin ödəniş üzrə vəsaiti Nazirliyin bu məqsədlə açılmış bank hesabına geri qaytarır.

4.8. Güzəştli ipoteka krediti hesabına alınmış yaşayış sahəsi üzrə kredit və alqı-satqı müqavilələrinin surətləri elektron sistem vasitəsilə müvəkkil bank tərəfindən Nazirliyə göndərilir.

4.9. Nazirlik borcalanlar və güzəştli ipoteka kreditləri ilə bağlı bu Qaydaya əlavə olunmuş formaya uyğun məlumatları elektron sistemdən real vaxt rejimində əldə edir.

4.10. Nazirlik annuitet ödənişlərinə maliyyə dəstəyi üzrə vəsaiti bu Qaydanın 4.9-cu bəndində nəzərdə tutulan məlumatlar əsasında ödəniş ayından əvvəlkiayın son 10 (on) günündə borcalanın müvəkkil bankda bu məqsədlə açılmış bank hesabına köçürür.

4.11. Nazirlik növbəti ayın annuitet ödənişləri üzrə maliyyə dəstəyi verilərkən ötən ayın annuitet ödənişinin borcalan tərəfindən ödənilməsini bu Qaydanın 4.9-cu bəndində nəzərdə tutulmuş məlumatlar əsasında yoxlayır.

4.12. Bu Qaydanın 7.1-ci bəndinə əsasən maliyyə dəstəyi göstərilməsi dayandırıldıqda, yaxud yenidən bərpa edildikdə Nazirlik 3 (üç) iş günü müddətində elektron sistem vasitəsilə Fonda, müvəkkil banka və borcalana bildiriş göndərir.

4.13. Maliyyə dəstəyi göstərilməsindən imtina edilmiş hərbi qulluqçuların maliyyə dəstəyi göstərilməsindən imtinaya əsas olmuş hallar aradan qalxdıqdan sonra, təkrar müraciət etmək hüququ vardır.

### 5. Sonradan maliyyələşmə

5.1. 2024-2025-ci tədris ilindən başlayaraq xüsusi təyinatlı təhsil müəssisələrində təhsil aldıqdan sonra məzun olan Azərbaycan Ordusunun hərbi qulluqçuları həqiqi hərbi xidmət müddətinin 5 (beş) təqvim ilini tamamlamadan güzəştli ipoteka krediti hüququndan istifadə etdikləri təqdirdə, onlar aşağıdakı şərtlərlə Nazirliyə yazılı formada ərizə ilə müraciət edərək sonradan maliyyə dəstəyi (bundan sonra - sonradan maliyyələşmə) ala bilərlər:

5.1.1. həqiqi hərbi xidmət müddətinin 5 (beş) təqvim ilini tamamladıqda;

5.1.2. güzəştli ipoteka krediti bu Qaydanın 2-ci hissəsinin tələblərinə uyğun olduqda.

5.2. Sonradan maliyyələşməyə aşağıdakılar aiddir:

5.2.1. bu Qaydanın 3.1-ci bəndində nəzərdə tutulmuş həcmdə yaşayış sahəsinin satın alındığı tarixə müəyyən edilmiş ilkin ödənişin hərbi qulluqçuya birdəfəlik ödənilməsi;

5.2.2. maliyyə dəstəyi göstərilməsinintəsdiq edildiyi tarixədək hərbi qulluqçu tərəfindən ödənilmiş annuitet ödənişlərinin bu Qaydanın 3.2-ci bəndində nəzərdə tutulmuş həcmdə hərbi qulluqçuya birdəfəlik ödənilməsi;

5.2.3. maliyyə dəstəyi göstərilməsinintəsdiq edildiyi tarixdən sonra annuitet ödənişlərinin bu Qaydanın 3.2-ci bəndində nəzərdə tutulmuş həcmdə aylıq olaraq ödənilməsi.

5.3. Nazirlik sonradan maliyyələşmə ilə bağlı edilmiş müraciətə 15 (on beş) iş günü müddətində baxır və müraciət üzrə tələbin bu Qaydaya uyğunluğunu yoxlayır. Sonradan maliyyələşməyə dair razılıq barədə və ya bu Qaydanın 6.1.1-6.1.3-cü yarımbəndləri ilə müəyyən edilmiş imtina əsasları aşkarlanarsa,imtina barədə əsaslandırılmışqərar qəbul edilir.Həmin qərar qəbul edildiyi gün elektron sistemdə yerləşdirilir və elektron sistem vasitəsilə hərbi qulluqçuya da göndərilir.

5.4. Sonradan maliyyələşməyə dair razılıq verildiyi təqdirdə, həmin hərbi qulluqçu bu Qaydaya uyğun olaraq borcalan hesab edilir.

5.5. Nazirlik:

5.5.1. bu Qaydanın 5.2.1-ci yarımbəndində nəzərdə tutulmuş ilkin ödənişi razılıq verildiyi tarixdən 5 (beş) iş günü müddətində borcalanın təqdim etdiyi müvafiq bank hesabına köçürür;

5.5.2. bu Qaydanın 5.2.2-ci yarımbəndində nəzərdə tutulmuş maliyyə dəstəyini razılıq verildiyi tarixdən növbəti təqvim ilinin 1-ci rübü ərzində borcalanın təqdim etdiyi müvafiq bank hesabına köçürür;

5.5.3. bu Qaydanın 5.2.3-cü yarımbəndində nəzərdə tutulmuş maliyyə dəstəyini güzəştli ipoteka krediti ilə bağlı müqaviləyə uyğun olaraq hər ayın son 10 (on) günündə borcalanın kreditə xidmət edən müvəkkil bankda bu məqsədlə açılmış hesabına köçürür.

### 6. Maliyyə dəstəyi göstərilməsindən imtina halları

6.1. Maliyyə dəstəyi göstərilməsindən Nazirlik aşağıdakı hallarda imtina edir:

6.1.1. hərbi qulluqçu bu Qaydanın 1.1-ci və ya 1.4-cü bəndlərində müəyyən edilmiş tələblərə uyğun olmadıqda;

6.1.2. yaşayış sahəsinin satın alınması məqsədilə verilən güzəştli ipoteka kreditinin müddəti 15 (on beş) ildən az olduqda;

6.1.3. hərbi qulluqçu "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 41.0.1-ci, 41.0.5-ci, 41.0.6-cı, 41.0.7-ci, 41.0.8-ci, 41.0.9-cu, 41.0.10-cu, 42.0.3-cü və ya 42.0.5-ci maddələrində nəzərdə tutulan hallarla əlaqədar ehtiyata və ya istefaya buraxılmış olduqda.

### 7. Maliyyə dəstəyinin dayandırılması və ya ona xitam verilməsi

7.1. Bu Qaydanın 3.2-ci bəndində nəzərdə tutulan maliyyə dəstəyi aşağıdakı hallarda dayandırılır:

7.1.1. borcalan "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 41.0.1-ci, 41.0.5-ci, 41.0.6-cı, 41.0.7-ci, 41.0.8-ci, 41.0.9-cu, 41.0.10-cu, 42.0.3-cü və ya 42.0.5-ci maddələrində nəzərdə tutulan hallarla əlaqədar ehtiyata və ya istefaya buraxıldıqda;

7.1.2. ötən ayın annuitet ödənişi 30 (otuz) gün müddətində borcalan tərəfindən ödənilmədikdə.

7.2. Bu Qaydanın 7.1.1-ci yarımbəndinə əsasən maliyyə dəstəyi dayandırılan borcalan yenidən xidmətə qəbul edilərsə, xidmətə qəbul edildiyi gündən maliyyə dəstəyi göstərilməsi bərpa olunur.

7.3. Bu Qaydanın 7.1.2-ci yarımbəndinə əsasən maliyyə dəstəyi yalnız həmin ay üçün dayandırılır.

7.4. Maliyyə dəstəyinin dayandırılmasından bərpa edilməsinədək keçən müddətdə borcalan tərəfindən ödənilmiş annuitet ödənişləri üzrə ona hesablanan maliyyə dəstəyi üzrə vəsait 10 (on) iş günü müddətində birdəfəlik olaraq onun bu Qaydanın 4.10-cu bəndinə uyğun açılmış bank hesabına köçürülür.

7.5. Bu Qaydanın 7.1.1-ci yarımbəndində nəzərdə tutulan hallar olmadıqda, borcalan ehtiyata və ya istefaya buraxıldıqdan sonra da annuitet ödənişləri üzrə ona verilən maliyyə dəstəyi davam etdirilir.

7.6. Borcalan ölərsə və ölüm halı İpoteka kreditinin verilməsi Qaydasında nəzərdə tutulmuş sığorta təminatından kənar qalarsa, borcalanın vərəsəsi annuitet ödənişlərini ödədiyi halda, həmin şəxs bu Qaydaya əsasən borcalan hesab edilir və bu Qaydaya müvafiq olaraq maliyyə dəstəyindən yararlanır. Həmin şəxslə bağlı müvafiq məlumatlar müvəkkil bank tərəfindən elektron sistem vasitəsilə Nazirliyə göndərilir.

7.7. Güzəştli ipoteka kreditindən istifadə etməklə satınalınan yaşayış sahəsi özgəninkiləşdirildikdə və ya borcalanların güzəştli ipoteka kreditləri üzrə öhdəlikləri tam yerinə yetirildikdə maliyyə dəstəyinə xitam verilir.

### 8. Yekun müddəa

Maliyyə dəstəyi göstərilməsi üçün bu Qaydaya uyğun tələb olunan sənədlərin və ya məlumatların Nazirlik tərəfindən elektron sistem vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda, onların təqdim edilməsi "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 30.5-ci maddəsinə uyğun olaraq Fond tərəfindən təmin edilir. Həmin sənədlər Fond tərəfindən kağız daşıyıcıda və ya elektron sənəd formasında təqdim edilə bilər.

***"Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyindəki xüsusi təyinatlı təhsil müəssisələrində təhsil almış hərbi qulluqçulara verilən güzəştli ipoteka kreditlərinə dövlət tərəfindən maliyyə dəstəyi göstərilməsi Qaydası"na Əlavə***

## "Elektron ipoteka və kredit zəmanət" sistemində borcalanlar və güzəştli ipoteka kreditləri üzrə Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə təqdim olunmalı məlumatlar

| Sıra №-si | Borcalanın fərdi identifikasiya nömrəsi | Borcalanın soyadı, adı, atasının adı | İpoteka ilə yüklü edilmiş əmlakın ünvanı | İpoteka ilə yüklü edilmiş əmlakın qiyməti (manatla) | Güzəştli ipoteka krediti üzrə borcun ümumi məbləği (manatla) | Güzəştli ipoteka kreditinin ilkin ödənişi üzrə ümumi məbləğ (manatla) | Güzəştli ipoteka kreditinin ilkin ödənişi üzrə maliyyə dəstəyinin məbləği (manatla) | Güzəştli ipoteka krediti üzrə borcun qalıq məbləği (manatla) | Növbəti annuitet ödənişinin məbləği (manatla) | Ötən ayın ödənilmiş annuitet ödənişinin məbləği (manatla) |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1. | | | | | | | | | | |
| 2. | | | | | | | | | | |
| 3. | | | | | | | | | | |
| ... | | | | | | | | | | |

# Azərbaycanın xarici siyasətinin uğurları




**Bütün zamanlarda beynəlxalq əməkdaşlığa böyük önəm verən Azərbaycan Cənubi Qafqazın lider dövləti kimi geosiyasi maraqlarının gerçəkləşdirilməsi istiqamətində uğurlu siyasət yürüdür və qurduğu bütün əlaqələr bərabərhüquqlu tərəfdaşlıq, qarşılıqlı maraqların təmin olunması prinsiplərinə söykənir.**

## Ümumavropa qaz təchizatçısı

### Prezident İlham Əliyev İtaliyada Azərbaycanın enerji potensialını və yeni hədəflərini bəyan etdi

Müstəqil xarici siyasət həyata keçirən Prezident İlham Əliyevin uğurlu diplomatiyası ilə Azərbaycan əksər dövlətlərin Cənubi Qafqaz regionundakı ən etibarlı tərəfdaşı hesab olunur. Bu dövlətlərdən biri də İtaliyadır.

Son illərdə Azərbaycan-İtaliya strateji tərəfdaşlığı və çoxtərəfli münasibətləri getdikcə daha da güclənir və şaxələnir. Prezident İlham Əliyevin İtaliya Prezidenti Sercio Mattarellanın dəvəti ilə bu ölkəyə işgüzar səfəri, aparılan danışıqlar, keçirilən görüşlərdə səslənən fikirlər, imzalanan yeni sənədlər bunu bir daha təsdiqləyir.

### İlham Əliyevin İtaliyaya 7-ci səfəri

Azərbaycan-İtaliya münasibətləri qədim dövrdən mövcud olub. Hələ orta əsrlərdə indiki İtaliya ərazisindəki şəhər-dövlətlər Azərbaycandakı Səfəvilər, Ağqoyunlular dövlətləri ilə davamlı əlaqələr saxlayıblar. XV əsrdə Ağqoyunlu dövləti ilə Venesiya Respublikası arasında siyasi-diplomatik əlaqələr qurulub, 1469-cu ildən 1478-ci ilə kimi Venesiya Respublikasının Azərbaycanda səfirliyi fəaliyyət göstərib. Həmin dövrdə Azərbaycan diplomatları Neapol Krallığında danışıqlar aparıblar.

1918-1920-ci illərdə müstəqil Azərbaycan Xalq Cümhuriyyəti dövründə də İtaliya və Azərbaycan arasında diplomatik münasibətlər yaradılıb. Həmin vaxt İtaliyanın Bakıda diplomatik təmsilçiliyi fəaliyyət göstərib. Sovet hakimiyyəti dövründə - 1972-ci ildə Azərbaycanın paytaxtı Bakı və İtaliyanın Neapol şəhərləri qardaşlaşmış elan ediliblər. Azərbaycan və İtaliya arasında mədəni əlaqələr həmin vaxtdan daha da genişlənib.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra iki ölkə arasındakı münasibətlər yeni mərhələyə qədəm qoyub. 1997-ci ilin sentyabrında Ulu Öndər Heydər Əliyevin İtaliyaya rəsmi səfəri dövlətlər arasında bütün sahələrdə münasibətlərin inkişaf etdirilməsi üçün əhəmiyyətli addım olub.

İtaliya Cənubi Qafqazda ilk səfirliyini 1997-ci ildə Azərbaycanda açıb. İtaliyada Azərbaycan səfirliyi 2003-cü ildən fəaliyyət göstərir.

2014-cü ildə İtaliya ilə Azərbaycan arasında strateji tərəfdaşlıq haqqında Bəyannamə qəbul edilib. Bu sənəd iki ölkənin bir-birinə olan münasibətinin və gələcək əməkdaşlıq formatının göstəricisidir.

Bu gün isə əlaqələrdən söz açmazdan öncə qeyd etməliyik ki, strateji tərəfdaşlığa əsaslanan münasibətlərin inkişafı dövlət başçıları arasında olan səmimiyyətdən irəli gəlir. İtaliya Prezidenti Sercio Mattarellanın Azərbaycana, Prezident İlham Əliyevin İtaliyaya rəsmi səfərləri çərçivəsində aparılan danışıqlar, əldə olunan razılaşmalar, imzalanan sənədlər iki dost ölkəni bir-birinə bütün sahələr üzrə çox yaxınlaşdırıb.

Qeyd edək ki, Sercio Mattarella İtaliyanın Azərbaycana səfər edən ilk prezidenti kimi də adını iki ölkənin tarixinə yazdırıb. 2018-ci ildə reallaşan bu səfər münasibətlərin daha da inkişafına müsbət impuls verib. Eyni zamanda İlham Əliyevin sərəncamına əsasən, iki ölkə arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafında xüsusi xidmətlərinə görə Sercio Mattarellanın Azərbaycanın ali dövlət mükafatı olan "Heydər Əliyev" ordeni ilə təltif edilməsi də əsl reallığı əks etdirir.

Prezident İlham Əliyev isə 2005, 2008, 2014, 2015, 2020, 2022 və 2024-cü illərdə İtaliyaya rəsmi səfərlər edib. İlham Əliyevin 2020-ci ilin fevralında İtaliyaya reallaşan səfəri zamanı "Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə" imzalanıb.

Həmçinin 2018-ci ildə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın, 2019-cu və 2021-ci illərdə Milli Məclisin sədrinin İtaliyaya rəsmi səfərləri, İtaliya Senatı sədrinin, sədr müavininin, Deputatlar Palatasının sədr müavinlərinin Azərbaycana rəsmi səfərləri də daxil olmaqla, müxtəlif dövlət rəsmilərinin çoxsaylı qarşılıqlı səfərləri iki ölkə arasında yaxın siyasi münasibətlərin göstəriciləridir.

Budəfəki işgüzar səfərin məqsədi isə Prezidentin 2020-ci ilin fevralında İtaliyaya dövlət səfəri zamanı ölkələrimiz arasında çoxşaxəli strateji tərəfdaşlığın möhkəmləndirilməsinə dair imzalanmış Birgə Bəyannamənin icrası prosesində bir sıra istiqamətlər üzrə cari məsələlərin müzakirəsi, bu sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi və nəticələrə yönəlmiş sonrakı addımların müəyyən edilməsi idi.

### Bu ilin 6 ayında ticarət dövriyyəsinin həcmi 6,2 milyard dollar olub

Möhkəm dostluq və əməkdaşlıq ənənələri Azərbaycan ilə İtaliya münasibətlərində dolğun təcəssüm edir. Bu münasibətlər qarşılıqlı faydalı tərəfdaşlıq xarakteri daşıyır, bir-birinin maraqlarına hörmət prinsiplərinə əsaslanır. Hər iki ölkənin rəhbərlərinin qarşılıqlı səfərləri münasibətlərin inkişafına böyük təkan verir.

Ölkələrimizin enerji sahəsində əməkdaşlığı da yüksək səviyyədədir. İtaliya Azərbaycandan xam neft və neft məhsullarının ixracı sahəsində ən iri ticarət tərəfdaşına çevrilib. "Cənub qaz dəhlizi" və onun tərkib hissəsi olan Trans-Adriatik qaz boru kəməri (TAP) ikitərəfli enerji əməkdaşlığını və İtaliyanın enerji təhlükəsizliyini möhkəmləndirən vacib amildir. Ötən il TAP kəməri vasitəsilə İtaliyaya təqribən 10 milyard kubmetr qaz ixrac olunub ki, bu da Azərbaycanın bu ölkənin enerji təhlükəsizliyinə töhfəsinin təzahürüdür. Ölkəmizlə Avropa İttifaqı arasında əldə edilən razılaşmaya əsasən, 2027-ci ilə qədər Azərbaycan qazının tədarükü ildə azı 20 milyard kubmetrə çatmalıdır. Təbii ki, bu həcmin Avropaya çatdırılmasında "Cənub qaz dəhlizi"nin bir hissəsi olan TAP da mühüm rol oynayacaq.

İki ölkə arasında ticarət dövriyyəsinin əsasını Azərbaycanın ixracatı təşkil edir. 2023-cü ildə Azərbaycanın İtaliya ilə ticarət dövriyyəsinin həcmi 15,7 milyard ABŞ dolları, o cümlədən idxalın həcmi 0,5 milyard ABŞ dolları, ixracın həcmi 15,2 milyard ABŞ dolları təşkil edib, xarici ticarət saldosu isə müsbət 14,7 milyon ABŞ dolları olub.

İtaliyanın da Cənubi Qafqaz ölkələri arasında əsas ticarət tərəfdaşı Azərbaycandır. Bu ölkənin Cənubi Qafqaz ölkələri ilə ticarət dövriyyəsinin 85 faizini Azərbaycan ilə ticarət təşkil edir. 2023-cü ildə İtaliyanın Azərbaycanın xarici ticarət dövriyyəsindəki payı 30,65 faiz (1-ci yer), o cümlədən idxalda 2,76 faiz (7-ci yer), ixracda isə 44,86 faiz (1-ci yer) təşkil edib.

2024-cü ilin yanvar-iyul aylarında isə ticarət dövriyyəsinin həcmi 6,2 milyard ABŞ dolları, o cümlədən idxalın həcmi 0,3 milyard ABŞ dolları, ixracın həcmi 5,9 milyard ABŞ dolları təşkil edib.

İtaliya işgüzar dairələri həmçinin Azərbaycanda böyük məbləğdə sərmayələr qoyur, həyata keçirilən bir sıra beynəlxalqəhəmiyyətli layihələrdə iştirak edirlər. Təkcə onu demək kifayətdir ki, Azərbaycanda 100-dən çox İtaliya investisiyalı kommersiya qurumu sənaye, kənd təsərrüfatı, nəqliyyat, tikinti, ticarət, xidmət və digər sahələrdə fəaliyyət göstərir.

Bu gün Qarabağ və Şərqi Zəngəzurun bərpası işində başda qardaş Türkiyə şirkətləri yer tutur. Quruculuq işlərinə ilk olaraq çətin gündə, yaxşı gündə hər zaman Azərbaycanın yanında olan qardaş ölkə qoşulmuş və bu istiqamətdə birinci müqavilə Türkiyə şirkəti ilə bağlanıb. İtaliya şirkətləri də irimiqyaslı layihələrdə podratçı olaraq yaxından iştirak edirlər. Əslində, İtaliya hazırda fəaliyyət göstərən şirkətlərin sayına görə Türkiyə şirkətlərindən sonra ikinci yerdədir. Onlar çox mühüm layihələr üzərində işləyirlər.

### İtaliya COP29-da yüksəksəviyyəli nümayəndə heyəti ilə təmsil olunacaq

Sentyabrın 5-də İlham Əliyev Romada ilk olaraq İtaliyanın daha bir şirkəti - "Eni S.P.A" şirkətinin baş icraçı direktoru Klaudio Deskalzi ilə görüşdü. Tərəflər SOCAR ilə "Eni S.P.A" şirkəti arasında imzalanacaq sənədlərin əhəmiyyətinə toxunaraq, neft-qaz, bərpaolunan enerji və iqtisadiyyatın müxtəlif sahələrində yeni texnologiyaların tətbiqi istiqamətində əməkdaşlığın genişləndirilməsi və şaxələndirilməsi ilə bağlı fikir mübadiləsi apardılar.

Həmin gün İlham Əliyev İtaliya Prezidenti Sercio Mattarella ilə birgə işçi nahar etdilər. Sercio Mattarella bir daha Azərbaycanla İtaliya arasında münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını, ölkəmizin İtaliyanın yaxın tərəfdaşı olduğunu deyərək, 2020-ci ildə bu ölkəyə dövlət səfəri zamanı imzalanmış strateji tərəfdaşlığa dair Birgə Bəyannamənin önəmini vurğuladı.

Son dörd ildə İtaliyaya üç dəfə səfər etdiyini deyən İlham Əliyev münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını, İtaliya-Azərbaycan əlaqələrinin özündə çoxşaxəli əməkdaşlığı ehtiva etdiyini vurğuladı, İtaliyanın Avropada Azərbaycanın əsas ticarət tərəfdaşı olduğunu qeyd etdi. Bu xüsusda, ölkələrimiz arasında enerji sahəsində əməkdaşlığın vacibliyi, o cümlədən TAP layihəsinin əhəmiyyəti vurğulandı. Bu gün TAP layihəsinin həm İtaliyanın, həm də Avropa İttifaqının enerji təhlükəsizliyində oynadığı mühüm rola toxunularaq, hazırda bu layihənin Avropanın 10 ölkəsinin enerji təchizatındakı vacib rolu qeyd olundu.

İtaliya-Azərbaycan Universitetinin yaradılmasının böyük əhəmiyyət daşıdığını deyən Sercio Mattarella bunun ölkələrimiz arasında humanitar və insanlararası əlaqələrin inkişafında mühüm rol oynadığını vurğuladı.

İtaliya Prezidenti COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdıraraq, bunun çox əhəmiyyətli tədbir olduğunu dedi və ölkəsinin COP29-da yüksəksəviyyəli nümayəndə heyəti ilə təmsil olunacağını bildirdi. İtaliyanın COP29-un Azərbaycanda uğurla keçirilməsi üçün bütün lazımi dəstəyi göstərməyə hazır olduğunu qeyd edən Sercio Mattarella COP29-la əlaqədar İtaliyanın iqlim dəyişikliyi üzrə nümayəndəsinin Azərbaycanla yaxından əməkdaşlıq etdiyini vurğuladı.

Prezident İlham Əliyevin İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloni ilə görüşündə isə bildirildi ki, bu səfərdə iki ölkə arasında yeni əməkdaşlıq istiqamətləri müəyyənləşdirilib.

Görüşdə Azərbaycanın və İtaliyanın üçüncü ölkələrdə birgə investisiya layihələrində iştirakı məsələsinə toxunuldu, Orta dəhlizin əhəmiyyəti vurğulandı və İtaliya şirkətlərinin də bu dəhlizin imkanlarından istifadə etməsi perspektivləri müzakirə olundu. İtaliya-Azərbaycan iqtisadi əməkdaşlıq məsələləri üzrə komissiyanın roluna toxunuldu, gələn il komissiyanın iclasının keçirilməsi razılaşdırıldı.

Səfər çərçivəsində İtaliya Respublikasının "Eni S.P.A" şirkəti ilə 3 anlaşma memorandumu imzalandı.

### Beynəlxalq Çernobbio Forumuna dəvət - yüksək nüfuzun təcəssümü

Sentyabrın 6-da İtaliyanın Çernobbio şəhərində "The European House - Ambrosetti" beyin mərkəzi tərəfindən beynəlxalq forum keçirildi. İtaliyaya işgüzar səfəri çərçivəsində Prezident İlham Əliyev də forumda əsas qonaq qismində iştirak etdi.

İlham Əliyev "Dünya, Avropa və İtaliya haqqında bilgilər" mövzusuna həsr olunmuş Beynəlxalq Çernobbio Forumunda "Yeni geosiyasi şəraitdə Azərbaycanın rolu" adlı sessiyada çıxış etdi.

Sayca 50-ci olacaq mötəbər forumda İlham Əliyevin əsas qonaq kimi iştirakı ilk növbədə ölkəmizin və Prezidentimizin beynəlxalq aləmdə yüksək nüfuzunun, etibarlı tərəfdaş statusunun, regionun aparıcı aktoru olmasının əyani təzahürü, eyni zamanda Avropanın enerji təhlükəsizliyinə verdiyi əhəmiyyətli töhfənin beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilməsidir.

1965-ci ildən fəaliyyət göstərən "The European House - Ambrosetti" İtaliyanın idarəetmə-məsləhət xidməti sahəsində aparıcı beyin mərkəzi hesab olunur. Ənənəvi olaraq üç gün davam edən forumun ilk günü, adətən, əsas qlobal tədbirlərə həsr olunur və müzakirəyə çıxarılan məsələlər iqtisadi, geosiyasi və elmi-texnoloji xarakter daşıyır.

Forumda çıxış edən İlham Əliyev bir daha Azərbaycanın enerji siyasəti, mövcud potensial, gələcək planlar və qarşıdakı hədəflər barədə geniş məlumat verdi. Prezidentin çıxışı böyük maraqla qarşılandı.

Azərbaycan-İtaliya münasibətlərini qiymətləndirən İlham Əliyev bildirdi ki, iki ölkənin ticarət əməkdaşlığı olduqca fəaldır. İtaliya Azərbaycanın dünyada bir nömrəli ticarət tərəfdaşıdır. Ötən il ticarət dövriyyəmiz 16 milyard ABŞ dollarına yaxın olub. Artım üçün potensial yalnız enerji sektorunda deyil, digər sahələrdə də görünür. Azərbaycan İtaliyanın bir nömrəli neft və ikinci ən böyük qaz təchizatçısıdır. Bu da əməkdaşlığın vacib hissəsidir.

Dövlət başçısı həmçinin enerji təchizatının yaratdığı reallığı dəyərləndirdi: "Bu gün enerji təchizatı onu aydın şəkildə nümayiş etdirir ki, enerji təhlükəsizliyi milli təhlükəsizliyin ayrılmaz parçasıdır. Azərbaycandan İtaliyayadək uzanan, "Cənub qaz dəhlizi" adlanan 3500 kilometrlik inteqrasiya edilmiş boru kəməri sistemi bu gün 10 ölkənin enerji təhlükəsizliyini təmin edir. Hazırda 10 ölkə Azərbaycandan qaz alır və onlardan 7-si Avropa İttifaqının üzvüdür. Bu səbəbdən Avropa Komissiyası Azərbaycanı ümumavropa qaz təchizatçısı və etibarlı tərəfdaş adlandırır".

Bir sözlə, Azərbaycan Prezidentinin İtaliyaya işgüzar səfəri bir sıra önəmli hadisələrlə yadda qaldı. İlham Əliyevin Avropa məkanı üçün əhəmiyyət kəsb edən mühüm bəyanatları və çıxışları beynəlxalq aləmin də diqqətini cəlb etdi. Prezident "The European House - Ambrosetti" beyin mərkəzi tərəfindən təşkil olunan beynəlxalq forumdakı çıxışı ilə Azərbaycanın Cənubi Qafqazdakı nüfuzunu və rolunu bir daha dünyaya nümayiş etdirdi.

Bütün bunlara əsaslanaraq deyə bilərik ki, aparılan danışıqlar, imzalanan müqavilələr Azərbaycan-İtaliya strateji tərəfdaşlığını getdikcə daha da gücləndirəcək.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

## İtaliya-Azərbaycan münasibətləri çoxşaxəli xarakter daşıyır

**"Azərbaycanın xarici siyasətində Avropa ölkələri ilə əməkdaşlıq mühüm yer tutur, bu baxımdan ölkəmizin İtaliya ilə münasibətləri xüsusi vurğulanmalıdır. İki ölkəni bir-birinə möhkəm dostluq və əməkdaşlıq ənənələri bağlayır".**

Bu sözləri "Azərbaycan" qəzetinə VI çağırış Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib. O bildirib ki, tərəflərin münasibətləri qarşılıqlı faydalı tərəfdaşlıq xarakteri daşıyır, bir-birinin maraqlarına hörmət prinsiplərinə əsaslanır. Hər iki ölkənin rəhbərlərinin qarşılıqlı səfərləri münasibətlərin inkişafına böyük təkan verir. Bu baxımdan Prezident İlham Əliyevin İtaliyaya işgüzar səfəri böyük önəm daşıyır. İtaliya-Azərbaycan münasibətləri çoxşaxəli xarakter daşıyır, hər iki ölkənin milli mənafeyinə, strateji maraqlarına cavab verir. İki ölkə arasında əlaqələr strateji tərəfdaşlıq səviyyəsindədir. İtaliya Avropa İttifaqının üzv ölkələri arasında Azərbaycanın əsas siyasi, iqtisadi və ticarət tərəfdaşıdır. İtaliya ikitərəfli müstəvidə Azərbaycanın strateji tərəfdaşı olması ilə yanaşı, çoxtərəfli müstəvidə də sıx əməkdaşlıq etdiyi vacib ölkədir. "Prezident İlham Əliyevin bu ölkəyə səfəri zamanı qarşılıqlı münasibətlərin inkişafına dair faydalı müzakirələr aparılıb. İtaliya Respublikasının Prezidenti Sercio Mattarella və Nazirlər Şurasının sədri Ciorcia Meloni ilə görüşlərdə ölkələrimiz arasında siyasi dialoqun inkişafından məmnunluq ifadə olunub, əlaqələrimizin strateji tərəfdaşlıq zəminində inkişafının vacibliyi vurğulanıb. Eyni zamanda tərəflər arasında enerji sahəsində sənədlər mübadiləsi də ölkələrimizin bu sahədə əməkdaşlığının genişlənməsinə müsbət təsir göstərəcək. "The European House - Ambrosetti" beyin mərkəzi tərəfindən təşkil olunan və sayca 50-ci olan beynəlxalq Çernobbio Forumunda Prezident İlham Əliyevin əsas qonaq kimi iştirakı ölkəmizin beynəlxalq aləmdə yüksək nüfuzunun, etibarlı tərəfdaş statusunun, regionun aparıcı aktoru olmasının əyani təzahürü, eyni zamanda Avropanın enerji təhlükəsizliyinə verdiyi əhəmiyyətli töhfənin beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilməsidir. Bu fakt xüsusilə, Azərbaycan Prezidentinin beynəlxalq miqyasda böyük nüfuzunun göstəricisidir", - deyə o əlavə edib.



1965-ci ildən fəaliyyət göstərən "The European House - Ambrosetti"nin İtaliyanın idarəetmə-məsləhət xidməti sahəsində aparıcı beyin mərkəzi olduğunu qeyd edən S.Fətəliyeva deyib ki, o, Mərkəzi Avropa və onun hüdudlarından kənarda ofislərə və geniş tərəfdaşlıq şəbəkəsinə malikdir. Dünyanın beyin mərkəzləri ilə bağlı aparıcı reytinqlərə əsasən, İtaliyada birinci və Avropada ilk onluqda qərarlaşan "The European House - Ambrosetti" İtaliya və Avropa şirkətləri üçün əhəmiyyət daşıyan məsələlərin müzakirə olunduğu forumlar, müxtəlif tədbirlər keçirərək italyan şirkətlərinin qlobal tərəfdaşları ilə əlaqələrinin yaradılmasına, eyni zamanda əməkdaşlığın təşviqinə xidmət edir. "The European House - Ambrosetti", eyni zamanda İtaliya və Avropa üçün potensiala malik ölkələrlə əməkdaşlığın təşviqinə müsbət təsir göstərmək imkanına malik, ikitərəfli iqtisadi gündəmləri inkişaf etdirmək iqtidarında olan liderləri bir araya gətirərək yüksəksəviyyəli müzakirə platformaları təqdim edir. Müxtəlif illərdə Çernobbio Forumunda dünyanın aparıcı ölkələrinin dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların rəhbərləri və digər nüfuzlu şəxslər iştirak ediblər.

Dövlətimizin başçısının forumda çıxışı zamanı bir sıra mühüm məsələlərə toxunduğunu xatırladan S.Fətəliyeva deyib: "Cənab Prezident çıxışında həmçinin Cənubi Qafqazda sülhə nail olmağın mümkünlüyünü də vurğulayıb. Sülh müqaviləsinin mətninin təxminən 80 faizinin artıq razılaşdırıldığını vurğulayan dövlətimizin başçısı qeyd edib ki, "Artıq sərhədin delimitasiyası prosesinə, hətta demarkasiyasına nail olmuşuq. Bəli, bu kiçik bir addımdır. On üç kilometrlik hissə demarkasiya edilib. Bizim Ermənistanla 1000 kilometrlik sərhədimiz var. Ancaq bu, düzgün istiqamətdə atılmış addımdır və ümid edirik ki, sülh danışıqları ilə bağlı Azərbaycanın irəli sürdüyü bu təşəbbüs sülh sazişinin imzalanması ilə nəticələnəcək".

O bildirib ki, Azərbaycanın İtaliya ilə strateji tərəfdaşlıq münasibətlərində iqtisadi-ticarət sahəsində əməkdaşlıq xüsusi əhəmiyyətə malikdir. İtaliya Azərbaycanın birinci ticarət tərəfdaşıdır. İki ölkə arasında enerji sahəsində də əməkdaşlıq yüksək səviyyədədir. Azərbaycan İtaliyanın neft təchizatında birinci, qaz təchizatında isə ikinci yeri tutur. "Cənub qaz dəhlizi" və onun tərkib hissəsi olan Trans-Adriatik qaz boru kəməri (TAP) ikitərəfli enerji əməkdaşlığını və İtaliyanın enerji təhlükəsizliyini möhkəmləndirən vacib faktordur. Ən vacib məqamlardan biri də odur ki, Ermənistanın 30 illik işğalı dövründə İtaliya hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib. Prezident İlham Əliyevin 2020-ci ilin fevral ayında İtaliyaya dövlət səfəri zamanı imzalanmış "Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə"də də Azərbaycan və İtaliya bir-birinin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinə dəstəyi bir daha təsdiqləyiblər. 44 günlük Vətən müharibəsi zamanı da İtaliya Azərbaycanın haqlı mövqeyinə dəstək nümayiş etdirib. Hazırda İtaliya şirkətləri işğaldan azad olunmuş ərazilərimizin bərpasında iştirak edirlər. Bütün bunlar Azərbaycan-İtaliya münasibətlərinin bütün sahələr üzrə yüksələn xətlə inkişaf etdiyinin göstəricisidir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*




# Azərbaycanın Zəfər modeli

## Bu, ərazi bütövlüyü və suverenliyinin bərpası istiqamətində uğura nail olmaqda çətinlik çəkən bir çox ölkə üçün yaxşı nümunədir

Azərbaycanın Vətən müharibəsində Zəfər qazanması, ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi ilə illərdən sonra nəhayət ki, regionda sülhə nail olunması üçün geniş imkanlar açılıb.

Yeni geosiyasi şərait formalaşdıran bu hadisələrlə ölkəmiz bu tip münaqişələrin həlli üçün mükəmməl nümunə ortaya qoyaraq sübuta yetirdi ki, istənilən problemə birdəfəlik son qoymaq üçün real həll yolu var.

Sentyabrın 6-da Prezident İlham Əliyev "Dünya, Avropa və İtaliya haqqında bilgilər" mövzusuna həsr olunmuş Beynəlxalq Çernobbio Forumunda "Yeni geosiyasi şəraitdə Azərbaycanın rolu" adlı sessiyada çıxışı zamanı məhz bu məsələyə xüsusi vurğu edərək diqqətə çatdırdı ki, təkcə Qafqazda deyil, daha geniş regionda baş vermiş ən böyük geosiyasi dəyişiklik Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpası oldu: "Bu, həqiqətən onu nümayiş etdirdi ki, beynəlxalq hüququn aliliyi o zaman təmin edilə bilər ki, burada hüquqi çərçivə ilə yanaşı, həmçinin cəsarət və real güc də var".

### Ədaləti təmin etmək üçün təkcə beynəlxalq hüquq kifayət deyil

30 il boyu Azərbaycan ərazilərinin 20 faizi işğal altında olub. Onilliklər boyu Ermənistan tərəfindən bu ərazilər talan edilib, viran qoyulub. Azərbaycan xalqı etnik təmizlənməyə, soyqırımlarına məruz qalıb, bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. 1990-cı illərin əvvəllərindən 2020-ci il - Vətən müharibəsinə qədər bu problemlərin həlli istiqamətində beynəlxalq qanunlar çərçivəsində hansısa addımlar atılmayıb. BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilən 4 qətnamə kağız üzərində qalaraq yerinə yetirilməyib.

Vasitəçi adı altında prosesdə iştirak edən ölkələr ikili standart nümayiş etdirərək Ermənistanın işğal siyasətini dəstəkləyiblər, münaqişənin həll olunmadan İrəvanın xeyrinə sonsuzadək dondurulmasına çalışıblar.

"ATƏT bu məsələ ilə məşğul olacaq xüsusi bir qrup da yaratmışdır və həmin qrup 28 il ərzində sıfır nəticə hasil etmişdir. Bu, onu nümayiş etdirir ki, ədaləti və sülhü təmin etmək üçün təkcə beynəlxalq hüquq kifayət deyil. Masa üzərində digər amillər də olmalıdır", - deyə dövlətimizin başçısı Çernobbio Forumunda bir daha bu faktları beynəlxalq ictimaiyyətin diqqətinə çatdırdı.

Azərbaycan sülh tərəfdarı olduğu üçün düz üç onillik ərzində münaqişənin danışıqlar yolu ilə tənzimlənməsinə çalışdı. Lakin beynəlxalq hüququn işləmədiyi bir şəraitdə buna nail olmağın mümkünsüzlüyü də gün kimi ortada idi. Buna görə də ölkəmiz torpaqlarını işğaldan qurtarmaq, suverenliyini bərpa etmək üçün güc yolunu seçdi. Çox qısa zamanda işğal faktına son qoyaraq, ərazilərində separatizmin kökünü kəsərək özü beynəlxalq hüququ, ədaləti təmin etdi. Münaqişəyə son qoydu.

### Siyasi iradə, cəmiyyətin həmrəyliyi və fiziki güc...

Bu gün dünyada onlarla ölkə separatizmdən əziyyət çəkir, günahsız insanların qanı tökülür. Bu faciəvi vəziyyətin hələ nə qədər davam edəcəyi, ümumiyyətlə bitib-bitməyəcəyi də sual altındadır. Azərbaycan tarixə, ədalətə, beynəlxalq hüquqa dayanan qələbələri ilə məhz bu cür münaqişələrə birdəfəlik son qoymağın və sülhə yol açmağın formulunu da göstərmiş oldu.

Prezident İlham Əliyev sözügedən forumdakı çıxışında bəyan etdi ki, bu, ərazi bütövlüyünü və suverenliyini bərpa etmək istiqamətində uğura nail olmaqda çətinlik çəkən bir çox ölkə üçün yaxşı nümunədir: "Azərbaycan öz nümunəsi ilə onu nümayiş etdirdi ki, beynəlxalq hüquq, güclü siyasi iradə, cəmiyyətin səfərbər olması və fiziki güc ciddi siyasi dəyişikliklə nəticələnə bilər".

Artıq Cənubi Qafqazda yeni reallıqlar formalaşıb. Bakı postmünaqişə dövründə iki ölkə arasında sülhün əldə olunması üçün fəal iş həyata keçirir. İki ölkə arasında normallaşmaya, sülhə nail olunması üçün irəliyə doğru müsbət addımlar da atılıb. Ermənistan ilə Azərbaycan arasında masa arxasında vasitəçilərsiz danışıqlar aparılması, sərhədlərin delimitasiya və demarkasiyasına başlanılması bu baxımdan böyük əhəmiyyət kəsb edir.

Bu xüsusda dövlətimizin başçısı söylədi ki, Sovet İttifaqının süqutundan sonra ilk dəfədir ki, biz Cənubi Qafqazda sülhə nail ola bilərik. Bu, mümkündür - Azərbaycan və Ermənistan arasında sülh danışıqları çərçivəsində baş verən hadisələr, sülh müqaviləsinin bəndlərinin təqribən 80 faizinin razılaşdırılması, sərhədin delimitasiyası prosesinin başlanması və hətta kiçik addım hesab oluna bilən 13 kilometrlik hissəsinin demarkasiyasının, - halbuki sərhədin uzunluğu 1000 kilometrdən artıqdır, - özü belə düzgün istiqamətdə atılan addımdır.

### Bu, dünyanın bütün regionları üçün əhəmiyyətli olacaq

Göründüyü kimi, Azərbaycan Cənubi Qafqazda dayanıqlı sülhə nail olunması üçün mühüm təşəbbüslərlə çıxış edir, bu istiqamətdə əməli addımlar atır. Bəzi qərəzli ölkələrin bölgədə barışa zərbə vurmaq, yenidən burada müharibə ocağı yaratmaq çabalarına rəğmən Bakı qətiyyətlə sülh yolunda irəliləyir və çox tezliklə bu məqsədinə də nail olacaq.

Necə ki, bu barədə "Yeni geosiyasi şəraitdə Azərbaycanın rolu" adlı sessiyada Prezident İlham Əliyev bildirdi: "Beləliklə, biz ümid edirik ki, sülh danışıqlarının başlanmasına dair Azərbaycanın təşəbbüsü sülh sazişinin imzalanması ilə nəticələnəcək. Bu isə təkcə Cənubi Qafqaz deyil, dünyanın bütün regionları üçün əhəmiyyətli olacaqdır. Bu, 30 il ərzində münaqişədə olmuş iki ölkənin birgə çalışaraq sülhə nail olmasının nümunəsi ola bilər. Baxmayaraq ki, burada işğaldan əziyyət çəkmiş və ərazisinin təqribən 20 faizinin tamamilə dağıdıldığı ölkə məhz Azərbaycandır".

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Dünya mətbuatı Azərbaycan Prezidenti İlham Əliyevin Çernobbio Forumundakı çıxışına geniş yer ayırıb




Dünya mediası Azərbaycan Prezidenti İlham Əliyevin "Dünya, Avropa və İtaliya haqqında bilgilər" mövzusuna həsr olunmuş Beynəlxalq Çernobbio Forumunda "Yeni geosiyasi şəraitdə Azərbaycanın rolu" adlı sessiyada çıxışına və səsləndirdiyi fikirlərə geniş yer ayırıb.

AZƏRTAC xəbər verir ki, "Reuters", "Bloomberg", "Financial Post", "The Straits Time", "World Energy News", "Aol", "WTVB", "XM", "US News" və "WTAQ" kimi media agentliklərinin yaydığı materiallarda Prezident İlham Əliyevin Azərbaycanın bir çox Avropa ölkəsi ilə fəal əməkdaşlıq qurduğu, Avropa İttifaqının 10 üzvünün rəsmi olaraq ölkəmizin strateji tərəfdaşı olduğunu bildirilib. Dövlətimizin başçısı qeyd edib ki, hazırda 10 ölkə Azərbaycandan qaz alır və onlardan 7-si Avropa İttifaqının üzvüdür. Bu səbəbdən Avropa Komissiyası Azərbaycanı ümumavropa qaz təchizatçısı və etibarlı tərəfdaş adlandırır.

Azərbaycan Prezidenti vurğulayıb ki, "Cənub qaz dəhlizi" adlanan boru kəməri sistemi marşrutu boyu mövcud əlavələr və interkonnektorlar sayəsində geniş Avropa və Asiya coğrafiyasını əhatə edir. Burada da artım üçün güclü potensial var. Azərbaycan hazırda azı üç Avropa ölkəsi ilə qaz təchizatına dair danışıqlar aparır.

Materiallarda Prezident İlham Əliyevin Ukrayna ərazisindən qaz tranzitinin davam etdirilməsi ilə bağlı danışıqlarda irəliləyiş olacağına müəyyən nikbinlik ifadə etdiyi bildirilir. Vurğulanır ki, dövlətimizin başçısı Ukrayna ərazisindən qaz tranzitinin davam etdirilməsi ilə bağlı Rusiya, Ukrayna və Avropa təsisatlarının Azərbaycana müraciət etdiyini, ümumi məxrəcə gəlmək üçün böyük səylər göstərildiyini deyib. Qeyd edib ki, Azərbaycan bu kontekstdə hər iki ölkə ilə təmasdadır və ciddi irəliləyiş üçün zəmin var.

Azərbaycan Prezidenti vurğulayıb ki, tranzit dayanarsa, bir neçə Avropa İttifaqı ölkəsi təbii qazın fiziki əlçatanlığı ilə bağlı ciddi çətinliklərlə üzləşəcək. Azərbaycan həmin ölkələri və Ukraynanı dəstəkləmək istəyir. Çünki qazın tranziti dayandığı halda Ukraynanın qazpaylayıcı sistemi tamamilə iflic olacaq.

İtaliyanın RAI, ANSA, "Borsa Italiana" və digər mətbu orqanlarında dərc olunan yazılarda Prezident İlham Əliyevin forumdakı çıxışında Azərbaycan və İtaliyanın uzun illər ərzində strateji tərəfdaşlar kimi fəaliyyət göstərdiyini qeyd etdiyi bildirilir. Vurğulanır ki, İtaliya Azərbaycanın dünyada bir nömrəli ticarət tərəfdaşıdır. Azərbaycan İtaliyanın bir nömrəli neft və ikinci ən böyük qaz təchizatçısıdır.

Yazılarda dövlətimizin başçısının enerji təhlükəsizliyinin milli təhlükəsizliyin ayrılmaz parçası olduğunu bildirdiyi qeyd edilir. Vurğulanıb ki, Azərbaycandan İtaliyayadək uzanan "Cənub qaz dəhlizi" boru kəməri sistemi 10 ölkənin enerji təhlükəsizliyini təmin edir. Hazırda 10 ölkə Azərbaycandan qaz alır və onlardan 7-si Avropa İttifaqının üzvüdür.

Materiallarda Azərbaycan Prezidentinin Çernobbioda İtaliyanın "Ansaldo Energia" şirkətinin baş icraçı direktoru Fabrisio Fabbri ilə görüşdüyü bildirilir. Diqqətə çatdırılır ki, "Ansaldo Energia" şirkəti hazırda Azərbaycanın ən böyük istilik-elektrik stansiyasının yenidən qurulmasında iştirak edir və stansiya 4 ədəd qaz turbini ilə təchiz olunub. "Ansaldo Energia" Azərbaycanın enerji sisteminin təkmilləşdirilməsində iştirakda maraqlıdır. Görüşdə "yaşıl enerji" sahəsində birgə fəaliyyətin həyata keçirilməsi ilə bağlı fikir mübadiləsi aparıldığı qeyd olunur.

Rusiyanın federal mediası, o cümlədən "TASS", "RİA Novosti" "İnterfaks", "Vestnik Kavkaza", "Regnum" informasiya agentlikləri, "İzvestiya", "Lenta.ru", "Moskovskiy komsomolets", "Komsomolskaya pravda", "News.ru" nəşrləri və televiziya kanalları da Azərbaycan Liderinin forumdakı çıxışını geniş işıqlandırıb.

Materiallarda qeyd olunur ki, Azərbaycan Lideri ölkəmizin ərazi bütövlüyü və suverenliyinin bərpasını "təkcə Qafqazda deyil, daha geniş regionda baş vermiş ən böyük geosiyasi dəyişiklik" adlandırıb, torpaqlarımızın işğaldan azad edilməsini hazırda ərazi bütövlüyünü və suverenliyini bərpa etməyə cəhd göstərən ölkələr üçün yaxşı nümunə olduğunu bildirib.

# Daha 91 nəfər Şuşaya qovuşdu























Dünən Şuşa şəhəri daha 91 sakininə (27 ailə) qucaq açıb. Onlardan 18 ailə (60 nəfər) Bakı şəhərində, 1 ailə (6 nəfər) isə Abşeron rayonunda müvəqqəti məskunlaşmışdılar. Bununla da Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində Şuşada artıq 204 ailənin, yəni 763 nəfərin daimi məskunlaşması təmin edilmişdir.

Doğma yurda qayıdan vətəndaşlarımız hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

Həyəcanı üzündən oxunan keçmiş məcburi köçkün Aynur Abbasova deyib ki, 33 ildən sonra ata yurduna - Şuşaya qədəm qoyacağı üçün çox sevinclidir: "Mən Şuşa şəhərində 1 nömrəli tam orta məktəbdə coğrafiya müəllimi kimi fəaliyyət göstərəcəyəm. Bundan sonrakı fəaliyyətimizi orada davam etdirib şagirdlərimizə təhsil verəcəyik".

Yeri gəlmişkən, həyat Şuşa şəhərində 1 nömrəli məktəb də yeni tədris ilinə hazır vəziyyətə gətirilib. Müasir standartlara cavab verən bu tam orta məktəb 960 şagird yerlikdir.

Yurduna anası, həyat yoldaşı və iki övladı ilə birgə qayıtdığını bildirən Şuşa sakini Namiq Tanverdiyev deyib ki, bu günü, bu unudulmaz hissləri heç vaxt yaddan çıxartmayacaq: "Çox sevincliyəm ki, doğma torpağımıza gedirik. Altı yaşında məcburən ayrıldığım Şuşama indi 40 yaşında qayıdıram".

Bu son deyil. Uzun illərdir torpaqlarına həsrət qalan məcburi köçkünlərin hamısı tezliklə doğma yurdlarına dönəcəklər. Sürətlə və mərhələli şəkildə həyata keçirilən "Böyük Qayıdış" proqramının icrası çərçivəsində bu günə qədər 8 mindən çox keçmiş məcburi köçkün Laçın, Füzuli, Şuşa, Xocalı şəhərlərinə və dörd kəndə qayıdıb. Artıq 2093 ailə - 8094 nəfər əzəli yurdlarına geri dönüb. İndiyədək 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndində, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndində, 552 ailə (2031 nəfər) Laçın şəhərində, 822 ailə (3132 nəfər) Füzuli şəhərində, 217 ailə (823 nəfər) Laçın rayonunun Zabux kəndində, 59 ailə (215 nəfər) Laçın rayonunun Sus kəndində, 204 ailə (763 nəfər) Şuşa şəhərində, 44 ailə (169 nəfər) Xocalı şəhərində məskunlaşıb.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*




# UNFCCC-nin texniki missiyası COP29-a hazırlıq prosesini qiymətləndirmək üçün Azərbaycanda səfərdədir

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) texniki missiyası bu il noyabrın 11-22-də Bakıda keçiriləcək COP29 iqlim konfransına hazırlıq prosesinin gedişatını qiymətləndirmək məqsədilə sentyabrın 6-dan 9-dək ölkəmizdə səfərdədir.



AZƏRTAC xəbər verir ki, bu barədə COP29 Azərbaycan Əməliyyat Şirkətinin (ƏŞ) mətbuat ofisindən məlumat verilib.

Səfərin ilk günü missiyanın rəhbəri UNFCCC Konfrans İşləri şöbəsinin direktoru Vasim Mir COP29 Azərbaycan Əməliyyat Şirkətinin İdarə Heyətinin sədri və əməliyyatlar üzrə baş icraçı Nərmin Carçalova ilə görüşüb. Görüşdə tərəflər mötəbər tədbirə hazırlıq çərçivəsində bir sıra intensiv əməliyyat proseslərinin statusu, tədbir məkanının müxtəlif məqsədlər üzrə ərazi bölgüsü və digər təşkilati məsələləri müzakirə ediblər. Eyni zamanda BMT-nin Təhlükəsizlik departamentinin nümayəndəsi Kevin O'Hanlon COP29 ƏŞ-nin müvafiq nümayəndələri ilə görüşərək konfransın təhlükəsizlik məsələlərinin təmin edilməsi istiqamətində atılan addımlar ətrafında fikir mübadiləsi aparıb. Daha sonra missiya üzvləri geniş tərkibdə tədbirin keçiriləcəyi məkana - Bakı Stadionuna baş çəkiblər. Burada onlar tamamlanmış və inşası davam edən tikinti və əməliyyat prosesləri ilə əyani tanış olublar.

Səfərinin ilk günündə nümayəndə heyəti həmçinin COP29 Azərbaycan Əməliyyat Şirkəti tərəfindən beynəlxalq iqlim konfransına hazırlıq prosesi və tədbir planlarına dair Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun üzvləri üçün təşkil olunmuş brifinqə də qatılıblar.

Qeyd edək ki, üçgünlük səfər çərçivəsində hazırlıq prosesinin bütün istiqamətlərinin əhatə olunması üçün müvafiq missiya nümayəndələrinin tədbir məkanında COP29 Azərbaycan ƏŞ-nin aidiyyəti struktur rəhbərləri və müxtəlif dövlət qurumları ilə görüşləri davam etdiriləcək. Bununla yanaşı, konfransa qatılacaq çoxsaylı nümayəndələr üçün şəhərdə yaradılan qonaqlama, qidalanma və nəqliyyat imkanlarının dəyərləndirilməsi məqsədilə müxtəlif məkanların ziyarət edilməsi də planlaşdırılıb. Belə ki, texniki missiya nümayəndələrinin paytaxtdakı hotel və rezidensiyalara baş çəkərək yaradılan şərait və imkanların müvafiq tələblərə cavab verməsinin müəyyənləşdirilməsi, qidalanma sahəsində mövcud imkanlar və keytrinq xidmətləri ilə də tanış olmaları planlaşdırılıb.

# COP29 Azərbaycan sədrliyinin ölkəmizdə akkreditə olunmuş diplomatik korpusun üzvləri üçün ikinci brifinqi keçirilib

Sentyabrın 6-da COP29 Azərbaycan Əməliyyat Şirkəti (ƏŞ) Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun üzvləri üçün COP29 konfransına hazırlıq prosesi və tədbir planları ilə əlaqədar ikinci brifinqini keçirib.

Bu barədə AZƏRTAC-a COP29 Azərbaycan Əməliyyat Şirkətinin mətbuat ofisindən məlumat verilib.

Bildirilib ki, tədbirdə COP29 Azərbaycan Əməliyyat Şirkətinin İdarə Heyətinin sədri və Əməliyyatlar üzrə baş icraçı Nərmin Carçalova, Azərbaycan Respublikası Prezidentinin Protokol xidməti rəisinin müavini Ramin Tağıyev, həmçinin Bakıda rəsmi səfərdə olan UNFCCC Konfrans İşləri Şöbəsinin direktoru Vasim Mir və BMT-nin Təhlükəsizlik departamentinin nümayəndəsi Kevin O'Hanlon iştirak ediblər. Hibrid formatda təşkil edilən interaktiv brifinqə Azərbaycanda fəaliyyət göstərən diplomatik missiyaların rəhbər şəxsləri ilə yanaşı, ölkəmizdə akkreditə olunmuş və xarici ölkələrdə yerləşən diplomatik korpusun nümayəndələri də daxil olmaqla, ümumilikdə 150-dən artıq diplomat qoşulub.

Brifinqdə geniş təqdimatla çıxış edən Nərmin Carçalova COP prosesinin təqviminə daxil edilən başlıca tədbirlər, fərqli istiqamətlərdə aparılan in-



tensiv hazırlıq prosesi, konfransın keçiriləcəyi Bakı Stadionunda COP29-la bağlı müxtəlif məqsədlər üzrə ərazi bölgüsü və müvafiq infrastrukturun qurulması istiqamətində aparılan işlər barədə ətraflı məlumat verib. COP29 zamanı bütün rəsmi tədbirlərin keçiriləcəyi məkan olan Mavi Zonanın, eləcə də müxtəlif tərəfləri innovativ iqlim yanaşmaları üçün bir araya gətirəcək Yaşıl Zonanın qurulması üzrə irəliləyişlər barədə ətraflı məlumat verilərək, işlərin planauyğun şəkildə davam etdirildiyi bildirilib.

Tədbirə qatılan diplomatların diqqətinə çatdırılıb ki, COP29-da iştirakın təşkilati tərəfinin səmərəli və rəvan şəkildə təmin edilməsi üçün bir sıra addımlar atılıb. Belə ki, UNFCCC tərəfindən təşkil olunan konfransa qeydiyyat prosesi, son dövr ərzində istifadəyə verilmiş COP29 xüsusi viza xidmətinin istifadəyə verilməsi, media nümayəndələrinin akkreditasiyası, radioelektron avadanlıqların qeydiyyatdan keçirilməsi və müvəqqəti radiospektrin ayrılması, COP29 Yaşıl Zonasında tədbirlərin təşkili üçün yaradılmış infrastruktur və məkanların rezervasiyası, tərcümə xidmətinin rezervasiyası üçün bir sıra müxtəlif portalların fəaliyyəti ətraflı izah edilib. Qlobal əhəmiyyətli konfransda iştirak üçün Bakıya gələcək minlərlə beynəlxalq nümayəndənin müsbət ziyarətçi təcrübəsinin təmin olunması məqsədilə tətbiq ediləcək nəqliyyat, qonaqlama və qidalanma istiqamətində görülmüş işlər, nəzərdə tutulan əlavə tədbirlər brifinq iştirakçılarının diqqətinə çatdırılıb. Qeyd olunub ki, intensiv şəkildə davam edən əməliyyatların bütün fazalarında ƏŞ-nin əsas hədəflərindən biri ekoloji təsirləri və karbon ayaq izinin yolverilən minimumda saxlanılmasıdır.

Prezidentin Protokol xidməti rəisinin müavini Ramin Tağıyev COP29 çərçivəsində təşkil ediləcək İqlim Fəaliyyəti üzrə Dünya Liderlərinin Sammitində iştirak üçün Bakıya gələcək dövlət və hökumət rəhbərlərinə, rəsmi heyətlərinə şamil olunan imtiyazlar, qarşılama, yerləşdirilmə və nəqliyyat məsələlərində protokolla bağlı yer alan məqamlara toxunub. O, Heydər Əliyev Beynəlxalq Aeroportunun tədbir zamanı fəaliyyət sxemi, şəhərdaxili nəqliyyatın təmin edilməsi, eləcə də Dünya İqlim Fəaliyyəti Sammitinin gündəliyi haqqında diplomatları məlumatlandırılıb.

Tədbir, iştirakçıları maraqlandıran məsələlər ətrafında müzakirə və sual-cavab sessiyası ilə davam edib.

# BMT Beynəlxalq Təmiz Hava Günü münasibətilə müraciət edib

BMT hər il sentyabrın 7-də qeyd edilən Beynəlxalq Təmiz Hava Günü ilə əlaqədar dünya ictimaiyyətinə müraciət edib.

AZƏRTAC təşkilatın saytına istinadla xəbər verir ki, müraciətdə havanın çirklənməsinin dövrümüzün ən böyük ekoloji sağlamlıq riski olduğu vurğulanıb. "Bu, həm də iqlim dəyişikliyini daha da gücləndirir, iqtisadi itkilərə səbəb olur və kənd təsərrüfatı məhsuldarlığını azaldır. Havanın çirklənməsi heç bir sərhəd tanımır - hər kəs atmosferimizi qorumaq və hamı üçün sağlam havanı təmin etməyə görə məsuliyyət daşıyır. Sərhədlər və sektorlar arasında əməkdaşlıq etməklə biz vaxt, resurslar və səylərin kollektiv sərmayələri vasitəsilə havanın çirklənməsini azalda bilərik. Mavi səmalar üçün Beynəlxalq Təmiz Hava Günündə biz hökumətlərdən və korporasiyalardan tutmuş vətəndaş cəmiyyətinə və fərdlərə qədər hər kəsi bu sahəyə sərmayə qoymağa çağırırıq. Havanın çirklənməsi ilə fəal mübarizə aparmaqla biz transformativ dəyişikliyə nail ola və hamı üçün sağlam havanı təmin edə bilərik".



BMT-nin ekspertləri qeyd edirlər ki, havanın çirklənməsi - kiçik, gözəgörünməz hissəciklər ağciyərlərə, qan dövranına dərindən nüfuz edir. Bu zərərli maddələrin səbəb olduğu insult, xroniki respirator xəstəlikləri və ağciyər xərçəngi ölümlərin təxminən üçdəbirinə səbəb olur. Günəş işığında çoxlu müxtəlif çirkləndiricilərin qarşılıqlı təsirindən əmələ gələn ozon həm də astma və xroniki tənəffüs xəstəlikləri törədir.

Havanın çirklənməsi iqlimə də mənfi təsir göstərir. Belə ki, iqlim çirkləndiriciləri (SLCP) həm də planetin yaxınmüddətli istiləşməsi ilə ən çox əlaqəli olan amildir. Onlar atmosferdə bir neçə gün və ya bir neçə onilliklərə qədər qalırlar. Bu maddələrin az olduğu yerlərdə iqlim sabit olur və insanların ömrü də uzun olur.

BMT qlobal miqyasda havanın keyfiyyəti ilə bağlı proqnozlarını da verib: "Havanın çirklənməsi insan sağlamlığı üçün yeganə ən böyük ekoloji riskdir və dünya miqyasında ölüm və xəstəliklərin əsas qarşısı alına bilən səbəblərindən biridir və bütün dünyada təxminən 6,5 milyon vaxtından əvvəl ölüm halı qapalı və açıq havanın çirklənməsi ilə əlaqələndirilir. Xüsusilə inkişaf etməkdə olan ölkələrdə havanın çirklənməsi qeyri-mütənasib şəkildə qadınlara, uşaqlara və qocalara, xüsusən də aztəminatlı əhaliyə təsir edir, çünki onlar tez-tez odun yanacağı və kerosinlə yemək bişirmək və qızdırmaq nəticəsində yüksəksəviyyəli hava çirklənməsinə məruz qalırlar. Havanın çirklənməsinə fəal müdaxilənin olmadığı təqdirdə vaxtından əvvəl ölüm hallarının sayının 2050-ci ilə qədər 50 faizdən çox artacağı təxmin edilir".

Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf üzrə Konfransının "Arzuladığımız gələcək" adlı yekun sənədində ölkələr dayanıqlı şəhərlər və insan məskənləri kontekstində sağlam hava keyfiyyətini dəstəkləyən davamlı inkişaf siyasətini təşviq etmək öhdəliyi götürüblər. Həmçinin davamlı inkişafa, ətraf mühitin mühafizəsinə və hamı üçün rifaha nail olmaq üçün yol xəritəsini əks etdirən Dayanıqlı İnkişaf üzrə 2030 Gündəliyi havanın çirklənməsinin azaldılmasının Dayanıqlı İnkişaf Məqsədlərinə çatmaq üçün vacib olduğunu qəbul edir.

## *Britaniyalı akademik:*
# "COP29 Azərbaycan üçün mühüm bir addımdır"

"Azərbaycanın növbəti COP tədbirinə evsahibliyi edəcəyini öyrənmək məni çox sevindirir. Bu, böyük bir addımdır və ciddi öhdəlik tələb edir. Açıq-aydın görünür ki, Azərbaycan bu məsuliyyəti öz üzərinə götürmək üçün lazım olan potensiala malikdir".



AZƏRTAC-ın məlumatına görə, bu sözləri Böyük Britaniyanın Lafboro Universitetinin professoru və İqlimə Uyğun İnkişaf Proqramının (The Climate Compatible Growth Programme) direktoru, akademik Mark Hovells AZƏRTAC-a açıqlamasında deyib. O, Azərbaycanın COP29-a evsahibliyi edəcəyinə toxunaraq qeyd edib ki, iqlim dəyişikliyinə qarşı qlobal mübarizənin bir hissəsi olmaq olduqca vacibdir:

"İqlim dəyişikliyi ilə mübarizədə qlobal bir ailənin üzvü olmaq çox önəmlidir və Azərbaycan bu sahədə vacib bir qlobal iştirakçıdır. Gələcəkdə hansı yolla irəliləyəcəyimizi müəyyən etmək üçün müxtəlif hökumətlərdən, nümayəndələrdən və digər sahələrdən fikir liderləri ilə əlaqə qurmaq fürsətini səbirsizliklə gözləyirəm. Azərbaycan üçün bu, böyük bir addımdır və ciddi öhdəlik tələb edir; açıq-aydın görünür ki, Azərbaycan bu məsuliyyəti öz üzərinə götürmək üçün lazım olan potensiala malikdir. Azərbaycana uğurlar arzulayıram. Mən də COP-a qatılma şansına sahib olduğum üçün çox xoşbəxtəm", - deyə Mark Hovells qeyd edib.

O, Lafboro Universitetinin beynəlxalq əhəmiyyətli bir proqram olan və Britaniya Xarici İşlər Nazirliyi tərəfindən maliyyələşdirilən İqlimə Uyğun İnkişaf Proqramının mərkəzi olduğunu qeyd edib. Mark Hovells beynəlxalq tərəfdaşlarla əməkdaşlıq etməkdə çox maraqlı olduqlarını vurğulayıb: "İqlim dəyişikliyi problemi, bu məsələ ilə bağlı çətinliklər və fürsətlər təkcə fərdlər və ya fərqli ölkələr tərəfindən həll edilə bilməz. Bizim hər birimizin fərqli təcrübələri və təqdim edə biləcəyimiz müxtəlif fikirlər və innovasiyalar var, buna görə beynəlxalq əməkdaşlıq əhəmiyyətlidir. COP konfransı belə müzakirələrin aparılması üçün çox vacib bir platforma təqdim edir. Azərbaycanın COP29-dakı liderliyinin nələrə imkan yaradacağını görmək üçün səbirsizliklə gözləyirəm", - deyə o əlavə edib.

# "Yaşıl dünya naminə həmrəylik ili" ilə əlaqədar veloyürüş təşkil olunub

Azərbaycanın evsahibliyi edəcəyi BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) və "Yaşıl dünya naminə həmrəylik ili" ilə əlaqədar olaraq Naxçıvanda veloyürüş keçirilib. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi, muxtar respublikanın Gənclər və İdman, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin birgə təşkilatçılığı ilə reallaşan kütləvi-mədəni idman aksiyasında yaşı 14-dən yuxarı olan 250-dən çox insan öz velosipedi ilə iştirak edib.

Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, "Saat meydanı" İstirahət Mərkəzində veloyürüşün açılış mərasimi təşkil olunub. Əvvəlcə şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Mərasimdə çıxış edən Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri səlahiyyətlərinin müvəqqəti icraçısı, nazir müavini Məcid Seyidov respublikamız üçün aktual olan ekoloji problemlərin davamlı həlli istiqamətində Ümummilli Lider Heydər Əliyev və Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük işlərin həyata keçirildiyini xatırladıb, ölkəmizin iqlim dəyişiklikləri ilə mübarizədə dünya müstəvisində aparıcı mövqeyə malik olduğunu deyib. Qeyd edilib ki, noyabrda Azərbaycanın COP29 kimi mötəbər konfransa evsahibliyi etməsi, 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan olunması və ümumilikdə bu sahədə atılan addımlar dövlətimizin ekoloji mühafizə məsələsinə həm də beynəlmiləl müstəvidən baxdığını göstərir. Ölkəmizdə "yaşıl enerji" zonası elan olunan Naxçıvan Muxtar Respublikasında da bu sahədə mühüm işlərin həyata keçirildiyini diqqətə çatdıran Məcid Seyidov əlavə edib ki, bugünkü veloyürüşün məqsədi yalnız insanların sağlam həyat tərzinə və ya ekoloji təmiz nəqliyyat vasitəsi kimi velosipeddən istifadəyə təşviqinə deyil, eyni zamanda cəmiyyətin diqqətini ekoloji problemlərə yönəltmək, bununla mübarizədə birlik, həmrəylik nümayiş etdirməkdir.



Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının müavini Gülxanım Orucova ekoloji tarazlığın bərpası və ətraf mühitin mühafizəsi istiqamətində görülən işlər barədə danışıb, veloyürüşlə bağlı fikirlərini bölüşüb. Şəhər sakinlərinin ekoloji biliklərinin, əhalinin mühafizə prosesindəki rolunun artırılması, velosipeddən istifadənin gündəlik həyat tərzinə çevrilməsi üçün maarifləndirici tədbirlərin davam etdirildiyini vurğulayıb. Dövrün aktual ekoloji problemləri ilə mübarizədə ekonəqliyyata keçid və bu prosesdə velosipeddən istifadənin önəmi ifadə olunub.

Sonra iştirakçılar start xəttinə dəvət olunub və yürüşə start verilib. İştirakçılar təyin olunmuş bir dövrəlik marşrut üzrə 8000 metr məsafə qət ediblər. Nəticələrə gəlincə, kişilər arasında Asiman Cabbarov, qadınlarda isə Zöhrə Sadiqova finişə birinci çatıblar. Cavid Qasımlı və Fatimə Məmmədli ikinci, Elvin Mikayılzadə ilə Aydan Qasımlı isə üçüncü olublar.

İlk üç yerin sahiblərinə nazirliyin diplom və medalları, eləcə də sponsorların hədiyyələri təqdim olunub.




# "Qoy həmişə Günəş olsun!"

## Azərbaycan COP29 ərəfəsində bütün dünyaya atəşkəs çağırışı ünvanlayacaq

İqlim dəyişmələri ilə mübarizə təkcə ətraf mühitin zərərli təsirlərdən qorunması, flora və faunanın zənginləşdirilməsi, atmosferə atılan karbon emissiyasının azaldılması, "yaşıl enerji"yə keçid deyil. Həm də planetimizin dörd-bir yanında baş alıb gedən müharibələrin dayandırılması, dünyada sülhə, aydın səmaya, mehriban birgəyaşayışa nail olunması deməkdir. Çünki partlayan bombalar, atılan raketlər, digər kütləvi qırğın silahları ölüm saçmaqdan əlavə, atmosferi zəhərləyir, təbiəti korlayır, bəndləri dağıdır, torpağın altını üstünə çevirir. Üstəlik, minlərlə insanın həlak olması fonunda ekologiyanın mühafizəsi arxa plana keçir.




Bütün bu reallıqları nəzərə alan Azərbaycan ev sahibi olaraq COP29-dan sülh, barış platforması kimi istifadə etməyə qərar verib. Rəsmi Bakı sözügedən problemin həllinə üç rakursdan yanaşır: Ermənistanla sülh müqaviləsi imzalayaraq Cənubi Qafqazda əmin-amanlığı möhkəmləndirmək; Fransa və digər müstəmləkəçi dövlətlərin kolonizasiya siyasətinə son qoymaq, boyunduruqda əzilən xalqların hüquqlarını müdafiəsi; Rusiya-Ukrayna, İsrail-Fələstin və digər münaqişələrdə atəşkəsə nail olmaq, məhəlli savaşların Üçüncü Dünya müharibəsi mərhələsinə keçməsini əngəlləmək.

Cari il aprelin 23-də ADA Universitetində keçirilən "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusundakı beynəlxalq forumda Prezident İlham Əliyev demişdir: "Hesab edirəm ki, bu gündəlik Cənubi Qafqazda təhlükəsizlik tədbirlərinin gücləndirilməsi ilə nəticələnəcək. Ümumilikdə Cənubi Qafqazda üç ölkə arasında ən azı məsləhətləşmə formatı yaradıla bilər ki, bu, gələcək əməkdaşlığa yol açsın. Bu, misilsiz bir fürsətdir. Sülh şəraitində müstəqillik yoluna qədəm qoyan Baltik dövlətlərindən fərqli olaraq, Sovet İttifaqının süqutu bizi bu imkandan məhrum etdi. Biz müharibələrlə üzləşdik. İndi isə bu səhifəni çevirmək üçün fürsət var, biz bunu edirik və COP29 bunun gözəl nümunəsidir. Bu gün Ermənistan ilə Azərbaycan arasında sərhəddə gördükləriniz, pərdəarxası görmədikləriniz, iki ölkənin nümayəndələri arasındakı təmaslar, daha açıq və konstruktiv müzakirələr də bu qəbildəndir. Sərhəd delimitasiyası məsələsində Azərbaycan və Ermənistan olduqca konstruktiv davranış nümayiş etdirir. Görünənlər bunun bir parçasıdır - bu, bir nəticədir. Lakin bu nəticə müntəzəm təmaslardan və müsbət dinamikadan qaynaqlanır. Biz bu işi konsolidasiya etməli və irəliləməliyik. Düşünürəm ki, COP29-dan əvvəl Azərbaycanla Ermənistan arasında razılaşmanın, ən azı baza prinsipləri ilə bağlı razılaşmanın əldə olunması tamamilə realdır. Hesab edirəm ki, baza prinsipləri ilə bağlı razılığa gəlmək və sonra məzmunun təfərrüatlarına daha çox vaxt ayırmaq da bir variantdır".

Aydındır ki, bu gün Azərbaycan Cənubi Qafqazın lider dövlətidir və rəsmi Bakının rəyi ilə hesablaşmadan regionda hər hansı layihənin reallaşdırılması, sadəcə, mümkün deyil. Lakin ölkəmiz nə üstün mövqeyindən, nə də Vətən savaşındakı halal Zəfərindən sui-istifadə etmək niyyətindədir. Hətta böyüklük, ağsaqqallıq nümayiş etdirərək Ermənistanın baş naziri Nikol Paşinyana COP29-da iştirak üçün dəvət də göndərib. Məğlub tərəf revanşist ovqatından əl çəkib, necə deyərlər, düz yola gələrsə, ölkəmiz ona yönəlik istər siyasi, istərsə də iqtisadi vədlərinə sadiq qalacaq. Dəfələrlə Hayastanın düşdüyü bataqlıqdan çıxmasına, bölgədəki regional və beynəlxalq layihələrdə iştirakına şərait yaradılacağı barədə mesajlar da verilib. Amma nə yazıqlar ki, Qərbin maliyyəsinə və silahlarına uyub sayıqlığını itirən, xam xəyallara qapılan İrəvan hələlik belə fürsətləri dəyərləndirə bilmir. Ermənistan hətta torpaqlarımıza əkdikləri yüz minlərlə ölüm toxumlarının - hər gün, günaşırı günahsız insanların həyatına son qoyan minaların xəritələrini verməkdən belə, imtina edir.

Azərbaycan hələ Qoşulmama Hərəkatına sədrlik etdiyi 4 il ərzində dünyanın istibdad zülmətinə bürünmüş guşələrinə işıq salmağa çalışmışdır. Müstəmləkə əsarətində əzilən kütlələrin fəryadına səs vermiş, beynəlxalq tribunalardan məzlumların haqlı mübarizəsini dəstəkləmişdir. Bu gün də Bakı Təşəbbüs Qrupu vasitəsi ilə həmin təqdirəlayiq fəaliyyətini davam etdirir, imperialistlərin müstəmləkə eybəcərliklərinə qarşı mübarizəsində inamlı və ardıcıl görünür. Elə neçə gün öncə Qəmər və Mayot adalarının nümayəndələrinin paytaxtımızda keçirilən növbəti tədbiri və qəbul olunan qərarlar da buna bariz nümunədir.

Təəssüf ki, dünyada savaşlar ara vermir, əksinə, böyüyərək yamyaşıl ərazilərin yanıb külə dönməsi, minlərlə günahsız insanların qətli, yaşayış məntəqələrinin, infrastrukturun, maddi-mədəniyyət abidələrinin dağıdılması ilə davam edir. Dövlətimiz isə belə mürəkkəb geosiyasi vəziyyətlərdə tarazlı xarici siyasət yürüdür, münaqişə tərəfləri ilə balanslaşdırılmış mövqedə dayanır, onları atəşkəsə, dialoqa səsləyir, sülh üçün bacardığı köməyi, eləcə də müharibədən əziyyət çəkən tərəflərə humanitar yardımını əsirgəmir. Bu humanist, sülhpərvər siyasətin davamı olaraq COP29 ərəfəsində bütün dünyaya atəşkəs çağırışı ilə müraciət etməyi nəzərdə tutur.

***Qurban MƏMMƏDOV,***
***"Azərbaycan"***

# *Türkiyə mətbuatı:* "COP29 çərçivəsində "Dayanıqlı gələcək platforması" ekoloji sahədə əlaqələrin möhkəmləndirilməsinə yönəlib"

"Dayanıqlı Gələcək Platforması" Azərbaycanda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 çərçivəsində açılan ictimai vətəndaş təşəbbüsü pavilyonu olacaq. AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyənin "Cumhuriyet" qəzetinin "Green Zone COP29" platformasında pavilyonun qarşıdan gələn açılış mövzusuna həsr olunmuş materialında deyilir.


Cumhuriyet
Sürdürülebilir gelecek platformu COP29 yolculuğunu başlattı: 'Daha kıymetli bir oluşum yok!'

Nəşr yazır ki, Bakıda BMT-nin noyabr konfransı ərəfəsində "Agriconnect Türkiye" təşkilatından "Dayanıqlı Gələcək Platforması"nın təşkilatçıları bu işlərə töhfə verməyə çalışan tanınmış şirkətlərin, QHT-lərin nümayəndələri və ictimai xadimlərlə görüş keçiriblər.

"Agriconnect Türkiye" şirkətinin nümayəndəsi Həvva Olçum deyib ki, noyabrın 11-dən 24-dək Bakıda "Dayanıqlı Gələcək Platforması" pavilyonunda ekoloji mövzularda çoxsaylı dəyirmi masa və digər tədbirlər keçiriləcək. "COP29-un 11 günü ərzində, o cümlədən su təminatı, enerji, texnologiyalar, dəb, turizm, nəqliyyat və səhiyyə də daxil olmaqla 11 müxtəlif istiqamət üzrə müzakirələr təşkil olunacaq. Məqsədimiz ictimaiyyətin maksimum dərəcədə geniş diqqətini ətraf mühit problemlərinə cəlb etməkdir. Qeyri-hökumət təşkilatlarının nümayəndələrini, tanınmış istehsalçıları, alimləri və ətraf mühit fəallarını bir araya gətirməyi planlaşdırırıq", - deyə "Agriconnect Türkiye"nin nümayəndəsi pavilyon yaratmaq ideyasına dəstəyinə görə "Trendyol"a təşəkkürünü bildirib. O vurğulayıb ki, bu gün səyləri birləşdirmək və ekoloji problemləri müzakirə etmək üçün ən doğru zamandır. "Artıq üç ildir biz "Dayanıqlı Gələcək Platforması" çərçivəsində müxtəlif tədbirlər həyata keçiririk, ekoloji sahədə sıx dialoqa və təmaslara çağırırıq", - deyə Olçum Türkiyə və Azərbaycanın tanınmış simalarının daxil olduğu "Dayanıqlı Gələcəy"in Məşvərət Şurasının yaradılması barədə xatırladıb. "Bu Şura ictimaiyyətə açıqlanacaq hesabatlar hazırlayacaq", - deyə o əmin edib.

"Cümhuriyyət"in materialında, həmçinin "Dayanıqlı Gələcəyin" Məşvərət Şurasının üzvləri Əsli Pasinli və professor Levent Kurnaz, eləcə də Azərbaycan Kiçik və Orta Biznes Subyektləri və Klublarının Assosiasiyasının (KOBSKA) İdarə Heyətinin rəhbəri Nigar Ələsgərovanın Azərbaycanda keçiriləcək COP29 konfransının əhəmiyyəti mövzusunda fikirləri oxuculara çatdırılıb.

# *COP29:* "Yaşıl Zona"da konfrans və iclas otaqlarının rezervasiya portalı istifadəyə verilib

**Azərbaycanda keçiriləcək COP29 konfransının xüsusi məkanı - "Yaşıl Zona" yüksəksəviyyəli tədbir təşkilatçılığı və proqramlaşdırma, eləcə də texnoloji innovasiya ilə qlobal məzmun tərəfdaşlığının vəhdəti sayəsində builki tədbirin öz aktuallığını uzun müddət qoruyub saxlamasına böyük töhfə verəcək.**

Bu il bütün dünya ən mühüm iqlim tədbiri üçün Bakıda toplaşır. Belə bir vaxtda "Yaşıl Zona" maraqlı tərəflərin iqlim fəaliyyətinə əlavə təkan vermələri üçün qarşılıqlı əlaqə quraraq fikir, təcrübə və bilik mübadiləsi apara biləcəkləri platformaya çevriləcək.

AZƏRTAC xəbər verir ki, "Yaşıl Zona"da aparıcı qlobal təşkilatlar tərəfindən məhsul və xidmətlərin nümayişi ilə yanaşı, müxtəlif təqdimatların, seminarların və brifinqlərin, habelə musiqi və mədəniyyət tədbirlərindən ibarət bir sıra məqsədyönlü proqramların keçirilməsi planlaşdırılır.

Pavilyonlar və sərgi stendlərindən ibarət olan, ümumi sahəsi 36 min kvadratmetr sahəni əhatə edən "Yaşıl Zona" tədbir zamanı Tərəflər Konfransının rəsmi iclaslarının keçiriləcəyi "Mavi Zona"dan bir neçə yüz metr aralıda yerləşir.

Bu il "Yaşıl Zona" yeni virtual iştirak kanalları sayəsində öz əhatə dairəsini daha da genişləndirəcək və bu, yüksək karbon emissiyalı səfərlərə olan ehtiyacı minimuma endirməklə yanaşı, COP tədbirini bu layihədə iştirak edəcək qlobal auditoriyanın əl telefonlarına, kompüterlərinə, televizor ekranlarına və qapılarına qədər aparacaq.

Builki "Yaşıl Zona"nın əsas xüsusiyyətləri aşağıdakıları ehtiva edir:

● Həm Azərbaycandan, həm də dünyanın müxtəlif ölkələrindən bizneslərin geniş çeşidini təmsil edən aparıcı özəl sektor nümayəndələrinin, hökumət təşkilatlarının, BHT-lərin (Beynəlxalq Hökumət Təşkilatları) və QHT-lərin iqlim fəaliyyətləri ilə bağlı ən son məhsullarının, həll variantlarının və layihə üzrə işlərin gedişatının təqdim və nümayiş olunması;

● Nüfuzlu spikerlər, xüsusi seminarlar, sərgi zonaları, həmçinin yaradıcı şəxslər üçün ayrılmış studiyalar, şəbəkələşmə sahələri vasitəsilə həm gənclər, həm də digər iştirakçılar arasında əlaqələndirmənin gücləndirilməsinə xidmət edən innovativ "ekstremal görüş" zonası;

● COP29-un mərkəzindən yayımlayacaq, yüksəksəviyyəli qonaqlardan ibarət müxtəlif qrupları, eləcə də dinamik məzmunu özündə əks etdirəcək, ilk dəfə yayımlanacaq unikal "Daily show" verilişi. Bu televeriliş konfrans barədə məlumatların Bakının hüdudlarından xeyli uzaqlara çatdırılması üçün bir sıra xəbər agentlikləri vasitəsilə bütün dünyada yayımlanacaq;

● Təşkilatların səmərəli iştirakını və əhatə dairəsinin genişləndirilməsini təmin edəcək, onların tədbirin hüdudlarından uzaqlarda yerli, regional və beynəlxalq auditoriyalarla əlaqələndirilməsinə şərait yaradacaq qabaqcıl texnologiya və canlı yayım xidmətləri;




● Tədbir məkanında cərəyan edən hadisələrin məzmununu lentə alaraq sinxron şəkildə yayımlanmasını təmin edəcək peşəkar yayım və audiovizual məzmunların hazırlanma proseslərinin idarə edilməsi üzrə xidmətlər.

Qeyd edək ki, artıq bu dinamik mərkəzdə fərdi konfransları və iclas otaqlarını COP29-un onlayn portalında bron etmək mümkündür. Təşkilatlar daha rahat vizual təmasın və daha çox fiziki iştirakın təmin olunmasına xidmət edəcək teatral formatda olan, habelə yüksəkdəqiqlikli audiovizual avadanlıqlarla təchiz olunan həm orta, həm də genişmiqyaslı görüş və tədbirlər üçün dizayn edilən konfrans otaqlarını bron edə bilər. Bununla yanaşı, dörd, səkkiz və ya on iki nəfərlik qrupların qapalı görüşləri üçün korporativ (B2B) iclas otaqları da mövcuddur. Gözlənilən yüksək tələbatı nəzərə alaraq, iclas otaqlarının ayrılması zamanı COP29-un tərəfdaşlarına və sərgi iştirakçılarına üstünlük veriləcək.

İctimaiyyət nümayəndələri iqlim sahəsində aparıcı simaları və tərəfdaşları dinləmək, həmçinin iqlim müzakirəsinə fikir bildirməklə töhfə vermək üçün "Yaşıl Zona"da iştiraka dəvət olunacaqlar. Ödənişsiz biletlərin noyabrın əvvəlindən etibarən əldə edilməsi mümkün olacaq.

"Yaşıl Zona"nın qurulmasını şərh edən COP29 Azərbaycan Əməliyyat Şirkətinin İdarə Heyətinin sədri və Əməliyyatlar üzrə baş icraçı Nərmin Carçalova bildirib ki, dünyanın ən əhəmiyyətli iqlim konfransı kimi tanınan COP29 dayanıqlı və davamlı gələcəyə nail olmaq üçün beynəlxalq iqlim siyasətinin müzakirəsi, iqlimlə bağlı fəaliyyətlərin inkişafı və qlobal əməkdaşlığın təşviqi üçün əsas platforma rolunu oynayacaq.

"Builki "Yaşıl Zona" ilə bağlı planlarımız həm özəl, həm də dövlət sektorlarını təmsil edən təşkilatlara iqlim fəaliyyətinə əlavə təkan vermək məqsədilə bir-biriləri ilə əlaqə quraraq fikir, təcrübə və bilik mübadiləsi aparmaq üçün müxtəlif ideal imkanlar yaradır", - deyə N.Carçalova vurğulayıb.

# COP29 ərəfəsində Afrikada iqlim dəyişmələri ilə mübarizənin maliyyələşdirilməsi məsələsi müzakirə olunur

**"Qlobal istiləşmənin təsiri Afrika ölkələrinin iqtisadiyyatına ümumi ÜDM-in 5 faizinə başa gəlir". AZƏRTAC xəbər verir ki, bu barədə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibi Saymon Stil bu gün Afrika ölkələrinin ətraf mühit nazirlərinin Abidcanda (Kot-d'İvuar) keçirilən görüşündə bildirib. O, iqlim dəyişmələrinə uyğunlaşmaq üçün investisiyaları artırmağa çağırıb.**

Afrika ölkələrinin hökumətləri və onların iqlim müzakirəçiləri noyabr ayında Azərbaycanda keçiriləcək COP29 ərəfəsində hazırlıq iclasında iqlim dəyişmələri ilə mübarizə və onun nəticələrinin maliyyələşdirilməsi ilə bağlı müxtəlif strategiyaları müzakirə etmək üçün Abidcanda toplaşıblar.

Sənaye cəhətdən inkişaf etmiş dünya ilə müqayisədə daha az çirkləndirici maddələr istehsal etməsinə baxmayaraq, iqlim dəyişikliyinin ən ağır yükünü üzərinə götürən 54 ölkədən ibarət Afrika qitəsi illik qlobal iqlim maliyyəsinin yalnız 1 faizini alır.

"İqlim böhranı iqtisadi artımın sürətini sovuran iqtisadi çuxurdur", - deyə Saymon Stil Afrika ölkələrinin ətraf mühit nazirlərinin görüşündə bildirib.

Qeyd edib ki, qitə son illərdə iqlim dəyişmələrinin nəticələrinin yumşaldılması və ona uyğunlaşma layihələrinə yeni investorlar cəlb etsə də, qlobal miqyasda mövcud olan 100 milyard dollarlıq maliyyə vəsaitinin yalnız bir hissəsini alır. Bu, tələb olunan 1,3 trilyon dollarla müqayisədə dənizdə bir damcı deməkdir.

"Afrikanın iqlim problemləri üzrə həllərin təşviqində nəhəng potensialı maliyyə çatışmazlığı səbəbindən boşa çıxır", - deyə o bildirib.

Onun sözlərinə görə, zəruri investisiyalara istixana qazları emissiyalarına töhfə verən odun kimi ənənəvi yanacağın istifadə edilməsindən qitədə imtina olunması üçün ildə 4 milyard dollar daxildir.

İqlim dəyişmələri Afrikada ərzaq istehsalına təsir edən, əmtəə qiymətlərinin artmasına gətirən və aclıq problemini gücləndirən uzun sürən quraqlıq və fəlakətli daşqınlara səbəb olub.

S.Stil qeyd edib ki, ölkələrin yeni beynəlxalq maliyyələşdirmə hədəfləri ilə bağlı konsensus axtaracaqları Bakıda keçiriləcək COP29 ərəfəsində Afrikaya daha çox iqlim maliyyəsi cəlb etmək çağırışları artıb.



# COP29 Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında mühüm rol oynayacaq

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsi təqdirəlayiq və fəxredilәsi hadisədir. Belə mötəbər tədbirə evsahibliyi etmək Azərbaycanın tanıdılması baxımından çox əhəmiyyətlidir.

Dünyanın mərkəzinə çevriləcək paytaxt Bakı təqribən 70-80 min xarici qonağı qarşılayacaq. Ölkəmizə gələcək minlərlə qonaq Azərbaycanla, onun tarixi, mədəniyyəti, adət-ənənələri ilə daha yaxından tanış olacaq, uğurlarına şahidlik edəcək. COP29 Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında və müəyyən məsələlərin həllində də mühüm rol oynayacaq.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Coğrafiya İnstitutunun Ekocoğrafiya şöbəsinin müdiri, dosent Ənvər Əliyev səsləndirib. Azərbaycanın iqtisadi qüdrətinin getdikcə artdığını vurğulayan ekoloq alim bildirib ki, dünya arenasına çıxan və kifayət qədər nüfuzu olan ölkəmiz bizə həsəd aparanların təzyiqlərinə sinə gərərək, bütün sahələrdə möhkəmlənir. "Azərbaycan dünya iqtisadiyyatına inteqrasiya edərək öz payını götürür. Ölkəmiz qlobal məsələlərlə bağlı təşəbbüslərlə çıxış edir. Bu, bizim üçün qürurdur. Bunun əhəmiyyətini anlamamaq mümkün deyil. Hər bir Azərbaycan vətəndaşı bu işdə ölkəsinin, dövlətinin yanında olmalı, imkanı daxilində öz dəstəyini göstərməli, töhfəsini verməlidir", - deyə Ə.Əliyev vurğulayıb.

İqlim Şəffaflığı üzrə Bakı Qlobal Platformasının əhəmiyyətindən danışan alim qeyd edib ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının icra katibi Simon Stiell Bakı Qlobal Platformasının işə salınmasını alqışlaması da təsadüfi deyil. COP29 çərçivəsində Azərbaycanın təşəbbüsü ilə yaradılan İqlim Şəffaflığı üzrə Bakı Qlobal Platformasının qlobal əhəmiyyəti vardır və bu da ölkəmizin nüfuzunu göstərən amillərdəndir. Ə.Əliyev bildirib ki, iqlim dəyişikliyinin səbəblərindən biri də əhalinin sayının artması ilə bağlıdır. 1950-ci ildən sonra dünya əhalisinin sayı iki dəfədən çox artıb. Hər insan gündəlik tələbat üçün müəyyən miqdarda su işlədir və bu da təbii olaraq su qıtlığı, səhralaşma yaradır. Onun fikrincə, planetdə iqlim dəyişikliyini törədən amillər var və bu amillər dəyişilməz olaraq qalır. Yerin fırlanma oxunun fırlanma müstəvisinə olan bucağı, Yerin hər santimetrinə düşən yağıntıların miqdarı və buxarlanmanın nisbətinin pozulması kimi amillər iqlim dəyişikliyini yaradan amillərdəndir.

İqlim dəyişmələrinin əsrlər əvvəl olduğu kimi, indi də baş verdiyini diqqətə çatdıran alim əlavə edib: "Məsələn, bu il Pakistanda güclü daşqınlar baş verdi və bu daşqınlar fəlakətlərə səbəb oldu. Azərbaycanda da daşqınlar oldu. Bu daşqınlar sübut etdi ki, vaxtilə bu çayların yatağı olub".

Onun sözlərinə görə, bəzi ölkələr var ki, iqlim dəyişikliyi ilə mübarizədə fəallıq nümayiş etdirirlər. İqtisadi cəhətdən inkişaf etmiş ölkələr isə bundan narahatdırlar və onların sayı getdikcə artmaqdadır. "Arzu edirik ki, COP29 uğurla keçsin və gözlədiyimizdən də səmərəli nəticələri olsun. Bir azərbaycanlı kimi, belə mötəbər tədbirin ölkəmizdə keçirilməsindən qürur duyuruq", - deyə Ənvər Əliyev fikirlərini yekunlaşdırıb.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Fransızlar prezidentin seçkilərə məhəl qoymadığını düşünürlər

**Fransa vətəndaşlarının 70 faizindən çoxu hesab edir ki, ölkə prezidenti Emmanuel Makron Mişel Barnyeni baş nazir təyin etməklə parlament seçkilərinin nəticələrinə məhəl qoymayıb. Bunu Elabe sosioloji təşkilatının BFMTV telekanalı üçün keçirdiyi sorğu göstərib.**



Telekanal xəbər verir ki, dörd fransalıdan üçünün fikrincə (74%), Emmanuel Makron parlament seçkilərinin nəticələrini nəzərə almayaraq Mişel Barnyeni baş nazir təyin edib.

Respondentlərin 50 faizi həm də hesab edir ki, yeni hökumət başçısı etimadsızlıq votumundan qaça bilməyəcək.

Sorğu sentyabrın 5-6-da yaşı 18-dən yuxarı olan 1007 fransız arasında reprezentativ seçmə nümunəsi üzərində aparılıb. Növbədənkənar parlament seçkilərinin bitməsindən 60 gün sonra, sentyabrın 5-də Makron 73 yaşlı Barnyeni yeni hökumət başçısı təyin edib. O, Beşinci Respublikanın ən gənc baş naziri, 35 yaşlı Qabriel Attalı əvəz edən, bu vəzifədə ən yaşlı siyasətçidir.

Barnye qapalı və mühafizəkar siyasətçi kimi tanınır və bəzən hətta ifrat sağçı baxışların tərəfdarı hesab edilir. O, dəfələrlə Avropaya miqrasiyanın məhdudlaşdırılmasının tərəfdarı olub və hətta sığınacaq axtaran bütün miqrantlar üçün Aİ-yə girişə üç ildən beş ilədək moratorium qoyulmasını təklif edib. Barnye pensiya yaşının qaldırılmasının və iş gününün uzadılmasının tərəfdarı olub.

2021-ci ildə o, 2022-ci il seçkilərində prezidentliyə namizədliyini irəli sürmək niyyətində olduğunu açıqlasa da, Respublikaçılar Partiyası Konqresinin nəticələrinə görə, Erik Syotti və Valeri Pekresdən sonra yalnız üçüncü olub.

Mişel Barnyer baş nazir kimi ilk çıxışında Fransa cəmiyyətindəki narazılığı aradan qaldıracağına söz verib. Sələfi Qabriel Attalın səlahiyyətlərinin qəbulu mərasimində çıxış edən yeni hökumət başçısı bildirib ki, onun işinin prioriteti fransız seçicilərinin narazılığına səbəb olan problemlərin həllidir: "Məqsəd çağırışlara, qəzəblərə, iztirablara, tərk edilmə hissinə, şəhər və kəndlərimizdə həddindən artıq çox olan ədalətsizliyə tam cavab verməkdir".

Fransada hazırkı Milli Assambleya üç bloka bölünüb: parlamentin aşağı palatasında ən çox yerə sahib olan, lakin mütləq çoxluğa malik olmayan solçu Yeni Xalq Cəbhəsi (NFP) koalisiyası, Makronun mərkəzçi qrupu və ifrat sağçı "Milli Birlik" Partiyası.

Həm solçular, həm də millətçilər Barnyenin təyinatından narazıdırlar.

Politoloq Dominik Mouazi deyir ki, Mişel Barnyenin baş nazir olması ilə prezident, şübhəsiz ki, hakimiyyətini saxlamağa çalışır. Yeni baş nazir ona meydan oxumur. Onun siyasətinin həddindən artıq mülayimliyi və çıxışlarının barışdırıcı olması prezidentə sərf edir, lakin bu, solçulara səs verən və özünü satılmış hiss edən fransızları qane edə bilməz.

İndi Barnye Milli Assambleyada etimad səsverməsini keçməlidir. Əgər o bundan keçərsə, ondan sonra parçalanmış parlamentlə işləməli olacaq.

Fransa hökumət xərclərinin azaldılması ilə bağlı təkliflərini sentyabrın 20-dək Brüsselə təqdim etməlidir. Lakin bu müddət oktyabr ayına qədər uzadıla bilər. Aİ qaydalarına görə, ölkə 2025-ci ildə büdcəsini 30 milyard avro azaltmalıdır.

Qanun layihəsi oktyabrın 1-də parlamentə təqdim edilməlidir.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

## Fransa Makrona qarşı ayağa qalxdı

### Jan-Lük MELANŞON: "Xalq üsyan edir, fasilə, barışıq olmayacaq"






Dünən Fransanın bir çox şəhər və qəsəbələrində prezident Emmanuel Makronun qərarlarına qarşı etiraz aksiyaları başlayıb. Nümayişçilərin yekdil fikrinə əsasən, ölkə lideri xalqın səsinə, seçkilərin nəticələrinə hörmət etmir.

Yerli medianın xəbərinə görə, Fransanın 150-dən çox şəhər və qəsəbəsində təşkil olunan etiraz nümayişləri "Emmanuel Makronun çevrilişi və demokratiya uğrunda yürüş" təşəbbüsü ilə Tələbə və Lisey Həmkarlar İttifaqları tərəfindən keçirilir. Solçu partiyaların rəhbərləri də nümayişçilərə qoşulublar.

BFMTV telekanalı şəhər prefekturasına istinadən xəbər verir ki, Parisdə Fransa prezidenti Emmanuel Makronun istefası tələbi ilə keçirilən nümayişdə 26 min nəfər iştirak edib.

Eyni zamanda "Yeniməz Fransa" Partiyasının parlament fraksiyasının rəhbəri Matilda Pano bildirib ki, Parisdəki etiraz aksiyasına 160 min, Fransa üzrə isə 300 min adam gəlib. Etirazçılar ölkə prezidentini "zorakı çevriliş"də və demokratiya prinsiplərini pozmaqda ittiham edirlər.

Buna səbəb Makronun növbədənkənar parlament seçkilərində qalib gələn solçu "Yeni Xalq Cəbhəsi" alyansının təklif etdiyi Lüsi Kasteni ölkənin baş naziri təyin etməkdən imtinası olub.

Aksiya iştirakçıları həm də sağ mərkəzçi Respublikaçılar Partiyasının nümayəndəsi Mişel Barnyenin bu vəzifəyə təyin olunmasından narazıdırlar, çünki bunun millətçi "Milli Birlik" Partiyasının güclənməsinə daha çox təsir edəcəyinə inanırlar. Məlumdur ki, ötən ayın sonunda "Yenilməz Fransa"nın deputatları Makronun impiçmenti barədə qətnamə irəli sürüblər. Solçular yeni baş nazir və onun hökumətinə etimadsızlıq səsverməsi keçirəcəklərini açıqlayıblar.

Fransa paytaxtından verilən məlumata görə, Parisdə Bastiliya meydanına toplaşmış nümayişçilər Nation meydanına doğru irəliləyiblər. Nümayişlərin uzunmüddətli olacağı bildirilir. "Fransız xalqı üsyan edir, onlar inqilaba başladılar", - deyən "Yenilməz Fransa" Partiyasının rəhbəri Jan-Lük Melanşon vurğulayıb ki, fasilə, barışıq olmayacaq…

Fransızları döyüş və uzunmüddətli mübarizəyə çağıran partiya lideri deyib: "Mən sizi uzunmüddətli döyüşə və mübarizəyə çağırıram. Vətəndaşlara hörmət edilməlidir".

Nümayişin təşkilatçıları olan qəzəbli tələbələr isə Makronun rəhbərliyi altında daha bir semestr keçirmək istəmədiklərini bildiriblər.

Nümayişçilər əllərində "İstefa, ya da inqilab", "Makron, istefa", "Qərb diktaturasına STOP", "Makrona qarşı müharibədəyik", " Makron demokratiyanı məhv edib" kimi şüarlar səsləndiriblər.

Daxili İşlər Nazirliyinin məlumatına görə, ölkə üzrə nümayişçilərin sayı 110 min nəfər təşkil edib.

*R. HİLALOĞLU,*
*"Azərbaycan"*

## Pavel Durov ittiham aktından sonra "Teleqram"ı Fransadan çıxarmaqla hədələyir

"Teleqram"ın qurucusu Pavel Durov Fransada saxlanıldıqdan və ittiham olunduqdan sonra mesajlaşmaları silməyi düşündüyünü söyləyib.

"Teleqram"da yayımlanan mesajda P.Durov Fransanın onun şəxsiyyətinə və sosial şəbəkəyə qarşı səsləndirdiyi ittihamlardan narazılığını bildirib. O, xüsusilə cinayət məzmununun yayılmasına qarşı tədbir görməməsi ilə bağlı qınaqlara etiraz edir.

Beləliklə, fransalı və rusiyalı milyarder Fransa ərazisindən bu applikasiyanı geri götürəcəyi ilə hədələyərək deyib: "Bizim prinsiplərimizə uyğun gəlməyən bazarları tərk etməyə hazırıq". Həmçinin "Teleqram"ın lideri etiraf edib ki, "Teleqram" istifadəçilərinin ani artımı - 950 milyona çatması cinayətkarların platformadan sui-istifadə etməsinin asanlaşmasına səbəb olub və bu da, çətinlikləri artırıb". P.Durov həmçinin bu mövzuda işləri yaxşılaşdırmaq arzusunu ifadə edib.




Xatırladaq ki, "Teleqram" messencerinin təsisçisi avqustun 24-də Parisin Le Burje Hava Limanında həbs edilib. P.Durov Fransa hakimiyyətinin verdiyi axtarış qərarına əsasən həbs edilib. Gəldikdən sonra o, polis nəzarətinə götürülməzdən əvvəl axşam Parisdə şam yeməyinə getməli idi. P.Durov avqustun 28-də "Teleqram" platformasında mütəşəkkil cinayətkarlıqla əlaqəli bir sıra cinayətlərə görə, xüsusən də məhkəmə dinləmələri üçün zəruri olan məlumatların ötürülməsindən imtina etmək, narkotiklərin qanunsuz dövriyyəsi, uşaq cinayətlərində iştirak kimi müxtəlif cinayət və qanun pozuntularında iştirak etməkdə ittiham olunub. O, "Teleqram"da cinayət və ya kriminal məzmunun yayılmasına qarşı fəaliyyətsizlikdə ittiham olunub, ancaq şirkət bunu təkzib edib.

Bildirilir ki, fransız inzibati sənədinə əsasən, Fransa hakimiyyəti "Teleqram"ın baş direktoru və onun həmtəsisçisi qardaşı Nikolaya qarşı 25 mart 2024-cü ildən axtarış qərarı verib. Məhkəmə nəzarəti altında azadlığa buraxılan "Teleqram"ın təsisçisinə qarşı ciddi öhdəliklər, o cümlədən beş milyon avroluq girov və Fransa ərazisini tərk etmək qadağası qoyulub. Fransa mətbuatı məsələyə yaxın mənbəyə istinadən onu da yazır ki, Pavel Durova qarşı Parisdə yetkinlik yaşına çatmayanlar üçün idarəyə (OfMin) həvalə edilmiş övladlarından birinə qarşı "ciddi zorakılıq" etdiyinə görə ikinci istintaq başladılıb. Hərəkətlərin onun Parisdə məktəbdə oxuyarkən yeddiyaşlı oğluna qarşı törədildiyi iddia edilir.

## Azərbaycan dünyada "təhlükəsizlik adası" adlandırılır

### "Bəs onda Fransa hansı təhlükəylə bağlı narahatlıqdan danışır?"



"Təəssüflə qeyd etmək lazımdır ki, Fransanın Azərbaycana qarşı təxribatları, qərəzli yanaşması, qarayaxma kampaniyaları hələ də davam edir. Amma Paris ölkəmizə qarşı hansı addımlar atsa da, hansı siyasət yürütsə də, Azərbaycanın qarşısında uduzur".

VI çağırış Milli Məclisin deputatı Ceyhun Məmmədov "Azərbaycan" qəzetinə açıqlamasında deyib ki, Fransa bu yanlış siyasəti ilə heç bir məqsədinə nail ola bilmir və buna görə də tez-tez qərəzli açıqlamalarının şahidi oluruq: "Niyə heç bir ölkə deyil, məhz Fransa Azərbaycana qarşı bu cür təxribat dolu addımlar atır sualına cavab tapmaq lazımdır. Bu gün Azərbaycanın İtaliya, bir çox Avropa ölkələri ilə yaxşı münasibətləri var, amma Fransa ilə əlaqələrdə gərginlik müşahidə olunur. Bunun əsas səbəbkarı Fransa, onun həyata keçirdiyi yanlış siyasətdir. Bu, yalnız qərəzdir. Əgər Fransanın bəyanatında qeyd olunduğu kimi, Azərbaycanda hər hansı təhlükə olardısa, təkcə o deyil, digər dövlətlər də vətəndaşlarına xəbərdarlıq edərdilər. Bunu yalnız Fransa edirsə, bu, onun Azərbaycana qarşı təxribatının növbəti təzahürüdür", - deyə müsahibimiz əlavə edib.

C.Məmmədov qeyd edib ki, Azərbaycan əksər ölkələrlə yaxşı əlaqələrə malikdir, amma özünü Fransa prezidentindən daha çox Ermənistan prezidenti kimi aparan Makronun siyasəti nəticəsində hazırda bu iki ölkənin münasibətləri ən kritik, mürəkkəb dövrünə yetişib. Fransa Azərbaycana qarşı qərəzlərinə son qoymalı və normal münasibətlərin yaranması üçün real addımlar atmalıdır. Təəssüf ki, Parisin siyasətində hələlik bunu görə bilmirik.

O vurğulayıb ki, bu gün Azərbaycanda hansısa təhlükədən söhbət gedə bilməz: "Ölkəmiz dünyada "təhlükəsizlik adası"dır. Dünya dövlətləri Azərbaycanda təhlükəsizliyin ən yüksək səviyyədə olmasından bəhs edirlər. Belə olan halda Fransa hansı təhlükəylə bağlı narahatlığını ifadə edir? Bu, çoxlu suallar doğurur. Fransa Azərbaycana qarşı siyasətini dəyişməli, təxribatlara son qoymalı, düzgün, ədalətli siyasət həyata keçirməlidir. Paris yalnız siyasətini dəyişəndən sonra münasibətlərdə irəliləyiş gözlənilə bilər".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Türkiyəli ekspert: "Terrorçuların Ermənistana maneəsiz gəlməsi regional proseslər kontekstində bir çağırışdır"

"ABŞ-də Türkiyə və Azərbaycanın diplomatik missiyalarına qarşı hücumlar hazırlayan erməniəsilli Aram Brensonun ətrafında baş verən hadisələr 1982-ci il yanvarın 28-də Los-Ancelesdə baş konsul Kemal Arıkanı qətlə yetirən digər erməni terrorçusu Ambik Sasunyanın cinayət əməlini xatırladır. Sasunyan da Brenson kimi 2021-ci ildə hər hansı maneə olmadan Birləşmiş Ştatları tərk edərək Ermənistana gəlmişdi".



AZƏRTAC xəbər verir ki, bu fikri Ankaradakı Avrasiya Araşdırmalar Mərkəzinin eksperti Hazel Çağan Elbir ifadə edib. Onun sözlərinə görə, ABŞ Federal Təhlükəsizlik Bürosunun və prokurorluğun Brensonla bağlı mövqeyində çoxlu ziddiyyətlər var. Belə ki, Çikaqo Universitetinin yataqxanasında 2023-cü il yanvarın 2-də baş vermiş partlayışdan dərhal sonra hüquq-mühafizə orqanlarının bu terrorçunu həbs etməməsi suallar doğurur.

Türkiyəli ekspert deyib: "İstintaq orqanları potensial terrorçunun ifadəsinə inanmağa üstünlük verib, hərçənd Brensona qarşı irəli sürülən ittihamların hər bəndi azı beş il müddətinə azadlıqdan məhrumetmə və 250 min dollara qədər çərimə cəzasını nəzərdə tutur".

Onun sözlərinə görə, istintaqın əlində olan dəlillər Türkiyə və Azərbaycana qarşı terror aktları hazırlamaq planlarını açıq şəkildə təsdiqləyir. Bu cinayət əməli Brenson özündən asılı olmayan şəraitə görə həyata keçirə bilməyib. Nəticədə potensial terrorçuya sakitcə ABŞ-ni tərk edərək Ermənistana qaçmağa icazə verilib.

Ekspert qeyd edib ki, prokurorluğun mövqeyi çox məyusedicidir, burada Brensonun terror fəaliyyətini təsdiqləyən aşkar arqumentlərin olmasına baxmayaraq, ona qarşı yalnız "yalan ifadə vermə" və "partlayıcı maddə hazırlamağa cəhd" maddələri ilə ittiham irəli sürülüb.

Bütün bunlar Aram Brensonun kompüterində terror təşkilatının yaradılması və hücumların planlaşdırılması üzrə təlimat verdiyi 10-a qədər videonun tapılmasına baxmayaraq baş verib. Videoda terrorçu hücumları maliyyələşdirmək üçün narkotikdən əldə edilən gəlirlərdən və banditizmdən istifadə etməyi təklif edir.

Eyni zamanda o, terror fəaliyyəti ilə bağlı məlumatları yalnız erməni dilində paylaşmağa çağırır ki, bu da istintaq orqanlarının işini çətinləşdirəcək.

Ekspert qeyd edir ki, bununla yanaşı, agent Tomas M.Dalton tərəfindən hazırlanan ittiham aktında Brensona münasibətdə "Azərbaycanın mübahisəli torpaqları" ifadəsi yer alır, baxmayaraq ki, 44 günlük müharibənin nəticələri Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bərpa etməyə imkan verdi.

Onun sözlərinə görə, ittiham aktının müəllifinin Cənubi Qafqaz reallıqları və erməni tərəfinin terminologiyasından açıq-aşkar məlumatsız olduğu anlaşılır.

"İrəvanın Ankara və Bakı ilə münasibətlərinin normallaşdırılması yolları ilə bağlı müzakirələr fonunda terrorçuların Ermənistanda maneəsiz mövcudluğu faktı bir çox suallar doğurur və regional proseslər kontekstində bir çağırışdır", - deyə AVİM mərkəzinin eksperti vurğulayır.

## Fransa Ukraynaya dəstək üçün Rusiyanın 1,4 milyard avro vəsaitini müsadirə edir

Fransa Ukraynaya dəstək üçün 1,4 milyard avroluq Rusiya aktivlərini müsadirə edəcəyini bildirib. Silahlı Qüvvələr Nazirliyinin mətbuata açıqlamasında Fransanın digər üzv dövlətlərlə birlikdə Avropa Sülh Mexanizmini (FEP) dəstəkləyən yeni tədbirində iştirak edəcəyi yazılıb.



Nazirlik bu təşəbbüslə Rusiyanın immobilizasiya edilmiş aktivlərindən 1,4 milyard avronu müsadirə edəcəyini yazıb. Bu vəsaitin Ukraynaya hərbi texnikanın alınmasına, xüsusən də sursat, artilleriya və hava hücumundan müdafiə sahələrində istifadə olunacağı qeyd edilib. Fransa Silah Baş İdarəsinin bu vəsaitlə tez bir zamanda 2024-cü il üçün 300 milyon avro dəyərində avadanlıq alacağı bildirilib.

Mətbuat açıqlanmasında qeyd edilir ki, Ukraynaya dəstək üçün Rusiya aktivlərinin müsadirə edilməsi Fransa sənayesinin yüksəlişini davam etdirmək üçün bir fürsətdir.

Xatırladaq ki, 2021-ci ildə FEP hərbi əməliyyatlar və yardım tədbirləri vasitəsilə beynəlxalq təhlükəsizliyi gücləndirmək məqsədilə yaradılıb.




# "Ansaldo Energia" Azərbaycanın ən böyük istilik-elektrik stansiyasının tikintisində iştirak edir

## İtaliyanın bu tanınmış şirkəti ölkəmizin "yaşıl enerji" layihələrinə də qoşulmaq niyyətindədir

**"Ansaldo Energia" şirkətinin adı gələndə dərhal təxminən dörd il əvvəl - 2020-ci il dekabrın ilk günləri yada düşür. 44 günlük Vətən müharibəsi zəfərlə başa çatdıqdan az sonra ölkəmizə İtaliyadan sanballı bir nümayəndə heyəti gəlmişdi. Prezident İlham Əliyevlə görüşəndən sonra italiyalı dostlarımız erməni vandallarının 30 il ərzində xaraba qoyduğu Ağdam rayonuna və 44 günlük müharibə vaxtı dinc sakinlərinə qarşı düşmənin olmazın vəhşilik törətdiyi Gəncə şəhərinə getmişdilər.**




Bundan bir neçə gün sonra isə Bakıya "Ansaldo Energia" şirkətinin nümayəndələri gəlmişdilər. "Azərenerji" ASC-də keçirilən görüşdə işğaldan azad olunmuş ərazilərdə yeni generasiya güclərinin yaradılması üçün tikiləcək kiçik su-elektrik stansiyaları layihələrinin birgə həyata keçirilməsi, həmin ərazilərdə yüksəkgərginlikli yarımstansiyaların tikintisində və avadanlıqlarla təchizatında "Ansaldo Energia" şirkətinin iştirakı da müzakirə olunmuşdu.

İndi "Ansaldo Energia" şirkətinin xoş niyyətləri daha geniş miqyasda öz bəhrəsini verir. Belə ki, şirkət ölkəmizin energetika sistemindəki fəaliyyətini getdikcə inkişaf etdirir. Dövlətimizin başçısının bu il sentyabrın 6-da Çernobbio şəhərində "Ansaldo Energia"nın baş icraçı direktoru Fabrizio Fabbri ilə görüşündə toxunulan məsələlər də bunu bir daha təsdiqləyir .

Xatırladaq ki, "Ansaldo Energia" şirkəti hazırda Mingəçevirdə Azərbaycanın ən böyük istilik-elektrik stansiyasının yenidən qurulmasında iştirak edir. Yeni tikilən 1280 meqavat gücündə stansiyada "Ansaldo Energia" tərəfindən istehsal olunan dörd ədəd qaz turbini quraşdırılmalıdır. Hazırda bu qurğular Azərbaycana gətirilərək tikintidə istifadə edilməkdədir. Layihənin bu ilin sonunda və ya gələn ilin əvvəlində yekunlaşdırılması nəzərdə tutulur.

Keçən il fevralın 13-də stansiyasının təməlqoyma mərasimində çıxış edərkən Prezident İlham Əliyev demişdir: "Əlbəttə ki, "Azərenerji" ilə İtaliyanın "Ansaldo" şirkəti arasındakı əlaqələr burada həlledici rol oynayır. Bildirməliyəm ki, "Azərenerji" ilə "Ansaldo" arasında müqavilələr İkinci Qarabağ müharibəsi başa çatandan dərhal sonra imzalanmışdır. Azad edilmiş Qarabağda və Şərqi Zəngəzurda bu gün böyük quruculuq-bərpa işləri getdiyi bir dövrdə, ilk növbədə, o bölgənin enerji potensialı araşdırılır və bu istiqamətdə də "Ansaldo" və "Azərenerji" tərəfdaşlıq çərçivəsində fəaliyyət göstərirlər. İtaliya şirkətinin bu stansiyanın inşasında iştirakı təsadüfi deyil. İtaliya bizim strateji tərəfdaşımızdır. İtaliya ilə Azərbaycan arasında strateji tərəfdaşlığa dair iki sənəd imzalanmışdır, yüksəksəviyyəli qarşılıqlı səfərlər təşkil edilmişdir. Bütövlükdə energetika sahəsində əməkdaşlıq ənənəvidir".

İtaliyanın Şirkətlər və "Made in Italy" naziri Adolfo Urso isə həmin tədbirdəki çıxışında "Azərenerji" ilə "Ansaldo" arasında qurulan tərəfdaşlığı tarixi hadisə kimi dəyərləndirmişdir. Qeyd edək ki, "Ansaldo" şirkəti İtaliya sənayesinin mühüm bir hissəsidir. 170 il əvvəl Genuya şəhərində təsis edilmiş bu müəssisə hazırda fəaliyyətini beynəlxalq səviyyədə həyata keçirir. "Ansaldo Energia"nın avadanlıqları bu gün dünyanın bir çox yerlərində istismar olunur və etibarlılığı ilə tanınır.

İstilik-elektrik stansiyasının təməlqoyma mərasimini təsadüfən xatırlatmadıq. Belə ki, məhz həmin tədbirdə İtaliya tərəfi bir daha bidirmişdi ki, ölkəmizin enerjiyə keçid prosesində, günəş və külək enerjisi layihələrində iştirak etmək istəyir. Bir neçə il əvvəl yaradılan yeni "Ansaldo Green Technologies" şirkəti də təmiz enerjiyə keçid prosesinə dəstək verəcək. Beləliklə, əməkdaşlıq imkanları daha da genişlənəcək.

Prezident İlham Əliyevin Çernobbio şəhərində "Ansaldo Energia"nın baş icraçı direktoru Fabrizio Fabbri ilə görüşündə də "Ansaldo Energia" şirkəti ilə bir sıra istiqamətlərdə, o cümlədən "yaşıl enerji" sahəsində fəaliyyətin həyata keçirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb. Qeyd olunub ki, bu şirkət Azərbaycanın enerji sisteminin təkmilləşdirilməsində iştirakda çox maraqlıdır. Bu xüsusda şirkətin "Azərenerji" ASC ilə əməkdaşlıq etmək niyyətində olduğu vurğulanıb. Azərbaycanın Energetika Nazirliyi və "Azərenerji" ASC ilə "Ansaldo Energia" şirkəti arasında əməkdaşlıq haqqında müqavilələrin imzalandığı xatırlanıb, birgə fəaliyyətin gələcəkdə də davam etdiriləcəyinə əminlik bildirilib.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# 266,6 min şəxs aktiv məşğulluq tədbirləri ilə əhatə olunub

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən yanvar-avqust aylarında 266,6 min şəxs aktiv məşğulluq tədbirləri ilə əhatə olunub.**



Onlardan 110 min nəfəri münasib işlərlə təmin edilib, 7,6 min şəxs isə kiçik ailə təsərrüfatlarını yaratmaları üçün özünüməşğulluq proqramına cəlb olunub.

Qeyd olunan dövrdə agentlik tərəfindən 11 min işsiz şəxs üçün peşə hazırlığı kursları təşkil edilib,138 min şəxsə isə peşəyönümü xidmətlər göstərilib.

# Vergi ödəyicisinin vergi borcunu ödəmə qabiliyyətinin müəyyənləşdirilməsi qaydası təsdiqlənib

**Məlum olduğu kimi, Nazirlər Kabinetinin 3 sentyabr 2024-cü il tarixli müvafiq qərarı ilə "Vergi ödəyicisinin vergi borcunu ödəmə qabiliyyətinin müəyyənləşdirilməsi Qaydası" təsdiq edilib.**

Bu Qaydalar iqtisadiyyatda stimullaşdırıcı məqsəd daşımaqla, başlıca olaraq vergi ödəyicilərinin maddi vəziyyətinin yaxşılaşdırılmasını və rəqabətədavamlı sahibkarlığın təşviqini özündə ehtiva edən mexanizmi müəyyən edir.

Təcrübədə bir sıra borclu vergi ödəyiciləri maliyyə çətinlikləri səbəbindən yaranmış borc öhdəliklərini vaxtında ödəyə bilmirlər. Bu zaman onlara müəyyən müddətdə möhlət verildiyi halda, bu onların vergi öhdəliyini yerinə yetirməsinə dəstək olur. Məhz bu cür hallarla bağlı, vergi qanunvericiliyində vergi ödəyicisinin mövcud maliyyə vəziyyətini nəzərə alaraq, müəyyən tələblər daxilində onun borcunun ödənilmə müddətinin uzadılmasını nəzərdə tutan müddəalar mövcuddur.

Belə ki, Vergi Məcəlləsinin 85.6-cı maddəsi ilə, borcun ödənilməsi müddətinin uzadılmasına əsas verən hallar müəyyən edilib ki, həmin hallardan biri də, vergi ödəyicisinin vergi borcunu birdəfəyə ödəmə qabiliyyətinin olmamasıdır. Bunun üçün də, qeyd olunan müraciətlərə baxılan zaman, vergi orqanı ilk növbədə, borclunun mövcud ödəmə qabiliyyətinin olub-olmamasını dəqiq müəyyən edə bilməlidir.

Məhz bu səbəbdən qanunun verdiyi bu imkandan real maliyyə çətinliyi yaşayan borcluların yararlanması, həmçinin bu sahədə sui-istifadə hallarının qarşısının alınması üçün vahid mexanizmin təsdiq olunmasına zərurət var idi. Nazirlər Kabinetinin müvafiq qərarı bu prosesi tənzimləyəcək.

# Qətər "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinə maraq göstərir

**Qətər "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinə maraq göstərir. Trend xəbər verir ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin İqtisadi Əməkdaşlıq Departamentinin direktoru Dmitri Biriçevski "İzvestiya" nəşrinə müsahibəsində deyib.**

"Şimal-Cənub" dəhlizi nəqliyyat və logistika sektorunda fokus fenomenə çevrilib. İndi orada aktivlik nəzərəçarpacaq dərəcədə artıb. Bu, təkcə şimaldan cənuba hansısa dəhliz deyil, bu, bütöv bir marşrut şəbəkəsidir: indi Azərbaycan və İranla birlikdə inkişaf etdirdiyimiz qərb marşrutu həm də Qazaxıstan, Türkmənistan, İranla bağlı olan şərq qoludur.

Bütün bunlar Rusiyadan Cənub ölkələrinə malların çatdırılması üçün etibarlı marşrutların olması üçün edilir. İlk növbədə İranın cənubuna, oradan Hind okeanına çıxışı olan Fars körfəzinə qədər, dünyanın qalan hissəsi ilə Avropadan olan keçmiş tərəfdaşlarımızın və ya ABŞ-dən olan opponentlərimizin verə biləcəyi siyasi qərarlardan asılı olmayaraq ticarət edə bilək.

Qətər "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinə maraq göstərir. Hansı formada və necə qoşula biləcəkləri öz ixtiyarındadır. Əgər onun daşınması üçün yol və siyasi iradə varsa və bunun sərfəli olduğuna əminiksə, o zaman Yaxın Şərqin istənilən ölkəsi ilə əməkdaşlıq ola bilər", - deyə o bildirib.

# Naxçıvanda ilk dəfə "Sığorta" Festivalı keçirilib

**Azərbaycan Respublikasının Mərkəzi Bankı, Azərbaycan Sığortaçılar Assosiasiyası və İcbari Sığorta Bürosunun birgə əməkdaşlığı çərçivəsində Naxçıvanda ilk dəfə "Sığorta" Festivalı keçirilib.**



"Həyat sığorta ilə rahat" devizi altında təşkil olunan festivalda layihənin əhəmiyyəti, festivalda iştirak edən sığorta şirkətləri barədə məlumat verilib. AZƏRTAC xəbər verir ki, Naxçıvan Dövlət Milli Dram Teatrının qarşısında keçirilən festivalda Naxçıvan şəhər sakinləri və qonaqlar üçün hazırlanan proqram maarifləndirici və əyləncəli anlarla zəngin olub. Festival ərzində iştirakçılar "Ada Band" rok-pop qrupunun enerjili musiqiləri ilə rəqs edərək, əsl bayram əhvali-ruhiyyəsi yaşayıb, eyni zamanda sığorta növləri ilə bağlı səsləndirilən suallara cavab verməklə sürpriz hədiyyələr qazanıblar.

Qeyd edək ki, "Sığorta Festivalı" ölkənin aparıcı sığorta şirkətlərini bir araya gətirərək, müxtəlif sığorta məhsulları haqqında əhalini maarifləndirməyi hədəfləyir.

# Azərbaycan neftinin qiyməti 76 dollara qədər ucuzlaşıb

**AZƏRTAC xəbər verir ki, "Azeri Light" markalı neftin bir barelinin qiyməti 1,69 dollar və ya 2,16 faiz azalaraq 76,64 dollar olub.**

Qeyd edək ki, "Azeri Light" neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb.

# İşğaldan azad edilmiş ərazilərdə güclü sənaye potensialı yaradılır

## Keçən il Qarabağ və Şərqi Zəngəzurdakı sənaye müəssisələrində 300 milyon manatlığa yaxın məhsul istehsal edilib

**Azərbaycanda qəbul edilən qərarların çevik yerinə yetirilməsi dünyada qəbul olunmuş reallıqdır. Bu reallıq nəhəng neft-qaz kəmərlərinin, Bakı-Tbilisi-Qars magistral dəmir yolu xəttinin və digər qlobal layihələrin vaxtında və yüksək səviyyədə həyata keçirilməsi ilə sübut olunub.**

Azərbaycanın 44 günlük Vətən müharibəsində torpaqlarımızı dünya hərb tarixində görünməmiş sürətlə və qısa zamanda işğaldan azad etməsi də dünyanın şahidlik etdiyi gerçəklikdir. İndi də dosta və düşmənə yerlə yeksan edilmiş ərazilərin necə sürətlə bərpa olunmasını nümayiş etdiririk. Füzuli Beynəlxalq Hava Limanı kimi nəhəng obyektin cəmi 8 ay ərzində istifadəyə verilməsi sıradan fakt deyil, dostları sevindirən, düşmənləri üzən reallıqdır.

Belə reallıqlardan biri də Qarabağ və Şərqi Zəngəzurda sənaye müəssisələrinin yaradılmasıdır. Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən il Azərbaycanın işğaldan azad edilmiş ərazilərində 142 sənaye müəssisəsi fəaliyyət göstərib ki, bu da 2022-ci illə müqayisədə 25,7 faiz çoxdur. Məlumatda həmçinin qeyd edilir ki, bu müəssisələrin 82,4 faizi Qarabağ, 17,6 faizi Şərqi Zəngəzur iqtisadi rayonlarının payına düşüb.

Həmin dövr işğaldan azad edilmiş ərazilərdə sənaye fəaliyyəti ilə məşğul olmaq üçün müraciət edib qeydə alınan fərdi sahibkarların sayı 13,1 faiz artaraq 1218-ə, o cümlədən Qarabağ iqtisadi rayonunda fəaliyyət göstərmək istəyən fərdi sahibkarların sayı 11,6 faiz artaraq 1070-ə, Şərqi Zəngəzur iqtisadi rayonunda isə 25,4 faiz artaraq 148-ə çatıb. Keçən il işğaldan azad edilmiş ərazilərdə istehsal edilmiş sənaye məhsullarının dəyəri də artaraq 298,679 milyon manat olub.

İşğaldan azad edilən ərazilərdə yeni müəssisələrin açılması əhalinin məşğulluğuna imkan yaradır. Təkcə cari ilin birinci yarımilində işğaldan azad edilmiş rayonlarda 840 yeni iş yeri açılıb və bu, keçən ilin müvafiq dövrü ilə müqayisədə 42 faiz çoxdur. Yanvar-iyun ayları ərzində ən çox yeni iş yeri Laçın və Şuşada yaradılıb - Laçında 299, Şuşada 232 yeni iş yeri açılıb.

DSK-nın məlumatında həmçinin bildirilir ki, azad edilmiş rayonlarda qeyd edilən müddətdə 159 yeni müəssisə və təşkilat, 1726 yeni fərdi sahibkarlıq subyekti dövlət qeydiyyatından keçib. Ötən ilin müvafiq dövrü ilə müqayisədə yeni yaradılmış müəssisə və təşkilatların sayı 90, fərdi sahibkarların sayı 488 vahid artıb.



Məlum olduğu kimi, Qarabağın bərpası, dirçəldilməsi və sənaye potensialının inkişafı məqsədi ilə dövlət başçısının 2021-ci il 28 may tarixli fərmanı ilə 190 hektar ərazidə Ağdam Sənaye Parkı, 2021-ci il 4 oktyabr fərmanına əsasən isə Cəbrayıl rayonunda 200 hektar ərazidə "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı yaradılıb. Ağdam Sənaye Parkının prioritet istiqamətləri kimi tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservləri, ət və süd məhsulları, yem, gübrə istehsalı və emalı, eyni zamanda, xidmət sahələri, soyuducu kameralar və s. xidmətlərdir. "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında isə logistika və ticarət mərkəzi, anbar kompleksləri, topdan və pərakəndə satış obyektləri, TIR parkı, gömrük, yanacaqdoldurma, avtomobil və digər texnikaların təmiri məntəqələrinin yaradılması planlaşdırılır.

İndiyədək Ağdam Sənaye Parkının 17 rezidenti və 5 qeyri-rezidenti qeydiyyatdan keçib. Sərmayədarlar tərəfindən sənaye parkına 161 milyon manatdan çox investisiyanın qoyulması, 1400-dən artıq daimi iş yerinin yaradılması proqnozlaşdırılır. Artıq parkda məhsul istehsalına başlanılıb. Qeyri-rezident "Yüksəl Beton" QSC tərəfindən sənaye parkının ərazisində tikilən beton istehsalı müəssisəsi topdan və pərakəndə satışla məşğuldur. Parkın digər rezidentlərindən bir çoxu da tikinti işlərinə başlayıb. Bəziləri isə layihələndirmə işləri görür. Tezliklə onlar da tikinti işlərinə start verəcəklər.

Sənaye parkında rezidentlərin rahat fəaliyyət göstərmələri üçün dövlət tərəfindən hər cür şərait yaradılır. Sahibkarlar dövlət vəsaiti hesabına zəruri infrastrukturla təmin edilir. Parkda indiyədək yataqxana, yeməkxana, anbar, market, camaşırxana, tibb məntəqəsi, "paypoint" ödəniş məntəqəsi, bankomat və idman zonasından ibarət sosial zona və mobilizasiya şəhərciyinin qurulması işləri tamamlanıb, transformator məntəqəsi quraşdırılıb.

200 hektar ərazini əhatə edən "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının hələlik 5 rezidenti və 1 qeyri-rezidenti qeydiyyatdan keçib. İnvestorlar tərəfindən ümumi olaraq sənaye parkına 32 milyon manatdan çox investisiyanın yatırılması, 400-dən artıq iş yerinin yaradılması nəzərdə tutulub. Bu parkda da işçilərin və sahibkarların rahatlığının təmin edilməsi üçün mobil şəhərcik salınıb. Şəhərcikdə yataqxana, yeməkxana, tibb məntəqəsi və aptek, market, anbar, camaşırxana, nəzarət buraxılış məntəqəsi quraşdırılıb, əraziyə asfalt yol çəkilib. Sənaye Parkının ərazisində tikinti aparılacaq sahənin su ilə təmin edilməsi məqsədi ilə subartezian quyusu qazılıb. Ərazidə 630 kilovoltluq transformator məntəqəsi quraşdırılıb.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***





# Mədəniyyət





● Dövlət siyasəti

# Azərbaycan mədəniyyəti və elminin tərəqqisində Naxçıvanın özünəməxsus rolu var

***Öz keşməkeşli tarixi, dahi şəxsiyyətləri ilə Şərqdə tanınan, dünyanın yaranışı qədər yaşı olan Naxçıvan torpağı əsrlərin sınağına sinə gərərək dövrümüzə qədər öz əzəmətini, vüqarını qorumuş, türk torpağı olduğunu hifz eyləyə bilmişdir. Bu torpağın həm öz sinələrini yağıya sipər edib Əlincələşən, həm qanı axıb Araza çevrilən, həm də vətənin bir qarış torpağı uğrunda canından keçən övladları dar gündə daşa çevrilib, şad gündə gülə dönüb vətənin sinəsində əbədiləşiblər.***






Azərbaycanın qədim, zəngin tarixə, mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Naxçıvan diyarı mürəkkəb və çətin inkişaf yolu keçmiş, orta əsrlərdə Şərqin böyük elm, mədəniyyət, ticarət və sənətkarlıq mərkəzlərindən biri kimi şöhrət qazanmış, dövlət sivilizasiyasına dəyərli töhfələr bəxş etmişdir. Azərbaycan Atabəyləri-Eldəgəzlər dövlətinin paytaxtı olan, əsası Əcəmi Naxçıvani tərəfindən qoyulan memarlıq məktəbi ilə bütün Şərqdə tanınan və böyük səylə, yüksək bacarıqla, əsrarəngiz zövqlə inşa edilmiş tarixi abidələri ilə məşhur olan Naxçıvan torpağı bu gün də öz tarixiliyini, gözəlliyini qoruyub saxlayır və dünyanın ən əzəmətli, qədim diyarı kimi bura gələn insanları, qonaqları heyran qoyur.

Uzun illər gərgin siyasi mübarizələrin meydanına çevrilən qədim Naxçıvanın muxtariyyətinin əsasları 16 mart 1921-ci il Moskva və 13 oktyabr 1921-ci il Qars müqavilələri ilə qoyulmuşdur. Həmin beynəlxalq müqavilələrdə Naxçıvanın Azərbaycanın tərkib hissəsi olması bir daha bəyan edilərək ərazi hüdudları dəqiqləşdirilmişdir.

Azərbaycanın Şərqə açılan qapısı olmaqla zəngin dövlətçilik tarixinə malik Naxçıvan Muxtar Respublikası 9 fevral 1924-cü ildə yaradılmış və milli, qədim ənənələri qoruyub saxlamışdır.

Qədim mədəniyyəti, bərəkətli sərvəti, dahi şəxsiyyətləri ilə Azərbaycan Respublikasında xüsusi yeri olan Naxçıvan Muxtar Respublikası bu gün istər iqtisadi-siyasi, istərsə də elm və mədəniyyət sahəsində tərəqqinin ən yüksək pilləsində dayanır. 1883-cü ildən fəaliyyət göstərən Naxçıvan teatrı Azərbaycan teatr mədəniyyətinə böyük töhfələr bəxş etmişdir. Şərqdə ilk akademiyanı və rəsədxananı yaratmış Nəsirəddin Tusi, qüdrətli yazıçı və ictimai xadim Cəlil Məmmədquluzadə, Azərbaycan realist rəssamlıq məktəbinin banisi Bəhruz Kəngərli, ilk tarixi romanların müəllifi Məmməd Səid Ordubadi, böyük maarifçi və ədib Məhəmməd Tağı Sidqi, romantizm ədəbi cərəyanının görkəmli nümayəndəsi Hüseyn Cavid, dünyaca məşhur kimyaçı alim, akademik Yusif Məmmədəliyev, görkəmli publisist, dilçi-alim Məhəmməd ağa Şahtaxtlı, Xalq şairi Məmməd Araz, Xalq yazıçısı Hüseyn İbrahimov bu diyarın yetirmələridir. Cəlil Məmmədquluzadənin, Hüseyn Cavidin, Məmməd Səid Ordubadinin, akademik Yusif Məmmədəliyevin ev muzeyləri, ədəbiyyat, tarix və xalça muzeyləri Naxçıvanın mədəni həyatında mühüm yer tutur.

Naxçıvan Muxtar Respublikası Azərbaycanın əsas elm, mədəniyyət, təhsil və ictimai fikir mərkəzlərindən biri sayılır. Azərbaycan Milli Elmlər Akademiyasının prezidentləri, görkəmli kimyaçı alim Yusif Məmmədəliyev, yarımkeçiricilər fizikası məktəbinin yaradıcısı Həsən Abdullayev, məşhur riyaziyyatçı Fərəməz Maqsudov, informatika-radiasiya üzrə dünyada tanınan elm xadimi, professor Mahmud Kərimov, akademik Məmməd Cəfər Cəfərov, professor Abbas Zamanov, akademik Teymur Kərimli və onlarla başqa görkəmli elm xadimləri Azərbaycan elminə, təhsilinə, ictimai fikrinin inkişafına yeni səhifələr yazmış, öz elmi potensialları və bacarıqları ilə Naxçıvanı tək Azərbaycanda deyil, bütün dunyada tanıtmışlar. Bunlardan biri də yüksək istedad və bacarığı ilə Azərbaycan poeziyasına dəyərli sənət inciləri bəxş edən görkəmli şair Məmməd Arazdır. Şairin Naxçıvanın tarixindən, əsrarəngiz təbiətindən, təbii sərvətlərindən bəhs edən "Naxçıvanım mənim" adlı şeiri bizim üçün ana laylası qədər şirin, doğma və əzizdir.

Tarixə nəzər salsaq görərik ki, böyük tarixi hadisələrin, keşməkeşli günlərin şahidi olan qədim diyarımız həmişə olduğu kimi, son illərdə də bütün çətinliklərə sinə gərərək düşmənlərin caynağından, hərisli yağı gözlərindən, məkrli əllərdən özünü qoruya bildi. Belə bir ağır şəraitdə Naxçıvan əhalisi böyük mərdlik, şücaət və yenilməzlik nümayiş etdirərək, Azərbaycanın bu qədim diyarını düşməndən - mənfur erməni təcavüzkarlarından öz canları bahasına qorudu və qoruyur.

Xalqımızın böyük oğlu, Ümummilli Lider Heydər Əliyevin 1990-cı ilin iyul ayının 22-də canından çox sevdiyi Naxçıvanına dönməsi, doğma el-obasına qayıtması çətin günlərini yaşayan Naxçıvanı dirçəltdi, insanlarda sabaha, gələcəyə böyük inam hissi yaratdı. Bu illər Naxçıvan Azərbaycanda gedən siyasi proseslərə, o cümlədən milli azadlıq mübarizəsinə böyük təkan verdi. Müstəqilliyimizin möhkəmləndirilməsinə, dövlətimizin gücləndirilməsinə və tərəqqisinə, ərazilərimizin azad olunmasına Naxçıvandan başlanan böyük siyasi dalğanın təkanı daha təsirli oldu. Bunu xalqımızın Ümummilli Lideri Heydər Əliyevin dərin, məzmunlu nitqində də görmək mümkündür: "Naxçıvan Muxtar Respublikası Azərbaycanın ayrılmaz bir hissəsi kimi milli azadlıq uğrunda, dövlət müstəqilliyimiz uğrunda gedən mübarizələrdə həmişə ön sırada, təşəbbüskar olmuşdur. Azərbaycanda dövlət müstəqilliyi, milli azadlıq yolunda gedən mübarizənin dayağı olmuşdur və bu gün də dayağıdır, gələcəkdə də belə olacaqdır".

Bu gün Naxçıvan Muxtar Respublikası özünün ən yaddaqalan günlərini yaşayır. Muxtar diyarımız xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əsasını qoyduğu müqəddəs vəzifələrin yerinə yetirilməsi ilə daha da çiçəklənir, möhkəmlənir və inkişaf, tərəqqi yolunda inamlı addımlar atır. Ulu Öndərin yaradıb, xalqımıza ərmağan etdiyi siyasi kursun, milli ideologiyanın qarşıya qoyduğu vəzifələri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev uğurla davam etdirir.

Naxçıvanda tarixi və mədəni irsin qorunması və təbliği, mədəni-elmi potensialın inkişaf etdirilməsi diqqət mərkəzində saxlanılmış, mədəniyyət obyektlərinin inşası və yenidən qurulması davamlı hal almışdır. Azərbaycan mədəniyyətinə və elminə əsrarəngiz töhfələr bəxş etmiş naxçıvanlı alimlərin, şair və yazıçıların, görkəmli mədəniyyət xadimlərinin adları əbədiləşdirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Naxçıvanda səfərdə olarkən muxtar respublikada bütün sahələrdə irəliləyən tərəqqini və inkişafı yüksək qiymətləndirərək demişdir: "...Naxçıvanın türk dünyasında çox böyük xüsusi yeri vardır. Naxçıvan çox böyük tarixə malik olan diyardır. Naxçıvanın strateji əhəmiyyəti, tarixi, mədəniyyəti, tarixi abidələri, bizim böyük dəyərlərimizdir, böyük sərvətimizdir. O da həqiqətdir ki, Azərbaycanın müstəqilliyinin formalaşması, müstəqilliyinin bünövrəsinin qoyulması da məhz Naxçıvanda həyata keçirilmişdir. O vaxt, hələ Sovet İttifaqının zamanında Heydər Əliyevin fəaliyyəti nəticəsində Naxçıvanda, burada görülən işlər bütövlükdə Azərbaycanın müstəqilliyi üçün çox böyük əhəmiyyət daşıyırdı..."

2020-ci ildə 44 günlük Vətən müharibəsində tarixi ədalətin bərpa olunmasında və 2023-cü il sentyabrın 19-20-si tarixlərində Qarabağda həyata keçirilən lokal xarakterli antiterror tədbirlərində də Naxçıvanın vətənpərvər, igid övladları digər qəhrəman soydaşlarımız kimi, şanlı Zəfər salnaməmizə parlaq səhifələr yazmışlar. Onların şücaəti, qəhrəmanlığı kiçikdən-böyüyə hər bir kəsin dilində dastana dönmüş, məzarları isə bütün azərbaycanlılar, o cümlədən naxçıvanlılar üçün and yerinə, ziyarətgaha çevrilmişdir.

Şanlı Zəfərdən sonra 2021-ci il mayın 10-da Naxçıvan Muxtar Respublikasına səfəri ilə bağlı təəssüratlarını bölüşən dövlətimizin başçısı İlham Əliyev demişdir: "Təəssüratlarım çox müsbətdir. Hər zaman Naxçıvanda olanda, buradakı inkişafı görəndə çox sevinirəm. Bu mənim Naxçıvana 15-ci səfərimdir və hər səfər çərçivəsində bir çox obyektlərin açılışında iştirak edirəm. Naxçıvan sürətlə inkişaf edir... Bir sözlə, muxtar respublika hərtərəfli inkişaf edir və bu gün Naxçıvan ölkəmizin ən inkişaf etmiş bölgələrindən biridir. Əminəm ki, Naxçıvan bu liderliyi bundan sonra da saxlayacaqdır".

Muxtar respublikaya səfərlərindən sonra dövlət başçısı qədim Naxçıvanın sosial-iqtisadi və mədəni inkişafının sürətləndirilməsinə dair müxtəlif sərəncamlar, dövlət proqramları imzalayıb. Ölkə rəhbərinin "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" və 2023-cü il 30 dekabr tarixli "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncamı qədim Naxçıvanın zəngin dövlətçilik tariximizdə, ölkəmizin inkişafında mühüm yer tutduğunun bariz göstəricisidir.

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan müasir müstəqil Azərbaycan Respublikası və onun ayrılmaz parçası olan Naxçıvan daim siyasi-iqtisadi və mədəni proseslərdə öndə olacaq. Elm, təhsil, idman, iqtisadi, siyasi, mədəni, demək olar ki, bütün sahələrdə davamlı nailiyyətlər qazanılacaq.

***Samirə HƏSƏNOVA,***
***filologiya üzrə fəlsəfə doktoru***

# Azərbaycan Türk Dünyası Sənədli Film Festivalında iştirak edəcək

Bu il Türkiyədə "Məzlumlara azadlıq" devizi ilə keçiriləcək IX Türk Dünyası Sənədli Film Festivalına türk dövlətlərindən 300 müraciət daxil olub.




AZƏRTAC təşkilatçıların açıqlamasına istinadla xəbər verir ki, "Türkiyə mədəniyyəti və Türkiyənin dünyaya baxışı" mövzusunda festival Türk Dünyası Jurnalistlər Federasiyasının rəhbərliyi və Mədəniyyət və Turizm Nazirliyi, TÜRKSOY Baş Kino İdarəsi və Türk Dünyası Bələdiyyələr Birliyi, TİKA, YTB, həmçinin universitetlər, peşə, qeyri-hökumət və media qurumlarının layihə tərəfdaşlığı ilə keçiriləcək. Onların arasında Azərbaycan Mətbuat Şurası, Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti yer alıb.

Festivalın direktoru Menderes Dəmir deyib: "Türkiyə mədəniyyəti dünyanın ən qədim və ən geniş yayılmış mədəni irslərindən biridir. Onun gələcək nəsillərə ötürülməsi və bu irsin qorunub saxlanması bizim əsas vəzifələrimizdən biridir. Türk mədəniyyətinin peşəkarlar və gənc nəsillər tərəfindən sənədləşdirildiyini təsdiq etmək dəyişən dünyada öz izini buraxmaq üçün vacibdir. Bu məqsədlə biz Türk dünyası sənədli film festivalları və müsabiqələri keçiririk".

# Milli Xalça Muzeyinin Şuşa filialı iki yeni sənətkarlıq nümunəsi ilə zənginləşib

Şuşa sakini Sahib Həsənov nənəsi ilə anasının 1959-cu ildə birgə toxuduğu "Bağçada güllər" xalçasını və XIX əsrin ortalarına aid məfrəşi filiala hədiyyə edib.



AZƏRTAC xəbər verir ki, S.Həsənov Birinci Qarabağ müharibəsindən əvvəl bu xalçanın Şuşada onların evlərinin divarını bəzədiyini deyib: "Şəhər işğal olunanda ailəmiz üçün ən əziz əşya kimi onu da Bakıya apardıq. Xalçanın üzərində nənəmin və anamın adlarının baş hərfləri "Ə" (Əzət) və "S" (Səltənət) yazılıb. Xoşbəxtik ki, uzun illər sonra doğmalarımdan yadigar qalan bu xalça da bizimlə bərabər öz yurduna qayıtdı. Düşünürəm ki, ən doğru addım onu muzeyə bağışlamaqdır. Qoy bura gələn turistlər görsünlər ki, Azərbaycan qadınları nələr yaradıb".

Təqdim olunan Qarabağ xalçasının mərkəzində qızılgül təsvirləri yer alır. S.Həsənovun muzeyə bağışladığı digər əşya yüzdən artıq yaşı olan məfrəşdir. O, xalça məmulatından yaylaqdan qışlağa, qışlaqdan isə yaylağa köçərkən sandıq kimi istifadə etdiklərini deyib.

# Azərbaycan "Kitab sənəti" beynəlxalq müsabiqəsində 10 diploma layiq görülüb

Azərbaycan MDB ölkələrinin "Kitab sənəti" XXI Beynəlxalq Müsabiqəsində 9 nominasiya üzrə 10 diplom alıb.




AZƏRTAC xəbər verir ki, Rusiyanın paytaxtında 37-ci Moskva Beynəlxalq Kitab Yarmarkası və 2-ci Moskva Beynəlxalq Uşaq Kitab Yarmarkası keçirilir.

Azərbaycanın Mədəniyyət Nazirliyi Rusiyadakı səfirliyimizin dəstəyi ilə ölkəmizin tədbirlərdə iştirakını təşkil edib. Azərbaycanın adət-ənənələri və mədəniyyəti haqqında çoxlu kitablar təqdim olunub. Həmçinin müasir publisistika geniş şəkildə təqdim edilib. Mədəniyyət Nazirliyinin nümayəndəsi Kamran Musayev AZƏRTAC-a bildirib ki, yarmarkada Azərbaycanın tarixindən və mədəniyyətindən bəhs edən kitablar təqdim edilir: "Stendimizdə Qarabağın tarixindən, o cümlədən Şuşadan bəhs edən kitablar, İkinci Qarabağ müharibəsi günlərində xalqımızın qəhrəmanlığından bəhs edən nəşrlər sərgilənir. Kitablar, əsasən, rus dilindədir, lakin Azərbaycan və ingilis dillərində də nəşrlər var".

Sərgi çərçivəsində XXI Beynəlxalq "Kitab sənəti" müsabiqəsinin qaliblərinin mükafatlandırılması olub. Azərbaycan müsabiqənin 9 nominasiyası üzrə 10 diplom alıb. Uşaq yazıçısı, şair, "İrs" Nağıllar evinin rəhbəri, professor Solmaz Amanova "Turac və sehrli daraq" kitabı ilə "MDB-də nəşr olunub" nominasiyası üzrə qalib və "Narmis və Tacşir" kitabı ilə müsabiqənin Qran-Prisinə sahib olub. Mükafatçılar sırasında Səbuhi Əhmədov ("Azərbaycan silahları IX-XVII əsrlərdə: təkamül və inkişaf" monoqrafiyası), "Sirus Mirzəzadə: rəngkarlıq, qrafika, monumental incəsənət" fotoalbomu, "Azərbaycan Milli Xalça Muzeyi" fotoalbomu da var.

Moskva Beynəlxalq Kitab Yarmarkasında Rusiyanın müxtəlif regionlarından və digər ölkələrdən, o cümlədən Azərbaycan, Belarus, Almaniya, İran və Çindən 300-dən çox naşir və kitab distribütoru iştirak edir.

# Riqada latış dilində "UNESCO-da Azərbaycanın əbədi sərvətləri" kitabının təqdimatı keçirilib

Latviyanın Dekorativ İncəsənət və Dizayn Muzeyində UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının dəstəyi ilə Azərbaycanın Latviyadakı səfirliyi tərəfindən hazırlanmış və latış dilində nəşr edilmiş "UNESCO-da Azərbaycanın əbədi sərvətləri" kitabının təqdimatı keçirilib.






AZƏRTAC xəbər verir ki, tədbirin açılışında çıxış edən Azərbaycanın Latviyadakı səfiri Elnur Sultanov bu kitabın nəşr edilməsini Latviya xalqının Azərbaycan mədəniyyəti ilə daha yaxından tanışlığı və qarşılıqlı mədəni mübadilələr baxımından əlamətdar hadisə kimi qiymətləndirib. Səfir deyib: "Xoş haldır ki, kitabın ərsəyə gəlməsi Azərbaycan ilə Latviya arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi və UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının yaradılmasının 30 illiyinə təsadüf edir".

E.Sultanov qeyd edib ki, Azərbaycan UNESCO-nun əsas tərəfdaşlarından biri kimi mədəniyyətlərarası dialoqu fəal təşviq edir və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2008-ci ildə başlanmış "Bakı Prosesi" qlobal platformaya çevrilib.

Diplomat vurğulayıb ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın yorulmaz fəaliyyəti nəticəsində ölkəmizin 5 maddi mədəni irs və 23 qeyri-maddi mədəni irs nümunələri UNESCO-nun müvafiq siyahılarına daxil edilib, Azərbaycan mədəniyyəti dünyada tanıdılıb və ölkəmiz UNESCO-nun çoxsaylı tədbirlərinə uğurla evsahibliyi edib. Dekorativ İncəsənət və Dizayn Muzeyinin direktoru İnese Baranovska rəhbərlik etdiyi muzeydə Azərbaycan səfirliyinin və "Azərxalça" ASC-nin təşkilatçılığı ilə "Yaddaşın genetik kodu. Azərbaycan xalçaları" sərgisinin uğurla davam etdiyini məmnunluqla vurğulayaraq, UNESCO siyahısında yer alan Azərbaycan xalçaçılıq sənətinin Latviyada böyük maraq doğurduğunu söyləyib.

Latviya Seyminin təhsil, mədəniyyət və elm komitəsinin sədr müavini Liqa Klavina dövlətlər arasında müxtəlif sahələrdə müsbət dialoqun mövcud olduğunu və hər iki ölkədə mədəni irsin qorunmasına və təhsilin inkişafına önəm verildiyini bildirib və sözügedən kitabın nəşr edilməsinin əhəmiyyətini vurğulayıb. Latviya Universitetinin Akademik Kitabxanasının direktoru Venta Kotsere çıxışında ölkəmizin zəngin mədəni irsə sahib olduğunu və bu irsin dünya ictimaiyyəti tərəfindən yüksək qiymətləndirildiyini söyləyib. O, bu kitabda Azərbaycan irsinə dair dolğun məlumatın əks etdirildiyini və kitabın Azərbaycan mədəniyyətinin Latviyada tanıdılmasına töhfə verəcəyinə inamını ifadə edib.

Tədbirdə Latviyada fəaliyyət göstərən "Buta" rəqs qrupu tərəfindən UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmiş kəlağayı ilə müşayiət olunan Azərbaycan milli rəqsi ifa edilib. Daha sonra milli mətbəximizin ləziz təamları, o cümlədən Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmiş dolma və çay süfrəsi təqdim olunub.

Tədbirdə Latviya hökuməti və parlamentinin üzvləri, diplomatik missiyaların rəhbərləri, yerli mədəni, ictimai və media dairələrin nümayəndələri, Latviyada yaşayan Azərbaycan icmasının üzvləri iştirak ediblər.

İnsanlar və talelər

# Ay Laçın, can Laçın...



## 8 yaşında köçkün düşən, ilk dəfə parta arxasında 17 yaşında oturan Gülməmməd Məmmədov 29 ildən sonra yurduna ABŞ təhsilli, ADA-nın dosenti kimi döndü

**2021-ci ildə "Azərbaycan" qəzetində "Bir alimin manifesti" başlığı altında Laçın həsrətinə, bu diyarın azadlığından doğan sevincə köklənmiş yazı dərc olunmuşdu. Bir gənc alim Laçınlı günlərindən, məcburi köçkünlük həyatının ağrı-acılarından, onu təhsil arxasınca uzaq Amerikaya aparan arzu və istəklərindən, elm sahəsində əldə etdiyi uğurlardan bəhs etmiş, doğma Laçının qurtuluşunun qürurunu paylaşmışdı... Amma ötən müddətdə də elə hey düşünmüşdü ki, sanki o yazı yarımçıq, tamamlanmamış qalıb...**

"Çünki orada sadəcə uşaqlıq xatirələrimdəki Laçın var idi. Hələ gerçək Laçınla gedib yenidən görüşməmişdim. Şükür Tanrıya, mənə bu xoşbəxtliyi qismət elədi. Dünyaya göz açdığım, ömrümün cəmi səkkiz ilini, amma yaşanmışlar baxımından bəlkə də on illərə dəyəcək qismini keçirdiyim o torpağa bir daha qədəm qoyanda elə bildim yenidən doğulmuşam. Laçını hər zaman əsrarəngiz təbiətə malik gözəl yer kimi xatırlayırdım. Bəzən düşünürdüm ki, bəlkə də bu, təxəyyülümün məhsuludur. Amma bu axar-baxarlı, ucu şiş qayalı, çəmənlərialəzar, yamyaşıl meşəli, saf bulaqlı, gur şəlaləli diyara baxanda öz-özümə qeyri-ixtiyari deyirdim ki, "İlahi, əgər Yer üzündə cənnət varsa, o elə Laçındır"...

### Qəhər anı...



O, 1992-ci ildə 8 yaşı olarkən Laçın rayonunun Şeylanlı kəndindən didərgin düşdü. Ötən illər ərzində çox əziyyətlər çəkdi, məktəbi, müəllimi, dərsliyi olmadan öz şəxsi əzmi, zəhməti sayəsində təhsildə böyük uğur qazandı. Laçından sonra ilk dəfə parta arxasına 17 yaşında əyləşən gənc elmin ən yüksək pilləsinə ucaldı. 29 illik həsrətin ardından Laçına qovuşdu...

Lakin doğma yurduna ata, qardaş itkisinin ürək ağrısı ilə dönməyi qəlbində ömürlük nisgilə çevrildi: "Laçına bütün gerçəklikləri gözümün qabağına gətirib yollanmışdım. Bilirdim ki, o torpağı viranə görəcəm. Daha atam, böyük qardaşım da yanımda yox idi ki, onlara söykənib təskinlik tapam... Ona görə söz vermişdim ki, nə olur-olsun, möhkəm olacam, özümü tox tutacam, kövrəlməyəcəm... Ancaq həyat hənirtisi kəsilmiş kəndimizi görəndə, dağıdılmış evimizin üstünə gedəndə ürəyimdə yığılıb qalan qəhər bir anda boğazımda elə düyünləndi ki... Göz yaşlarımı saxlaya bilmədim, uçurulmuş pilləkənimizin ətəyindəcə oturub uşaq kimi hönkürdüm... "

ABŞ-nin Sirakuz Universitetində fizika üzrə fəlsəfə doktoru elmi dərəcəsi alan, ADA Universitetinin dosenti, eyni zamanda "Qarabağa Qayıdış" İctimai Birliyinin sədr müavini 39 yaşlı Gülməmməd Əbülfət oğlu Məmmədovdur "İnsanlar və talelər" rubrikasında.

### Həyatla mübarizə

Köçkünlük illərində Gülməmməd müəllimgilin 9 nəfərlik ailəsi Ağcabədinin Taxtakörpü qış yatağında qamışdan komada yaşayıblar. Yayda cəhənnəm kimi isti, qışda ilikdonduran buzxana olan yataqda çörək, içməli su belə tapmır, kilometrlərlə məsafə qət edib artezian quyusundan su gətirərmişlər. Sağılan heyvanlar da quraqlıqda bitən yağtikan, biyan otları ilə qidalandıqları üçün südləri zəhər dadırmış:



- O vaxt mövcud olmuş çətin vəziyyətlə əlaqədar bir çox məcburi köçkün məktəbi kimi, bizim təhsil ocağımız da formal şəkildə, sənəd üzərində idi. Buna görə də 13 yaşımdaykən 1-ci sinfin riyaziyyat kitabını götürüb, 5-ci sinfə çatanda isə ona Azərbaycan dilini, ədəbiyyatını əlavə edib, müstəqil şəkildə hazırlaşmağa başladım. Bizə müxtəlif kitablar yardım olunardı və məcburiyyətdən bəzən ocağı həmin kitabların vərəqləri ilə qalayardıq. Aralarından diqqətimi çəkən fizika kitablarını isə seçib götürər, həvəslə oxuyardım. Dərsliklərdə olan bütün məsələ-misalları həll etdiyim üçün dəftər çatmırdı. Buna görə də valideynlərim Ağcabədi bazarındakı ərzaq mağazalarından kartondan olan boş qutuları və məhsulları qablaşdırmaq üçün istifadə edilmiş kağızları yığıb gətirərdi ki, üstündə məsələ-misal həll edək (məndən öncə böyük qardaşım İntiqam Məmmədov bu yolla hazırlaşaraq 1997-ci ildə Bakı Dövlət Universitetinin Mexanika-riyaziyyat fakültəsinə, 2001-ci ildə isə magistraturaya qəbul olunmuşdu). Çətinliklərə rəğmən ruhdan düşmürdüm. Buna görə də məktəb, müəllim olmadan özüm hazırlaşaraq 2001-ci ildə ölkədə fizika üzrə ən yüksək bal toplamış bir neçə tələbədən biri kimi BDU-nun eyniadlı fakültəsinə qəbul oldum. Amma həmin vaxt Bakıda harada qalacağım ailəmizi düşündürən böyük problemə çevrildi.

Kirayə ev tutmağa imkanımız olmadığı üçün qardaşım İntiqamla birgə Şıxov daş karxanasının tullantı daşlarından gətirib Badamdarın Lökbatana tərəf zibil tökülən yiyəsiz bir sahəsində bir otaq tikdik. Ehtiyatsızlıqdan şamdan törənmiş yanğın baş verənədək iki il yarım bu şəraitsiz, suvağı belə olmayan otaqda qaldıq. Dekabr ayı, semestrin ən ağır vaxtı idi. İkinci növbə olan dərslərimi bitirib axşamın alaqaranlığında yenicə evə çatmışdım. İşıqlar yanmadığı üçün, ehtiyat kimi hazır saxladığım şamı yandırıb stolun üstünə qoydum və nəsə almaq üçün xeyli uzaqda olan mağazaya getdim. Unudub şamın altına heç nə qoymamışdım. Şam yanıb qurtaranda alov taxta stola keçmiş, oradan da bütün evi bürümüşdü. Qayıdanda uzaqdan evin içərisində pəncərədən görünən alov burulğanları məni dəhşətə gətirmişdi. Özümü çatdırıb qapıdakı çəlləyin suyu ilə təkbaşına böyük çətinliklə alovu söndürə bilmişdim. Ancaq yanğın bütün mühazirə dəftərlərimi, kitablarımı, əksər paltarlarımı və evin əşiyalarını məhv etmişdi. Xilas etdiyim paltarları nə qədər yusam da, geyinəndə his iyi verirdilər və belə də dərsə gedirdim.



Ancaq məni bu yox, dərslərdə geri qalmaq narahat edirdi. İndiki tələbələr bilməz, o vaxt biliyi professorların şifahi oxuduğu mühazirələr zamanı yazdığımız dəftərlərdən qazanırdıq. Azərbaycan dilində dərs vəsaitləri yox dərəcəsində idi, xarici dillərdə olan vəsaitləri isə başqa dil biliyi olmadığından əksəriyyətimiz oxuya bilmirdi. Ona görə də tələbə yoldaşlarımdan mühazirə dəftərlərini alıb bütün fənlərin semestr boyu keçilmiş materialının üzünü köçürüb öz dəftərlərimi böyük əziyyətlə bərpa etdim. Bununla da semestri əla qiymətlərlə bitirməyə müvəffəq oldum.

Sonrakı 2 il ərzində yaşayış şəraitim əvvəlkindən də çətin oldu. Tələbəlik illərində ailə üzvlərimin boğazlarından kəsərək göndərdikləri minimal məbləğlə dolanırdım. Maddi vəziyyəti çətin olan ailəm soyuq aylarda geyinməyə isti paltar almağım üçün, sözün əsl mənasında, yayın əvvəlindən səfərbər olub pul yığırdı. Elə olurdu ki, ayaqqabım cırılanda özüm tikirdim... III kursda oxuyanda rayonda nəmişlik və soyuqdan bir çox məcburi köçkün kimi mənim də ailə üzvlərimin demək olar hamısı ağır xəstəlik keçirdi. Çox dəhşətli və ümidsiz vaxtlar idi.

Xatırlayıram, ayın başı çatmışdı, qardaşım mənə pul göndərə bilməmişdi. Demək olar ki, heç bir qida qəbul etmədən gün keçirmiş, universitetə uzun məsafəni piyada gedib-gəlmişdim. Utandığım, üzüm gəlmədiyi üçün də heç kəsdən kömək istəmirdim. Nəhayət, 3 gündən sonra qardaşım rayondan gələn taksilərdən biri ilə mənə pul göndərmişdi...



### Uğur yolu

Həyatın çətinlikləri ilə mübarizə aparan Gülməmməd Məmmədov ali məktəbdə də istedadı və biliyi ilə seçilir. Universitetin ikinci semestrində Ulu Öndər Heydər Əliyevin 80 illik yubileyinə həsr olunmuş ali məktəb tələbələrinin IX Respublika Olimpiadasında fizika fənni üzrə I yerə layiq görülür. 2005-ci ildə Bakı Dövlət Universitetinin bakalavr pilləsini fərqlənmə diplomu ilə bitirir.



Bundan sonra İtaliyada Abdus Salam adına Beynəlxalq Nəzəri Fizika Mərkəzinin inkişaf etməkdə olan ölkələrdən seçdiyi on tələbədən biri kimi tam təqaüd ilə birillik pre-doktoral təhsil proqramına dəvət alır. 2007-ci ildə ABŞ-nin Nyu York ştatında yerləşən Sirakuz Universitetinin ən prestijli doktorluq təqaüdünü qazanır. Sonra orada bu və bir neçə digər təhsil müəssisəsində elmi-pedaqoji fəaliyyət göstərir.

10 ilə yaxın dövr ərzində ABŞ-də yüksək elmi-pedaqoji fəaliyyətlə yanaşı, ölkəmizin mədəniyyətini, həqiqətlərini təbliğ edir. Bütün fikri-zikri Azərbaycanın yanında olan Gülməmməd müəllim Vətəndə xalqına daha faydalı olacağını düşünərək 2016-cı ildə qəti qərarını verib doğma yurduna dönür. Üzərindən cəmi dörd il keçəndən sonra isə qəlbində illərdir qövr edən Laçın yarasına məlhəm çəkilir...

### İnanc

- Torpaqlarımızın işğaldan azad olunacağı ilə bağlı ürəyimdə böyük əminlik var idi, sadəcə bunun nə zaman gerçəkləşəcəyinə dair təxminim yox idi. Rasional məntiqlə düşünəndə bilirdim ki, geosiyasi maraqların bu qədər toqquşduğu yerdə, işğalçı Ermənistanın arxasında güclü dövlətin durduğu bir şəraitdə o torpaqları azad etmək nə qədər çətindir. Demək olar ki, Qarabağ probleminin həlli mümkünsüz sayılırdı. Buna baxmayaraq, şəkk-şübhəm yox idi ki, mütləq o yerlərə qayıdacağıq.

Bizdə bu əminliyi vətənə bağlılığımız, bir də ölkə rəhbərliyinə inamımız yaratmışdı. Bu hiss tək məndə deyil, bütün keçmiş məcburi köçkünlərdə var idi. İndi həmin zamanları analiz edəndə çox maraqlı bir tendensiya ilə qarşılaşıram. Yüz minlərlə insan yurd-yuvasından didərgin salınmışdı, onlar o qədər ağrı-acı çəkmiş, böyük travma almışdı ki... İnsanlar bu problemlərlə baş-başa qalsaydılar, hər an bu barədə düşünsəydilər, bəlkə də heç uzun müddət yaşaya bilməzdilər, xüsusilə də yaşlı insanlar. Bir növ bu problemlərin yükü ölkə rəhbərliyinin çiynlərinə düşmüşdü. Biz inanırdıq ki, öz sözü ilə desək, nəyi necə, nə vaxt edəcəyini yaxşı bilən cənab Prezident bu məsələni həll edəcək, bizi dədə-baba yurdumuza qaytaracaq. Bu inanc sanki ağrı-acı yükümüzü azaltmışdı. Ötən müddətdə Ulu Öndərin, cənab Prezident İlham Əliyevin, Mehriban xanımın qayğısını üzərimizdə hiss etməyimiz bizə böyük dəstək idi.

Nəhayət, dövlətimiz, ordumuz gücləndi, ölkəmizin iqtisadi potensialı böyüdü, xarici siyasətdə önəmli mövqe tutduq. Kompleks şəkildə həyata keçirilən mühüm işlər, ələlxüsus Müzəffər Lider İlham Əliyevin müdrik siyasəti nəticəsində torpaqlarımız azadlığına qovuşdu, Xankəndidə bayrağımız dalğalandırıldı, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi bərpa olundu.

Şuşaya, Xankəndiyə, Laçına - Vətənə yolumuz açıldı...

### Həmin Laçın

O, Laçına çatanda artıq günorta yaxınlaşırdı. Göydə bir bulud da yox idi, Günəş zərrin şəfəqlərini ətrafa səpələmişdi. Göz işlədikcə uzanan bir çəmənlikdə oturub uzaqdan ağ çalması işıldayan dağlara, onların qoynundakı doğma kəndinə sarı baxır, yaxınlıqda axan çayın zümzüməsinin ahənginə qoşulub uşaqlıq xatirələrinin arxasınca qaçırdı... Çoban tütəyinin səsi ilə alaqaranlıqda oyanması, quzuları qabağına qatıb gül-çiçəkli çəmənlərə aparması, böyüklərin gözündən yayınıb Ağ qayanın sıldırımlarına dırmaşması, qartal yuvalarına baxması, qürub çağı günəş şəfəqlərinin dağların başını al qırmızı boyamasına tamaşa etməsi kino lenti kimi gözlərinin önündən keçirdi...

Amma qəfildən göyün üzünü qara buludların alması, ildırım çaxması və leysan tökməsi onu şirin xəyallardan gerçək aləmə qaytarmışdı. Bircə saatdan sonra isə yenə də günəş parlamış, göy qurşağı səmada əlvan tağ kimi uzanıb getmişdi...

Təbiətin bu dəyişkən əhvalını təbəssümlə seyr edən Gülməmməd müəllim düşünmüşdü ki, Laçın elə uşaqlıqda qoyub gəldiyi, həmin şıltaq Laçındır...

- İlk dəfə 2021-ci ilin avqustunda laçınlı ziyalılarla birgə doğma yurduma getdim. Çox qeyri-adi hisslər yaşayırdım. Murovun Ömər aşırımını keçib Kəlbəcər torpaqlarına qədəm qoyduq. Torpaq, ağaclar, daşlar hər şey adama doğma, müqəddəs gəlirdi. Kəlbəcərlə Laçının sərhədindəki "Laçın" yazılmış lövhəni görəndə çox duyğulandım, axı torpaqlarımızın bizə illərdir möcüzə kimi görünən azadlığı gerçək olmuşdu... Əvvəlcə Qorçu kəndinə, orada cənab Prezident tərəfindən yenicə təməli qoyulan Laçın Beynəlxalq Hava Limanına baş çəkdik. Onu da deyim ki, Laçında aeroportun tikilməsi inanılmaz hadisədir. Çünki burada indiyə qədər bu yüksəklikdə asfalt örtüklü yollar belə olmayıb. Hava limanı bütün kəndlərə eyni məsafədə yerləşən ərazidə salınıb. Şeylanlıdan ora 30 kilometr məsafədir və bu, dağlıq ərazi üçün çox əlverişlidir. Bu hava limanı Laçını tamamilə transformasiya edəcək olduqca vacib infrastruktur layihəsidir. Yüklərin daşınması, təchizat, insanların gəliş-gedişi, turistlərin səfəri baxımından böyük əhəmiyyət daşıyır.

### "Qızlarıma ata yurdlarını göstərdim"



- Növbəti dəfə 2022-ci ilin avqustunda Laçına qardaşım İntiqamla birgə yollandım, bu dəfə Zəngilan-Qubadlı yolu ilə. Laçın şəhərinə çatanda uşaqlıq xatirələrim yenidən canlandı. Adətən şəhəri ildə iki dəfə görərdik, dağdan arana köçən və geriyə qayıdan zaman. Maşınların, atların üzərindən dağın döşündə salınmış dolama yolu keçərkən Laçın şəhərinə maraqla baxardıq. Yenidən Laçını görəndə bu, məndə fərqli assosiasiya yaratdı və Los-Ancelesdə dağın üzərindəki "Hollivud" yazısı olan ərazi yadıma düşdü. Yanımdakı yoldaşlara da dedim ki, "şəhərin yerləşdiyi dağın başına da həmin formada böyük hərflərlə "Laçın" yazılsa, çox yaraşar və möhtəşəm görünər..."

Laçından keçib üzü kəndimizə doğru yol aldıq. Şeylanlı şəhərdən təxminən 50-55 kilometr məsafədə yerləşir və ora Minkənd istiqamətindən gedilir. Minkəndin yaxınlığına qədər yolboyu baxa-baxa getdim. Yüksəklik getdikcə artırdı, amma təbiət baxımından hər yer bir-birinə oxşayırdı, avqust ayı olduğu üçün otlar da saralmışdı.

Ancaq Minkənd yoxuşunu qalxdıqdan sonra tamamilə fərqli bir iqlim və mənzərə adamı qarşılayır. Bir tərəfdə Qarakeçdi kəndinə tərəf uzanan Qarasu düzü, bir tərəfdə isə Dəlidağa tərəf göz işlədikcə dərəli-təpəli yaşıl bir mahal açılır. Minkənd-İstisu yolu ilə Qarakeçdi və Ağbulaq kəndlərini keçdikdən sonra yol möhtəşəm mənzərəsi olan sərt bir kanyonun qaşı boyunca davam edir. Bu ərazi uşaq olarkən yaylağa köçdüyümüz Camalyurdunun qənşərində yerləşir. Bəxtimizdən hava yaxşı idi, adətən buralar yüksəklik olduğundan dumana görə göz-gözü görmür. Artıq Günəş qürub edirdi, avtomobili saxlayıb bir az təmiz havada olmaq üçün çəmənliyə düşdük. Bu an gül-çiçəyin ətri bizi elə vurdu ki, çaşmış halda bir-birimizə baxdıq, sanki cənnətin ortasına düşdüyümüzü sandıq. İndiyə qədər dünyanın bir çox gözəl bağlarında, parklarında olmuşam, ABŞ universitetlərinin hər cür gül-çiçəyi olan ərazisini gəzmişəm, amma onların heç birində bu cür ətir, qoxu hiss etməmişəm. Ümumiyyətlə, hara baxırdınsa, qarşında bir-birindən füsunkar mənzərələr açılırdı...

Elə oradan həyat yoldaşıma görüntülü zəng vurub ilk təəssüratlarımı bölüşdüm... Qızlarım Alia ilə Sofiaya virtual da olsa, ata yurdlarını göstərdim...



Artıq günəş batmaq üzrə olduğundan kəndimizə yox, gecələmək üçün çayı keçib Yuxarı Yeddibölük yaylağına getdik. Laçın işğaldan azad ediləndən sonra qardaşım İnqilab hər il yay mövsümündə heyvandarlıq təsərrüfatını bu yaylağa gətirir (indi 77 yaşlı anam Əntiqə də onunla birlikdədir). Gecə yaylaqda qaldıq. İllərdən sonra ilk dəfə yaylaqda alaçıqda yatdım. Bu da təsvirəgəlməz hisslər yaşadır insana...

### "Kəndimiz xarabazara çevrilib..."

- Səhəri gün kəndimiz Şeylanlıya getdik. Yol Qarasu düzündən kəndimizə doğru enir. Buradan Şeylanlının möhtəşəm mənzərəsi görünür. Yadımdadır, uşaq vaxtı arandan qayıdanda uzun yol idi, axşamüstü gəlib bu yerə çatanda o qədər sevinərdik ki... Kəndin işıqları yanardı, insanların səsi gələrdi, mal-qara mələşərdi, itlər hürüşərdi. Bu səslər kənddə həyat olduğunun nişanəsi idi... İndi həmin səslərə yenə qulaq vermək istədim, amma... Bura artıq heç bir həyat nişanəsi olmayan xarabazara çevrilmişdi.

Evimiz kəndin ən mənzərəli yerlərindən birində yerləşirdi. 1960-cı illərin əvvəllərində atamla anam böyük zəhmətlə burada ikimərtəbəli ev tikmişdilər. Evdə hər cür şərait yaratmışdılar, atam aqranom olduğu üçün yaxşı bağ salmışdı. Gedib gördüm ki, evimiz dağıdılıb, pilləkən havadan asılı qalıb, bar ağaclarımızın hamısı cırlaşıb məhv olub. 1992-ci ildə kənd işğal olunanda evimizi qradla vurublar. Mərmilərin izləri indi də durur. Nəyimiz vardısa, hamısı yanıb külə dönüb...

Amma həyətimizdəki bulaqdan hələ də su axır. İşğal zamanı qonşumuzun evində yaşayan ermənilər bu suyu boru ilə çəkib istifadə edirmişlər. Kəndimizin məktəbini də dağıdıblar, sadəcə divarları qalıb. Qəbiristanlığımıza getdim. Başdaşlarının hamısını qırıb töküblər. Ağbulaq kəndinin məzarlığında ana nənəmin məzarını ziyarət etdim. Burada da başdaşlarını dağıdıblar, gümbəzləri güllələyib deşik-deşik ediblər, bir sözlə, düşmən qəbirlərdə uyuyan əzizlərimizi də rahat buraxmayıb.

### Dəyərlər

- Deyim ki, dağıdılmış yurda qayıdışın özü də bir travmadır. Gedib o yerləri bu cür görmək insanlarımızda psixoloji sarsıntı yaradır, xüsusilə yaşlı adamlarda. Çünki onlar həmin evləri zəhmətlə tikib-quran insanlardır. Anamı bu il güclə yola gətirdim ki, Laçına getsin. Onda böyük tərəddüd var idi, həm də Laçına, Şeylanlıya həyatda olmayan atamsız, böyük qardaşımsız qayıtmaq istəmirdi...

Amma bu çətinliklər də illər keçdikcə tədricən aşılacaq... Dövlətimiz tərəfindən o ərazilərdə sürətli bərpa işləri aparılır. Laçın şəhəri demək olar ki, əvvəlki görkəmindən də gözəl formada bərpa olunub. Eyni zamanda da Zabux və Sus kəndləri. Ümumən Qarabağ və Şərqi Zəngəzurda şəhərlər və kəndlər müasir formada yenidən qurulur.

Mən buradan laçınlı iş adamlarına çağırış edirəm ki, Laçına ciddi investisiya yatırmaq haqqında düşünsünlər. Şəhərin özündə və bərpa olunan kəndlərində xidmət sektorları yaranmalıdır, iş yerləri açılsın. Düşünürəm ki, Azərbaycanın bütün yerlərindən, o cümlədən Laçından olan iş adamları bu məsələyə ciddi maraq göstərməlidirlər. Laçın camaatının mütləq əksəriyyəti kənd təsərrüfatı ilə məşğul olub. Məcburi köçkünlüklə əlaqədar onların bir qismi məşğuliyyətini dəyişib. Amma bir xeyli laçınlı ata-babadan qalma ənənəni davam etdirir. Bu məşğuliyyət Laçın camaatının bir növ dəyəri, mədəniyyətidir. Çox sevindiricidir ki, çətin iş olmasına rəğmən hələ də təsərrüfatla məşğul olan laçınlılar var. Amma onlar yaylaqlara gedəndə yol baxımından müəyyən çətinliklərlə qarşılaşırlar. Təchizat yollarının baxımsızlığı səbəbindən elə olur ki, yağış yağanda kilometrlərlə enişli-yoxuşlu məsafəni əşyalarını piyada daşıyaraq qət edirdilər. Təchizat yollarının daimi işlək olmasını təmin etmək strateji əhəmiyyət daşıyır. Əsas yollar dövlətimiz tərəfindən yüksək səviyyədə çəkilir. Çox istərdik ki, o yollardan yaylaqlara da təchizat yolları çəkilsin ki, insanlar əziyyət çəkməsinlər...

### Laçın işğal olunmasaydı...

Gülməmməd müəllim Laçında başlayıb, dünyanı dolaşıb elə Laçında da axarına qovuşan filmlərə, bədii əsərlərə bənzəyən çətin, keşməkeşli, bir o qədər də mübarizələrlə dolu gerçək həyat hekayəsi yaşadı. 8 yaşındaykən məcburi köçkünə çevrildi, maddi-mənəvi çətinliklərin olduğu, şəhid xəbərlərinin qapıları döydüyü, xəstəliklərin tüğyan etdiyi bir zamanın uşağı oldu. Çətinliklərə rəğmən yoluna davam etdi, hər zaman qarşısında uzanan zülmət yolun sonunda işıq olduğunu bildi. Tale yolu sınaqlarla dolu olsa da, uğur yazısına özü imza atdı, elm sahəsində alimlik mərtəbəsinə qədər ucaldı.



*Amma yaşam mübarizəsi, uğurları ilə örnək insana çevrilən dəyərli ziyalı Gülməmməd Məmmədov özü hər zaman düşünür ki, əgər Laçından didərgin düşməsəydi, bəlkə də həyatı tamamilə başqa cür olardı: "Düşünün ki, işğal faktı olmasaydı, indi ölkəmiz hansı inkişaf səviyyəsinə ucalardı. İnsanların maddi rifahı hazırkından çox-çox yaxşı olardı. Azərbaycanın hər yerində yüksəksəviyyəli məktəblər olar, ən mükəmməl təhsil verilərdi. Hesab edirəm ki, elə bir maddi rifah, şəraitin varlığında indi olduğum yerdən daha da yüksəkdə olardım. Bu, bir reallıqdır. Məcburi köçkünlük tək insan olaraq bizdən yox, ölkəmizdən çox şeylər aldı. 30 il müstəqilliyimizdən oğurladı. O cür təbii zənginliklərdən məhrum olduq. Ömrümüzdən ömür getdi... Əminəm ki, indən sonra insanlarımız qazandıqları pis-yaxşı təcrübə ilə yurdlarımıza qayıdandan sonra orada tamamilə ayrı yaşama sahib olacaqlar. Keçmişimizdən fərqli olaraq gələcəyimiz xoş günlərlə bol olacaq..."*

**Yasəmən MUSAYEVA,**
**"Azərbaycan"**




## "Wi-Fi"ın analoqu

**Mütəxəssislər "Wi-Fi"dan 100 dəfə daha sürətli internet texnologiyasını təqdim ediblər. "Li-Fi" adlı texnologiya işıq dalğaları vasitəsi ilə məlumat ötürərək internet bağlantısı təmin edir.**



İnqilabi texnologiyanın əsasları 2000-ci illərin əvvəllərində alman fiziki Harald Haas tərəfindən qoyulub. O zamanlar alim işığın ikitərəfli məlumat ötürülməsi üçün istifadə edilə biləcəyini kəşf etmişdi. 2008-ci ildə isə Fransanın "Oldecomm" şirkəti bu texnologiya üzərində təcrübələrə başlayıb.

"Li-Fi" təhlükəsizlik baxımından böyük üstünlüklər təqdim edir. O, işıqlandırılan ərazidən kənara çıxa bilmədiyi üçün "icazəsiz" siqnalları tutmaq mümkün olmur. Lakin "Li-Fi"ın bəzi mənfi tərəfləri də var. Texnologiya işıq mənbəyindən asılı olduğundan onun əhatə dairəsi məhduddur. Bundan əlavə, "Li-Fi" hələ geniş yayılmadığı üçün onu dəstəkləyən cihazların sayı da azdır.

Yeni texnologiyanın 2029-cu ilə qədər hər kəs üçün əlçatan olacağı gözlənilir.

## Çin elektromobillərinin satışı artıb



**ABŞ, Avropa İttifaqı və Kanada kimi, Qərb ölkələrinin məhdudlaşdırıcı tədbirlərinə baxmayaraq, avqust ayında Çinin əsas istehsalçılarının elektrik avtomobil satışları azalmayıb.**

Çin elektrik avtomobil şirkətlərinin satış məlumatlarına görə, "BYD" və "Xpeng" kimi şirkətlərin avtomobillərinə tələb ötən ay da artıb.

Dünyanın ən böyük elektrik avtomobil istehsalçısı "BYD"nin avqust ayında satışları keçən ilin eyni dövrünə görə 30 faiz artaraq 370 min 854 ədədə çatıb. Onlardan 148 min 470-i tam elektrik, 222 min 384-ü isə hibrid modellər olub. Şirkətin elektrik avtomobil satışları illik 12, hibrid satışları isə 48,3 faiz artıb. Çin şirkəti "Xpeng" də avqust ayında 14 min 36 elektromobil satıb. Şirkətin satışları aylıq 26, illik 2,5 faiz artıb. Şirkət ötən ay "Mona Mo3" sedan modelini rəsmi olaraq təqdim edib. Bu modelə olan gözləntilər şirkətə marağı daha da artırıb.

Yüksəksəviyyəli modelləri ilə tanınan "Nio" avqust ayında 20 min 176 yeni elektromobil sataraq satışlarını illik 4 faiz yüksəldib. "Zeekr" ötən ay 18 min 15 avtomobil satıb. Şirkətin satışları aylıq olaraq 15, illik bazada isə 46,4 faiz artıb. Çində istehsal edilən "Tesla" modellərinin ixracı da daxil olmaqla, satışı avqust ayında 86 min 697 ədədə çatıb. Tesla Çinin satışları aylıq 17, illik isə 3 faiz artıb.

ABŞ və Kanada Çin istehsalı olan elektrikli avtomobil idxalına 100 faiz gömrük rüsumu tətbiq edərkən, Avropa İttifaqı indiki 10 faizlik gömrük rüsumunun üzərinə yüzdə 36,3-ə çatan yeni vergi tətbiq etməyə hazırlaşır.

## İlk nüvə saatının prototipi hazırlanıb

**Alimlər nüvə saatında tələb olunan əsas komponentləri müəyyənləşdirərək ilk prototipi hazırlayıblar. Vaxtı daha dəqiq ölçən nüvə saatları üzərində çoxdan işlənsə də, qarşıda çətin maneələr var idi.**

Atom saatları atomdakı elektronların enerji vəziyyətini dəyişdirərək işləyir. Bu yüksək və aşağı enerji keçidləri zamanı atomlar növündən asılı olaraq çox dəqiq tezlikdə enerji buraxırlar. Qabaqcıl saatlar bu tezliyi aşkar etmək və ölçməklə hazırlanır.

Nüvə saatlarının prinsipi elektronlar deyil, atom nüvəsindəki enerji dəyişiklikləri vasitəsilə vaxtı ölçməyə əsaslanır. Atomdan 100 min dəfə kiçik olan nüvədəki enerji dəyişikliyinin daha dəqiq ölçülər verməsi gözlənilir. Tədqiqatçıların qarşılaşdıqları əsas maneələrdən biri atom nüvələrinin enerji vəziyyətini dəyişdirə bilməmələri idi. Torium elementinin torium-229 izotopunun nüvəsində enerji dəyişikliyi yaratmaq nisbətən daha az enerji tələb etdiyi üçün bu, diqqət mərkəzində idi. Bu il tədqiqatçılar əsaslı addım ataraq torium-229-un atom nüvəsinin enerji vəziyyətini dəyişməyə nail olublar.

Alimlər kalsium flüoridindən kristal düzəldərək içərisinə torium atomunun nüvəsini yerləşdiriblər. Daha sonra bu



kristalı stronsiuməsaslı atom saatına yerləşdirdilər və ultrabənövşəyi işığa məruz qoyublar. Bu prototip zamanı mövcud atom saatlarından daha dəqiq ölçməyib, lakin bu, ona doğru atılmış mühüm addımdır. Komanda bildirib ki, tədqiqatdakı mexanizm tam nüvə saatı olmasa da, onun əsas komponentlərini ehtiva edir.

Tədqiqatçılar iki-üç il ərzində atom saatlarını üstələyən nüvə saatlarının hazırlanacağını düşünürlər.

## İnstaqramda yenilik

**İnstaqram "Stories" paylaşımları üçün nəzərdə tutulmuş yeni funksiyanı istifadəyə verib. Söhbət "Stories"lərə şərhlərin yazılmasından gedir.**



Əslində bu paylaşımlara şərh bildirmək əvvəllər də mümkün idi, rəylər şəxsin özəl mesajlar bölməsinə göndərilirdi. İndi isə bu şərhlər "Stories"in alt hissəsində əks olunur. Yazılan rəylər də paylaşımlar kimi 24 saatdan sonra avtomatik olaraq silinir.

Funksiyanın müsbət tərəfi odur ki, istifadəçi şərhləri yazan şəxsləri özü seçir. Yəni rəylər bütün abunəçilər və ya yalnız konkret şəxslər tərəfindən yazıla bilər. Şərh bölməsini ayrı-ayrı "Stories" paylaşımları üçün aktiv və ya deaktiv etmək də mümkündür.

## Valideynlər üçün yeni funksiya




**"YouTube" artıq valideynlərə uşaqlarının kanallarını izləmək imkanı verir.**

Şirkətdən verilən açıqlamaya görə, bu təşəbbüs valideynlərin övladlarının onlayn davranışları haqqında məlumatlılığını artırmaq və platformada təhlükəsiz məzmun yaratmaq təcrübələrini təşviq etmək məqsədi daşıyır.

Sosial platformanın Ailə Mərkəzi vasitəsilə aktivləşdirilə bilən nəzarət funksiyası valideynlərə övladlarının abunələri, şərhləri və yükləmə sayıları kimi paylaşılan məlumatlara çıxış imkanı verəcək. Yeni video yükləmələri və ya canlı yayımlar haqqında valideynlərə məlumat vermək üçün hesablar əlaqələndiriləcək. Hər iki əlaqəli hesab yeni video yükləmək və ya canlı yayıma başlamaq kimi mühüm hadisələri vurğulayan e-poçt bildirişləri alacaq.

"YouTube" gələcəkdə bu alətə daha çox funksiyaların əlavə oluna və gənclərin onlayn fəaliyyətləri haqqında daha çox məlumat verə biləcəyini bildirib. Şirkət həmçinin vurğulayır ki, yeni funksiya qarşılıqlı nəzarəti təmin edir, yəni bir tərəf (yeniyetmə və ya valideyn) istənilən vaxt nəzarəti söndürə bilər. Bu, sosial şəbəkənin öz platformasında valideyn nəzarəti və gənclərin azadlığına hörmət arasında tarazlıq yaratmaq öhdəliyini vurğulayır.

## Pulsuz SOS xidməti




**"SpaceX" şirkətinin "Starlink" peyk interneti layihəsi bütün dünyada pulsuz SOS xidmətini təqdim edəcək.**

"Google" və "Apple" şirkətləri cihazlarında peyk rabitəsini premium xidmət kimi təklif edir. "Starlink" isə bu imkanı bütün smartfon istifadəçiləri üçün əlçatan etməyi hədəfləyib. Bu halda planetimizin ucqar nöqtələrində olan insanlar hətta mobil şəbəkəyə sahib olmadıqları halda belə, bu xidmət sayəsində təcili yardım xidmətləri ilə əlaqə qura biləcəklər.

Smartfonlar mobil şəbəkə qüllələrindən asılı olduğu üçün uzaq nöqtələrdə funksionallıqları məhdud olur. "Starlink" Yer kürəsinin orbitində 6000-dən çox peykə sahib olmaqla Yerin ən uzaq nöqtələrində belə, qlobal geniş zolaqlı rabitəni təklif edərək uzaq nöqtələrdə internetə çıxış imkanını əlçatan edir.

Qeyd etmək lazımdır ki, SOS xidmətinin qlobal şəkildə istifadəyə verilməsi üçün hər ölkədən xüsusi icazə alınmalıdır.

## Smartfon şüalanması beyin xərçəngi yaratmır

**Səhiyyə Təşkilatının məlumatına görə, smartfon istifadəsi beyin xərçəngi riskini artırmır.**



Təşkilatdan verilən məlumata görə, naqilsiz şəbəkə texnologiyalarından istifadə sayının artmasına baxmayaraq, beyin xərçəngi xəstəliyinə tutulma hallarında artım müşahidə edilmir.

Araşdırmada mobil cihaz vasitəsilə uzun telefon danışıqları aparanlar və 10 ildən çox smartfon istifadə edənlər iştirak ediblər. Məlumatlara 1994-cü ildən 2022-ci ilə kimi aparılmış 63 tədqiqat daxil olub. Tədqiqatda 10 ölkədən 11 nəfər mütəxəssis iştirak edib.

Araşdırmaya Avstraliya Radiasiyadan Müdafiə Təşkilatı da cəlb edilib. Aparılmış təhlillər çərçivəsində smartfon, televizor və radarlarda istifadə edilən radiotezliklərin insan orqanizminə təsirləri qiymətləndirilib. Nəticədə məlum olub ki, bu texnoloji alətlərdən istifadə zamanı beyin xərçəngi riskinin yüksəlməsi müşahidə edilməyib.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Bir gündə 4 medal

**Bu gün Parisdə XVII Paralimpiya Oyunları başa çatır. Planetin ən güclü idmançılarının yarışdığı turnirdə gərgin idman mübarizəsinin şahidi olduq.**



Azərbaycanda da hamı Parisdən medal xəbəri eşitmək ümidi ilə yarışları böyük həyəcanla izlədi. Bundan əvvəl iştirak etdikləri 7 paralimpiadada qazandıqları medallarla xalqımızı sevindirən Paralimpiya yığmamızın hesabında 11 medal var. Bunlardan 4-ü qızıl, 2-si gümüş və 5-i isə bürünc medaldır.

Dünən daha 6 paralimpiyaçımız medal uğrunda görüşlər keçiriblər. Ölkəmizin hesabına 4-cü qızıl medalı Orxan Aslanov yazdırıb. İdmançımız T13 kateqoriyasında uzunluğa tullanma yarışında fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. O, 7.29 metr göstərici ilə hamıdan güclü olub. Bu paralimpiya oyunlarında Orxanın 2-ci qızıl medalı olub. 29 yaşlı idmançımız "Tokio-2020"də də qızıl medal qazanmışdı.

Bir neçə gün bundan əvvəl "Paris-2024"də hesabına qızıl medal yazdıran paraatletimiz Lamiyə Vəliyeva növbəti finalında çıxış edib. Təmsilçimiz T13 kateqoriyasında 400 m məsafədə növbəti medalını qazanıb. Braziliyalı Rayane Silva 1-ci olub. Lamiyə Vəliyeva 55.09 saniyəlik göstərici ilə gümüş medal qazanıb.

Paraüzgüçümüz Raman Saley (S12 kateqoriyası) növbəti medal uğrunda mübarizəyə qoşulub.

O, 100 metr məsafəyə "butterfly" (kəpənək) üsulla üzmədə bürünc qazanıb. 58,13 saniyəlik nəticə göstərən paraüzgüçümüz finiş xəttinə üçüncü çatıb. Bu, onun yarışlarda 3-cü medalı olub.

Qeyd edək ki, Raman Saley bunadək Parisdə 1 gümüş və 1 bürünc medal qazanmışdı. Dünən 3 paracüdoçumuz da tatamiyə çıxıb.

Qadınların yarışında J1 kateqoriyasında Xatirə İsmiyeva (+70 kq), J2 kateqoriyasında Dürsədəf Kərimova (+70 kq) və kişilərin mübarizəsində Azərbaycanın əfsanə paracüdoçularından olan İlham Zəkiyev (+90 kq) J1 kateqoriyasında medallar uğrunda yarışıb.

Qadınların (+70 kq) mübarizəsində J1 kateqoriyasında yarışan Xatirə İsmiyeva ilk görüşdə Maryam Aldhanhaniyə (BƏƏ) "ipponla" qalib gəlib. O 1/4 finalda Nazan Günəşə (Türkiyə) məğlub olub. İsmiyeva bürünc uğrunda təsəlliverici görüşdə venesuelalı Sanabriya Alkala ilə güləşməli olsa da, rəqib tatamiyə çıxmayıb. Nəticədə texniki qələbə qazanan Xatirə bürünc uğrunda görüşdə amerikalı Qarsiya Kristellaya uduzub.

Bu çəkidə J2 kateqoriyasında mübarizə aparan Dürsədəf Kərimovanın 1/4 finalda Rebeka de Souza Silvaya (Braziliya) uduzub. Dürsədəf bürünc uğrunda təsəlliverici görüşdə yerli idmançı Preskiliya Lezzini məğlub edib. Kərimovanın bürünc uğrunda görüşdə rəqibi çinli Vanq Honqyu olub. Məğlub olan paracüdoçumuz yarışı medalsız başa vurub.

Kişilərin +90 kq çəki dərəcəsində J1 kateqoriyasında çıxış edən İlham Zəkiyev 1/4 finalda yerli idmançı Ceyson Qrandraya uduzub. O bürünc uğrunda təsəlliverici görüşdə iştirak edib. Niderlandlı Daniel Kneqtə qalib gələn Zəkiyev bürünc uğrunda həlledici görüşdə iştirak hüququ qazanıb. İdmançımız rəqibi monqolustanlı Qanbat Dashtserenə vaza-ari ilə qalib gəlib.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

**Yeni tədris ili qarşısında**

## Qubanın kəndində yeni məktəb binasının açılışı olub

Qubanın Çingiz Mursalov adına Vəlvələ kənd tam orta məktəbi üçün tikilən yeni binasının açılış mərasimi keçirilib. Çıxış edən rayon icra hakimiyyətinin başçısı İlqar Mahmudov Azərbaycanda aparılan təhsil islahatlarından, təhsilə göstərilən dövlət qayğısından söz açıb.

İ.Mahmudov vurğulayıb ki, rayon üzrə bu il də yüksək bal toplayaraq ali məktəblərə qəbul olunan gənclər çoxdur. Ümumilikdə qubalı abituriyentlər əvvəlki illərdən fərqli olaraq ali məktəblərə yüksək balla daxil olurlar. Bu, rayonda təhsilin keyfiyyətinin yüksəlməsinin nəticəsidir.

Azərbaycan elm və təhsil nazirinin müşaviri Elnur Əliyev və Quba-Xaçmaz Regional Təhsil İdarəsinin müdiri Coşqun Əliyev də müəllim və şagird heyətini məktəbin yeni binasının açılışı münasibətilə təbrik edib, ölkəmizdə həyata keçirilən təhsil siyasəti, təhsilin qabaqcıl dünya təhsil sisteminə inteqrasiyası, bu sahədə müasir infrastrukturun və maddi-texniki bazanın formalaşdırılması, kadr potensialının gücləndirilməsindən danışıblar. Mərasimdə həmçinin şəhid baçısı Sevil Mursalova və kənd ziyalıları çıxış edərək yeni məktəb binasının ərsəyə gəlməsində əməyi olanlara təşəkkürlərini bildiriblər.

Qeyd edək ki, 264 şagirdlik yeni məktəb binası 3 mərtəbəli olmaqla 21 sinif otağından, akt, idman zalları və mini stadiondan, kitabxana, informatika, hərbi hazırlıq kabinetlərindən, laboratoriyadan, bufetdən və digər otaqlardan ibarətdir.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

## Onlar Lerikin fəxridirlər

Lerik Rayon İcra Hakimiyyətində qəbul imtahanlarında yüksək bal toplayaraq ali məktəblərə, o cümlədən Qarabağ Universitetinə qəbul olunmuş rayon gəncləri ilə görüş keçirilib.

Görüşdə rayon icra hakimiyyətinin başçısı Əkbər Abbasov tələbə adını qazanmış gəncləri və müəllimləri yüksək nəticəyə görə təbrik edərək qeyd edib ki, ali məktəblərə daxil olan lerikli gənclər arasında 500-dən yuxarı bal toplayanların olması çox sevindiricidir. Məlumat üçün bildirək ki, bu il rayonun orta məktəblərini bitirən məzunlardan 140 nəfəri tələbə adını qazanmışdır. Onlardan 6 nəfər 600-dən, 19 nəfər isə 500-dən yuxarı bal toplamışdır.

RİH-in başçısı tələbə adını qazanaraq Qarabağ Universitetinə qəbul edilmiş gənclərə bu ali məktəbin ilk tələbəsi olmağın böyük fəxr hissi doğurduğunu qeyd edib, gənclərə təhsillərində uğurlar arzulayıb.

Görüşdə Lənkəran-Astara Regional Təhsil İdarəsinin Lerik rayonu üzrə təhsil sektorunun müdiri Zöhrab Salayev və Veri kənd tam orta məktəbinin direktoru Mahir Əliyev çıxış edərək tələbə adını qazanmış gəncləri təbrik edib, onlara uğurlar arzulayıblar.

Sonra Lerik şəhər 3 nömrəli tam orta məktəbin məzunu, 660 balla Azərbaycan Dövlət İqtisad Universiteti İnformasiya təhlükəsizliyi fakültəsinə qəbul olmuş Yusif Abbaszadə, Veri kənd tam orta məktəbinin məzunu, 633 balla Azərbaycan Tibb Universitetinə qəbul olmuş Elmar Samizadə, Lerik şəhər 1 saylı texniki fənlər təmayüllü liseyi qızıl medalla bitirərək 602 balla Milli Aviasiya Akademiyasının Hüquq fakültəsinə qəbul olmuş Nübar Fərəczadə, Qarabağ Universitetinin Menecment fakültəsinə qəbul olmuş Züvüc kənd tam orta məktəbinin məzunu Elmina Hüseynli və digərləri çıxış edərək uğurlarında əməyi olan hər kəsə minnətdarlıqlarını ifadə ediblər.



Sonda ali məktəblərə qəbulda yüksək bal toplamış tələbələrə rayon icra hakimiyyətiin təşəkkürnamə və hədiyyələri təqdim olunub.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Hava yağmursuz olacaq

Azərbaycanda sentyabrın 7-nə gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava əsasən yağmursuz keçəcək. Mülayim şimal-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 18-23° isti, gündüz 27-31° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 764 millimetr civə sütunu olacaq. Nisbi rütubət gecə 65-75 faiz, gündüz 40-50 faiz olacaq.



Abşeron çimərliklərində mülayim şimal-şərq küləyi əsəcək. Dəniz suyunun temperaturu Şimal çimərliklərində (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zuğulba) 24-25° isti, Cənub çimərliklərində (Türkan, Hövsan, Sahil, Şıx) 24-25° isti olacaq.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 16-21° isti, gündüz 29-34° isti, dağlarda gecə 8-13° isti, gündüz 13-18° isti olacaq.

«AZƏRBAYCAN»
qəzetinin reklam xidməti

**ALLAH RƏHMƏT ELƏSİN!**

Eldar Əzizov və Bakı Şəhər İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi Bakı Şəhər İcra Hakimiyyəti başçısı Aparatının Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Anar Tağıyevə anası

**İRADƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4091
Sifariş 2008

Qiyməti 60 qəpik